-Vəcd karakteri daşyian bu yeni din, mərkəzi hakimiyətin gücləndirilməsinə yardım etdi. Digər yandan, əsasında iran (fars) milliyətçiliyi iylə heç bir əlaqəsi olmayan bu yeni doktrin iranlıların (farsların) mücərrəd islamiyət içində, daha doğrusu, gerçəklər baxımından türk oqyanusu içində əriməsinə qarşı qoyma haqqını təmin edən bir ada vəzifəsi gördü.» Tarixin paradoksu ondadırkı, farsları bu oqyanusda əriməkdən xilas edənlər elə türklərin (qızılbaş tərəkəmələri, və səfəvilərin) özü oldu.
-İran və ğərb müəllifləri haqlı olaraq səfəvilər dövlətinin yaranmasını iran imperiyasının bərpası dövrü hesab edirlər. Rəsmi iran tarixçiliyində səfəvilərdən əvvəlki ağqoyunlu, qaraqoyunlu və başqa dövlətlər bir qayda olaraq iran dövlətçiliyinə yad hadisə sayılmaqdadır. İran tarixçiliyinin səfəvilərə sevgisi, təkcə sasanı dövlətçilik sistimini bərpa etməsi iylə bağlı deyil, həm də onun indiki teokratik rejim üçün dövlət modeli olması iylə izah edilməlidir.
-Bu sözlərdən nəticə, məzhəb dəyişikliyinə çağırış olaraq qəbul edilməməlidir. Məzhəb, səfəvilərdən öncə olduğu kimi hər bir müsəlmanın şəxsi seçimi olmalıdır. Məntiqin yolu: məzhəb ayrılığı siyasiləşdirilməməli, siyasətə alət edilməməlidir. Məzhəbin siyasətə alət edilməsi keçmişdədə, indidə fars ırqçılığının işinə yaramış, Azərbaycan türkünün özünü tanımasına, doğru-düzgün yol tutmasına manə olmuşdur!
Pan-iranizmin fikir babalarından olan və özünü fars kökənli bilən mirzə fəthəli axundzadə`nin əsərlərində səfəviyə heyranlıq hakimdir. O, məsələn, yazırdı: «islamiyətdən qabaqkı iran qövmunun əlamti cəmşid taxtı, istəxr qalası kimi qədim padşahların

asarıdır. Islamiyətdən sonrakı ən məşhur asardan biri isə səfəvi padşahlarıdırkı, əsna əşərilik [şiəlik] məzhəbinə iranda rəvac verib, onun müxtəlif tayfalarını vahid millət halında nizama salmışlar və iranın ayrıca, müstəqil dövlət olmasına səbəb olmuşlar.» (Mirzə fəthəli axundzadə, əsərləri, 2cıld, bakı: şərq-qərəb, 2005,s.158.).

-Bu bölümün sonunda önəmli bir nüktəyə vurqu yapmalıyıq: islamiyətin ilk çağlarından danışarkən bu ibarəti işlətmək doğru olsada, indiki çağda «farslar üçün şiəliyin cəlb edici tərfi» yanlış bir istilah görünməkdədir, daha doğrusu, şiəlik əslində farsçılığın çəkirdək nüqtəsi sayılmaqdadır. Və şiəlik dediyimizdə fars şiəliyindən başqa şiəlikdən söz etmək anlamsız bir şeydir, bu haqda çəkirdək teorisi bölümündə yetərincə bilgi verilməkdədir.

-Bilirik ki bu dinin əsli dili fars dilidir və ilqinc buradadı yeni farsçılar əski dinlərinə tay, həman əski farscanı, yəni firdusi dilini bənimsəyərək onu bu millətə təhmil etməkdədirlər, yəni əski farsca dilidə, əski sasanı dininə tay min ildən çoxdurki ən ufaq dəyişimə uğramayıbdır, misal üçün deyilməlidir, hər ingiliscə dil öyrəncisi yeni mətnləri rahatlıqla oxuyarkən, Məsələn şəkspirin 50 il bundan qabaqcı tərcümələrini oxumaq istəsə çox çətinlik çəkər və zamanımıza yaxın tərcümələri daha rahatlıqla oxuyabilir, demək ki bu dil hətta geçmiş əlli ildə də böyük dəyişimə uğrayıbdır bu durum türkcə və hətta ərəbcə də də, beylə dir bir insan əgər əlli il bundan öncəki bir türk yazısını götürürsə, indiki yazılara nisbət daha çətinliklə oxuyabilir, halbuki indi hər fars dilini bilən, indiki bir fars mətnini həman rahatlıqla oxuyabilirkı firdusin`in şeirlərini oxuyabilir, demək əski fars dili geçmiş min ildə ən balaca dəyişimə uğramayıbdır əlbətə geri qalmış fars aydınları buna iftixar edərlər çünki onlar inkişaf və gəlişməni əsla düşünməzlər. Və hərcür dil inkişafınada vargüclərilə qarşı çıxarlar, bu durum eynən din və siyasət haqqındada geçərlidir zahri dəyişmələrə baxmayaraq fars şiəliyi haqda sasanlı zamanına nisbət heç bir dəyişiklik görünmür və tarixi hadisələri oxuduqda bunu açıq aydın görmək olur.

-Bunları deməkdən amac budurki bu kültürə və bucür durqunluğa inananların mütmeinən düşüncələridə beylə durqunluq durumundadır və beylə düşünən adamlar hər hansı bir mövzu haqqındada beylə düşünəcəkdilər və əmələn bir fikir donuqluğunda taxılıb qalmaqdadılar.

2-9-fars şiəliyi əslində məcusi şiəsidi

-fars şiəliyi əslində məcusi şiəliyi olmalıdır, onlar açıqca deməsələrdə hədislərində bunun işartlərin verirlər, bu haqda bir sıra hədislər daha aydınladıcı olabilir, bu bölümdə gətirilən sözlər, bu kitabın müxtəlif qismətlərində, qaynaqlarıyla birlikdə verilmişdi.

Şuubilər və əsli adıyla desk «fars şiəliyi» islamin başlanqıcından bəri, iki müşəxxəs qrupa ayrılırlar, bir qrup atababalarının dini və kültürəl qayda qanunlarını yəni məcusilik dini usullarını, dastan, şeir və zəndiq kitabları şəklində bir yerə toplayırlar,

və ayrı tərəfdəndə onların islam dünyasında geçərsizliyini düşünərək ayrı bir qrup həman məlzəmələri qutsallaşdırmaq istəyirlər, bu qrup onları islam adına və hədis şəklində qutsallaşdırırdı, məcusi dinində olan, qadın alverçiliyi qaydaları, yönətim usulları və zid islami təfəkkürü, koleyni lər tərəfindən fars şiəliyi adıyla islama yapışdırıldı və toplum içində yayılmağa başlanıldı, özəlliklə bu məsələyə diqqət etmək lazimdir o dönəm siqə, məcusi fars xalqı içində yayqın bir gələnəkiydi

fəcrulislam yazır (səfhə 276-278) : təşəyyo (h. Əli üçün) iranlıların (farsların) islama girməsindən öncə başlanır, və getdikcə h. osmana intiqadlarla böyüdü, bu iş üçün h. Əli o birilərdən daha çox bəyənilirdi, çünki h. Əli iki cəhətdən uyqun görsənirdi, bir tərəfdən h. Peyğəmbərlə qohumluğu varıydı və ayrıca yetənəkəliydi, ama təşəyyo, yəhud və nəsara və məcusilərin islama girməsiylə ayrı rəng tapdı və hər qrup, təşəyyo məzhəbini, öz dinlərinin qalıblarına salmaq istəyirdilər, yəhudilər ona yəhudi rəngi verirdilər, məsihilərdə öz dinlərinin rənginə salmaq istəyirdilər, ama onun ətrafında fars ırqı daha çoxuydu və getdikcə onların kültür və əski

dinlərinin rəngi, özgələrdən daha çox şiə məzhəbinə təsir etdi və sonunda tam bir fars dini rəngini aldı. Fars şiəliyində çoxlu hədislərdə, açıq aydın məcusi gələnəkəlrindən və məcusi şəxsiyətlərindən söz gedir və bəyənilir və ayrıca qondarma hədislərlə imamları, məcusilərin qanına bağlayırlar:
farsçıların imam zamanı gəldigində məcusi şahı xosropərviz kəsra`nı cəhənmdən nəcat verir və cənnətə göndərəcək və ərəbləri öldürəcək, bu hədisdə açıq aydın islam ordusu tərəfindən yenilgiyə uğrayan ən qəddar və kafir məcusi şahı farsçıların yaratdığı imam zamanın lütf iylə cənnətə girir və ərəblər kafir sayılaraq imam zaman tərəfindən öldürülür. İlginc budur imam zamanın 182 adı vardı və o adların biri «xosro məcus» deyilibdi. Farsçılar məcusi muğlar sayaqında quran`ı sırlı bilərlər və amacları onu mallalara özgü edib çıxar sağlamaqdı.
Əllamə məclisinin, h. ömər, yəzdgerdin qızı şəhrbanu və h. Əli və h. Hüseyn haqqında cəəl etdiyi nağıl kimi hədislər, onların məcusiliyə olan ilgi və əlaqələrini göstərir.
Hicri 4. yuzilə kimi tarixdə şəhrbanu adı səbt olmayıbdı, yəzdgerd`in eylə bir qızı yoxuydu, sasanlı əsirlərin içində eylə bir qız adı yazılmayıbdı və kərbəla`da əsir olanların içində beylə bir şəxsin adı aparılmayıbdı.
Şəhrbanu adı ilk dəfə «həbaer ud dərəcat» (muhəmməd ibn həsən səffar qumi, ölüm ili 290 q) kitabnda gəlib və sonrada koleyni bu dastanı fars şiəliyinə yararlı görür və ona qolbudaq verərək usul kafi (c 2, s 369) kitabında yazır, rəvayət də beylə yazır: yəzdgerd`in qızı əsir olur h. ömər`in yanına gətirirlər, qız üzünü tutaraq deyir «vay hormoz`un tufağı dağıldı», h. ömər onun dilin bilməyərək deyir bu şəxs mənə söyüş etdi, h. Əli buyurur ey ömər sənin haqqın yoxdur ona bir söz diyəsən, sənə gərək bu qıza ğənimət kimi seçim haqqı verəsən, qız imam hüseyni seçir və h. Əli onu imam hüseyn`in nikahına gətirir, və əli ibn ul hüseyn anadan olur və ona ibn ul

xeyrəteyn (iki seçkinin oğlu yəni ərəblərdən bəni haşim və farslardan sasanlı sulaləsi) deyirlər.
Bu rəvayət həm sənəd və həm mətn cəhətindən işkallıdı, raviləri ibrahim ibn ishaq əhməri nəhavəndi və ömər ibn şimr, «əlm urrical e şiə» də kəzzab, cəal şəxslər tanınıblar (ayətullah xoyi, möcəm rical ul hədis, c 1, s 202 və c 13, s 106).
Ayrıca şəhrbanu imam həsnlə evlənmir çünki onun oğulları imam deyildi və imam hüseynlə evlənir çünki onunu nəslindən gəlnlər imam olublar. Bu rəvayətə görə imam hüseyn h. ömər zamanı 15 yaşında şəhrbanu iylə evlənibdi, halbuki imam hüseyn h. osman zamanı evlənmişdi.
Bu tur hədislər nişan verir fars şiəliyi məcusi dini əsasları üzərində qurulubdu və bu dinə yəzdgerdi şiəsi vəya məcusi şiəsi deməyimiz daha uyqun olmalıdır.
Əllamə nuri təbərsi yazdığı «əlnəcm üs saqib fi əhval il imam əl höcətəlğaib » kitabında imam zaman`ın 47inci ləqəbin «xosro məcus» deyibdir. Demək olar əllamə məclisi açıq aydın fars şiəliyini məcusi hökmdarına bağlamaq istəyir və farsçıların imam zamanı əslində sasanlı hakimi yəzdgərd`in torunlarından sayılmaqdadır. Bu gələnəyi əllamə məclisi pərdə palazsız, farsçılıqla eyniləşdiribdir.
Əllamə məclisi bəharulənvar da nəql edir: farslar qadisiyə yenilgisindən sonra yəzdgerd`ə xəbər verirlər ki rüstəm yenildi və ərəblər üstün oldular və fars qoşunundan əlli min nəfər həlak oldu, yəzdgərd ailəsiylə qaçmağa hazırlaşdı, o eyvan`dan çıxarkən qapısının astanasında durdu və dedi: «ey eyvan mən səndən ayrılıram ama bir gün oğullarımın biriylə sənə qayidacağam». Süleyman deyləmi deyir: əbu əbdullah`ın yanına getdim və bu haqda ondan soruşdum: yəzdgərd`in bu sözü «mən bir gün oğullarımın biriylə sənə qayıdacağam» nə anlamdadır?. Dedi: sahib əz zaman, mənim oğullarımdan, yəzdgərd`in torunlarındandır.

ibrahim nemani əlğeybə kitabında yazır: əbi əbdullah`dan nəql olunubdur : «hər zaman imam zaman zuhur edə ərblərlə və qoreyş lə yalnız qılıncla qarşılaşacaqdır», ayrı yerdə deyir «imam zaman, ərəblərin 70 qəbiləsini darmadağın edəcəkdir».

Məcusi şiəliyinin əsasları 6ıncı fəsil də açıqlanmışdı bir məcusi şiəliyinə inanan bu kötülükdən qurtulmaq üçün, deyiln təməllərdən arınmalıdı, məcusi təqiyəsi və yalan danışmaq, düşmənçilik törətmək, tanryia şərik yaratmaq və qadın alverçiliyinə inanmaq, bu kötülüklərin başındadır. Bir insan zehniyətində və davranışlarında bunlardan qurtulursa, düzgün islamiyətə doğru yönələbilir.

3-Azərbaycan türkləri iylə fars şiəliyinin münasibtləri

3-1-tarixdə şiə hökümətləri

-şiə kələməsi quran da təfərroq və ferəq anlamında işlənibdir, bu kələmə ilkcə, h. Əli və muaviyə arasında olan anlaşmada gələrək, əli şiələri və muaviyə şiələri şəklində olmuşdur, məənaca tərəfdar və yoldaş olaraq, əli tərəfdarları və muaviyə tərəfdarları məənasındaydı.

-Bir sıra alimlər şiəliyin başlanqıcını əbdullah ibn səbəə adında bir yəhudi yəmənliyə bağlarlar, bu şəxs h. Əli zamanı yaşayırdı, ilkcə insanları yəhudiyətə çağıraraq uğur qazanabilmir, bu üzdən islam gətirir və ixtilaf yaratmaq üçün canşinlik və rəcət məsələsini mətrəh edir, yəhudiyət də h. Musa`dan sonra «yuşe»nin canişın olmasına inanırdılar, bu olaya tay, h. Muhəmməd dən sonra h. Əlinin vəsi olduğunu mətrəh etdi və öncəkilərin (yəni üç xəlifənin) bu haqda haqsız olmasını önə sürdü, əlbətdə h. Əli yaşamında heç vaxt bunların tərfini tutmadı.

Fars şiəliyi, şuubiyə hərəkatının mərkəzi olaraq, daima, islam xəlifəliyinə qarşıt olan, hər cür hərəkətləri dəstəkləyərək hərtür yardımı olardan əsirgəmirdi, bu üzdəndə dolayılı və dulaysız hər islami hökümət qarşıtı olaylarda yaxından vəya uzaqdan onların

ayaq izlərini görmək olar. Aşağı hadisələr azma çox bu təşəbbüsləri göstərməkdədir.
-Farsçılıqla ilgili bütün şəxslər və axımlar, yaxın zamanlarda şiəliyin təhlikələrin və yanlışlıqların dünya çapında görərkən, farsçılığın kökünü unutdurmaq üçün və onun görünməməsi üçün, şiəliyin kökünü yalnız səfəvilərə bağlamaq istəyirlər və orada bitirməyə çalışırlar, və eylə təblığat edirlər quya ondan öncə ya şiəlik yoxuydu və əgər olsada balaca qruplar halındaydılar, tarixi sənədlər bunun tərsinə dəlalət edir, şuubiyə cəryanında və özəlliklə albuyə dönəmində fars şiəliyinin, koleyni, tusi və ibn babuye kimi şəxslərin əlilə, nəcür teorizə olduğunu gördük, bu bölümdə onların qurduğu hökümətlərə, toplumsal qalxışlarına, müxtəlif bölgələrdə yayılmalarına və qurduğu hökümətlərə işarə olunur :

3-1-1-idrisii hökümməti : Bəziləri ilk şiə hökümətini idrisilər olaraq bildirirlər, ama müvərrixlər aydın şəkildə onların şiə olduqlarına işarə etməyiblər, özəlliklə onlarla fatimilər arasında müxtəlif çatışmalar onların şiə olduğunu dahada şübhə altına aparır, hər halda bu sulalə idrisii adında bir şəxsin təşəbbüs iylə məğrib ölkəsində hakimiyətə yetirdi, quya o dönəm bir sıra şiələr gördüler islam ölkəsinin ortalarında beylə bir hökümət qurmaq mümkün olmayaraq məğribə getdilər və hökümətlərin orada qurdular, onlar m. 803-949 (günəş ili 184-328) illəri arasında hakimiyətdə qaldılar və fatimilərlə savaşlarda yenildilər.

3-1-2-buyə oğulları(al buyə) : buyə oğulları fars şiələri olaraq fars bölgəsində qudrətə yetirdilər, əli ibn buyə 321 hicridə şiraz da təxtə oturdu, onlar hicri 447 yə kimi höküm sürdülər.
-ibn kəsir, əlbədayə və əlnəhayə kitabında (11inci cild s. 243) yazır: buyə oğulları zamanı şiələr h 352 də əzadarlıq dəstələri yola saldılar, qadınlar küçə bazara çıxaraq pərişan tüklərilə başlarına və üzlərinə vururdular. Və hökümətdə, onlardan himayət edirdi. (Ibn

kəsir, əlbədayə və əlnəhayə 11/253-255 və 13/203-205). Bu mərasimlər fars şiəligyi tərəfindən bidət edilərək, sonralar bütün şiə fərqələri tərəfindən təqlid olundu.

3-1-3-həmdanilər : həmdanilər ərəblərin təğləb tayfalarından sayılırdılar, həmdan sulaləsi h 281 də musel və mardın ətrafında hakimiyəti ələ geçirdilər, onlar ixşidilərlə savaşlara girdilər, və son hakimləri seyfuddovlə vasitəsiylə h 356 ilinə qədər hökümət etdilər, Bəzi deyişlərə görə onlar sonralar və özəlliklə hökümətlərinin son vaxtlarında və fatimilərə təslim olaraq şiəliyi qəbul etdilər.
3-1-4-fatimi şiələri: bəni əbbasi dövrü əbu obeydullah şii adında bir şəxs misirdə ismailiyə firqəsini təbliğ edirdi, ətrafına qoşun yığaraq h 296 da mehdi adında bir şəxsi məğrib bölgəsinin hakimi elam etdi və idrisi`lərlə savaşaraq onları aradan apardı, mehdi yerini bərkidəndən sonra əbu obeydullah şiiyə qəzəb edərək onu aradan qaldırdı ondan sonra oğlu hökümətə yetirdi, fatimilər bəni üməyye əleyhinə andolus ölkəsindədə savaşdılar oranın müsəlmanlarına böyük xəsarətlər yetirdilər. Fatimilər, covhər zamanı h 358 də misir ölkəsini, ixşidi və bəni əbbasilərin əlindən çıxardılar və uzun müddət bəniəbbasilərlə savaşdılar və bu savaşlar sonucu islam aləminin ilərləməsi böyük ölçüdə alındı (qaynaq: əmirulmöminin və Azərbaycan s. 112),
fatimilər islam orduları əleyhinə, hər zid islami guclərdən yararlanırdı, ibrahim qəfəs oğlu «sultan məlikşah» kitabında yazır: miladi 1076-1077 (h 469) fatimilərlə səlcuqlular arasında çoxlu çatışmalar oldu, o dönəm fatimilərin ordubaşçılarından ən adlımı bədrulcəmali idi, bu şəxs erməni əsilli olaraq sonralar müsəlman olur, onun ordusu əslində ermənilərdən oluşurdu, suriyədə dəfələrlə şəhərlərə hücum etdi, və müsəlmanları və özəlliklə müsəlman türkləri qətlam etdi.
Əyyubi ətrafında toplanan müsəlmanlar, xaçlılarla savaşırkən, fatimilər xaçlılarla iskəndəriyə şəhərində müttəhid oldular və

əyyubilərə böyük xəsarətlər yetirdilər, demək olar, son dönəmlərdə müsəlmanlar xaçlılar əleyhinə, səlahəlddin əyyubi ətrafına yığışmışdılar, onlar iki cəbhədə savaşırdılar bir tərəfdən xaçlılarla döyüşürdülər və ayrı tərəfdən fatimilərlə savaşırdılar, fatimilər h 567 də səlahəlddin əyyubi tərəfindən aradan qaldırıldı.
-Ismayılilər heç vaxt yadlarından çıxatmamışdılar, fatimi hökümətini aradan qaldıran səlahəddin əyyubi olmuşdu, bu üzdəndə fürsət dalısıca gəzirdilər, h569 da onların bir neçəsi firnəg (fəransə) quvvələriylə təmasa geçirlər və hədəfləri əyyubi dövlətini dağıtmaq idi bu təşəbbüs ifşa olaraq onlar tutulurlar.
Sənə 571-573-584 üncü illərindədə əyyubi xaçlılarla savaşa gedərkən, fatimilərin bir bölümü, ona hücum etdilər, ama uğur qazana bilməmişdilər (əlsuluk əlmərifə dövlə tul muluk 1/53-61).
Fatimilər dönəmi misirlilər böyük təfriqə içində yaşayırdılar, fatimilərin zəval tapmasıyla və ayrıca çoxlarının dediyinə görə səlahəddin əyyubi böyük müsəlman türk sərdarı və sulaləsi, islam dini əsasında, utufətli və məntiqli davranişlarıyla və uzaq görənliklə, batiniyə fatimi firqəsinin düşüncə qaynaqlarını hikmət və bilim yol iylə qurutdular və xalqın əsli islam dinini bənimsəməsini sağladılar, bu firqə və düşüncələri həmişəlik misirdən silindi, və təfriqə təfəkkürüdə o ölkədə yox oldu. O dönəmdən buyana misir xalqı heçəvaqt bu yıxıcı məfkurəyə inanmayaraq daima onun əleyhinə olmuşlar.

3-1-5-qəramətələr vəya qermətilər : nəsəblərini ismayıl ibn cəəfər sadiq`ə bağlayırdılar onlar ilk olaraq h278 də əbbasi xəlifəsi əlmötəzid zamanı bəhreyn, şam, əmman da zuhur etdilər, qerməti lərin ayaqlanmaları h 466 ilinə qədər dəvam etdi onlar bir dönəm misiri almaq istədilər və sonunda zəvala yetirdilər.
Qermətilər suçsuz adı insanları öldəürməklə suçlanırlar, h 311 də əbutahir qerməti 1700 nəfərlik savaşçilarıyla bəsrə şəhrinə hücum edir və çoxlu adı insanları öldürərək onların əmvalını ğarət etdilər,

sonrakı il həman işi kufəlilərin başına gətirdilər. Və h 317 də məkkə`də hacılara hücum edib çoxlarını qətlə yetirdilər və zəmzəm quyusunu ölülərlə doldurdular, həcəruləsvəd daşını söküb apardılar, bu daş sonralar məkkə yə qaytarıldı.

3-1-6-ismailiyə vəya batnilər : bu qrup fars şiəliyinin səmbolu olaraq həsən səbbah tərəfindən düzəldi onlar səlcuqlu dövlətini hədəf almışdılar. Bu qrup həşaşiyə, nəzariyə, məlahidə, əbahiyə, təlimiyə, mohəmmirə firqələrinin birliyindən ortaya çıxmışdır, həsən səbbah «sərgüzəşt e seyyidina» kitabında özünü bir yəmənli ərəb qəbiləsinə bağlayır vəli tarixi sənədlər nişan verir o yalandan özünü ərəb qəbilələrinə bağlamaq istiyərək özünə məşruiyət qazanmağı amaclayırdı, halbuki xorasan tus bölgəsindənidi. Ismailiyə firqəsi imam musa kazimin imamlığın rəd edərək imam cəəfərsadiqin o biri oğlu ismayılın imamlığına inanırdılar, həsən səbbah miladi 1079 da qahirəyə gedərək fatimilərin yanında eyitim gördü, orada fatimilərin ordubaşısı bədrulcəmali iylə ixtilaf taparaq oradan isfahana qaçır(1081), sonrada məlikşahın vəziri nəzamulmülk`ün qəzəbindən qaçaraq qəzvin cəvarında ələmut qalasını ələ geçirir bu qala 860 larda təbəristan ələviləri həsən zeyd tərəfindən düzəlmişdi və sonralar səlcuqluların əlinə geçmişdi. Həsən səbbah tərəfdarlarını başına yığaraq uzun müddət teror və totəə işləriylə səlcuqlu dövləti əleyhinə savaşdı. Zaman zaman xorasan və isfahanda üsyan yaradırdılar.
Hicri 484-489 illərində, həsən səbbah qrupuna bağlı olan batnı şiələri isfahan ətrafında şuriş edirlər, bu dönəm xaçlılar fürsətdən yararlanaraq hücuma geçirlər və məscid ul əqsa`nı alırlar. 501 yənci ildə ismailiyə firqəsindən rizvan adında biri səlcuqlu qılıc ərsəlana xaçlılarla savaşa gedərkən hücum etdi və sonrada buna əktifa etməyərək xaçlılara qatıldı və müsəlmanların əleyhinə savaşa girdi (ibn kəsir, əlbədaye və əlnəhaye 12/166-167). Hulakuxan (13üncü yüzil) ələmut qalasını quşadaraq onların işlərinə son verdi.

3-1-7-fars şiəliyinin sünnü müsəlmanlar əleyhinə təşəbbüsları

bir sıra müvərrixlər ibn əsir və ibn kəsir, kitablarında muğul hücumu zamanında şiələrlə onların iş birliklərindən yazırlar ibn kəsir muğulların bəğdad hücumunun əsli nədənini, şiələr və özəlliklə xacə nəsir tusi olaraq göstərir, xacə nəsir, muğulları bəğdada hücum etməyə təşviq etdi, onlara qılavuzluq etdi, və nəhayətən bəni əbbasi xəlifəsini onun yol yöntəmləriylə öldürdülər. Bu hücumda Bəzi deyişlərə görə səkkiz yüzmin dən bir milyon səkəkkizyüzminə qədər insan öldürüldü.

-Xacə nəsirəddin tusi bir fars şiəsi olaraq ilkcə ələmut qalasında ismailiyə firqəsiylə əməkdaşlıq edirdi, ələmut qalası həsən səbbah tərəfindən teror mərkəzinə çevrilərək uzun dönəm səlcuqluların əleyhinə totəələr düzənləyirdilər, o sonralar hulaku`nun vəziri oldu və h 656ıncı ildə bəni əbbasi hökümətinin yıxılmasında muğullara müşavirlik elədi. Farsçı din adamları xacə nəsirəddin tusi dən böyük həkim və alim kimi yad edərlər. Və cənab xomeyni də ondan çoxlu təərif və təmcid edibdi.

3-2-islam dininin türklər arasına gəlməsi və yayılması

bu mövzu iki yöndən olaraq dəyərlənməlidir:

birinci yön Azərbaycan fəthi : hicri 22inci ildə, islam ordusu Azərbaycanı fətəh etdi, islam ordusu, Azərbaycan və qəfqazda, rahatlıqla türklərlə anlaşdı və hətta onlar üçün müsəlman olmaq şərtini belə ortaya qoymayaraq və onlardan islam qanunu gərəyincə cəziyə`də istəmədilər, yalnız bir şey üstə anlaşdılar, Azərbaycanlılar islam hakimiyəti çatısı altına girdilər və tək görəvləri xəzər impratorluğunun qarşısında durmaq ıydı, Azərbaycanlılar və qafqazlılar tədricən könüllü olaraq islam dininə girdilər.

Ərəblər Azərbaycana girərkən türklərdən danışırlar, o zamanın sənədləri ən aydın bəlgələr olaraq Azərbaycanlıların türk olduğunu göstərir.

Təbəri`nin yazdığına görə hicri 104üvcü ildə, ərəblərdən «cərah ibn əbdullah həkəmi» ərməniyə və türk toprağı Azərbaycanın əmiri olaraq, bələncər şəhrini aldı və türkləri yendi, bu mətləbin ərəbcə əsli yazısı beylədi[1]:

ama bu kitabı farscaya tərcümə edən «əbulqasim payəndə» onu təhrif edərək «ərz uttürk» ibarətini həzf edibdi, gərçəkdən fars şiəsinə uyan bütün farsçılar və pəhləvi eyitimli uzmanlar hamısı təhrif işini dinlərinin əsli olaraq onu savab bilirlər. Aşağıda farscaya tərcümə olmuş «tarix təbəri» kitabından paraqrafın kupısı verilibədi[2]. Bu məsələyə ibn kəsir əlbədayə və əlnəhayə kitabındada işarə edibdi.

İkincisi yön orta asya olmuşdur: talas olayı və onun açıqlaması

miladi 751 də çinlilərlə ərəblərin savaşlarında hələ müsəlman olmamış türklər səf dəyişdirərək ərəblərə kömək edirlər, və bölgəni çinlilərin əlindən qurtarırlar. Bu dönəmdən sonra türklər könüllü olaraq islami qəbul etdilər.

Türklər, ərəb islam ordularında könüllü olaraq əsgərlik yapırdılar, türklər orduda və sarayda hızla yüksələrək ordubaşılığına və xəlifənin danışmanlıq məqamına çatdılar, və sonralarda böyük bölgə və ölkələrin hakimliyinə geçirdilər.

3-3-avropada millətləşəmə, məzhəblərin gəlişməsi və Azərbaycanda yansımaları

miladi 16ıncı yüzil özilə dünya düzənini dəyişdirəcək dərin dəyişikliklər gətirdi. Orta çağlar bitmiş, avropalıların modern (çağdaş) dövr adlandırdıqları yeni dönəm başlanmışdı. Dünya tarixinin çox önəmli hadisələrindən biri millət-dövlət yaranması

---

[1] -«وفی هذه السنه غزا الجراح بن عبدالله الحکمی و هو امیر علی ارمینیه و آذربجان ارض الترک فتح علی یدیه بلنجرم و هزم الترک» (تاریخ طبری، تاریخ الامم و الملوک، مطبعه بریل، لیدین ۱۸۷۹)

[2] -

در این سال جراح‌بن‌عبدالله حکمی که امیر ارمینیه و آذربیجان بود به‌غزای سرزمین ترکان رفت که بلنجر به‌دست وی گشوده شد و ترکان را هزیمت کرد و آنها را باهمه فرزند انشان درآب غرق کرد وهرچه‌خواستند اسیر گرفتند و قلعه‌های مجاور بلنجر راگشود و همه مردم آنرا برون راند.

proses`idi. Yüzillərlə yığılmış enerji dışarıya vurdu, dünyanın siyasi xəritəsi yenidən cızıldı.
Yeni dünyagörüşünün daşıyıcıları, insani diqqət mərkəzinə aldı. «Humanizm» meydana çıxdı, onlar katolik kilsəsinin insan fəaliyətini və təfəkkürünü nizarətə almasını rəd edirdilər. Bu dövrdə martin luter incili almancaya çevirdi (1522-42), alman kilsəsi yarandı, alman ədəbiyatı və təhsil sistemi ortaya çıxdı. Bundan sonra avropanın başqa ölkələrində də millət quruculuğu süreci başladı.
-Maraqlıdırkı, ağqoyunlu hökəmədarı uzun həsən, quran`ı türkcə yə çevirmək əmri verməsi bu hadisə lərdən əvvəl başlamışdı. 15ıncı yüzil Azərbaycan və anadoluda türkcənin yayılmasının və inkişafının yeni dövrüydü. Bu dilin dövlət həyatında, ədəbiyat və elmdə rolu artmışdı. Cahanşah qaraqoyunlu, uzun həsən`ın oğlu, sultan yəqub farsca yanaşı türkcə də şeirlər yazmışdı. Azərbaycan türkləri, ağqoyunlu və qaraqoyunlu dönəmi yeni millət halına gəldilər və Azərbaycan türklüyü adına impratorluq qurdular.
Avrupaya tay, Azərbaycanda da həman dövrdə təxminən eyni proseslər baş verdi. Burada da məzhəb bölünmələri, sonralar böyük nəticələrə nədən olacaq sürəcin əsasını qoydu. Ancaq avropanın əksinə olaraq Azərbaycanda 15ıncı yüzil dinin rolunun ifrat dərcə də artdı, və etnik proseslərə yön verərək Azərbaycanın gələcəyinin dəyişməsinə səbəb oldu.
-Ağqoyunlu impratorluğunda xalq arasında xəlvətiyə, nurbəxşiyə, nəqşbəndiyə, bayramiyə kimi ocaqlar və şiə məzhəbli səfəvilər yayqınıydılar.
-İslam dünyasında geniş yayılmış və türklər arasında ən çox tərəfdarı olan təriqətlərdən biri xəlvətiyə idi. Bu təriqət adını, məənaca «heç kəsin olmadığı bir halda və yerdə allah iylə mən danışalım» anlamına gələn «xəlvət» sözündən almışdır.
Xəlvətiliyin görkəmli numayəndəsi şeyx gülşəni öz əslini oğuzxana bağlayırdı, ama sünnü səfi ailəsi şiəliyi qəbul etədikdən sonra,

əsllərini 21-ci nəsildə yeddinci şiə imamı, h. Musa kazimə, 26-cı nəsildə isə imam əliyə bağlayırdılar. Halbukı bu məsələni xususi araşdırmış tədqiqatçılara görə, səfi ailəsinin seyidliklə, Peyğəmbər nəsli iylə heç bir əlaqəsi olmamışdır.

Bu dönəm Azərbaycan türkləri impratorluqların genişəltmək üçün böyük tarixi yanlışlığa düşədülər və farsçı zeydi məzhəb kəsimlərin əliylə eyitilmiş şah ismayıl`ın vasitəsiylə və sonuclarına varmadan, əski sasanlı kültürünə üz gətirirlər və farslarla birləşərək osmanlı dövlətinin qabağında durmağı amacladılar.

3-4-şiəliyin Azərbaycanda qurulması

şiəliyi hökümət siyasətinə çevirən önəmli hakimlərdən səfəvi şahı şah ismayıl idi, o dönəmi tanımaq üçün qısaca o dövrdəki tarixə nəzər salmaq lazimdi.

3-4-1-ağqoyunlu impratoluğu

-uzun həsn ağqoyunlu impratoluğunun başçısıydı, miladi 1467 ilində (günəş 846) onunla qaraquıunlu şahı cahanşah arasında savaş başlayır, cahanşah öldürülür və qaraqoyunlu hökümati sona çatır, onların topraqları uzun həsənə yetirir və özünü ağqoyunlu impratoluğunun şahı elam edir, 847 də təbrizə gəlir və oranı başknəd seçir, o zaman teymurlu ailəsinin son şahı əbusəid, xorasanda hakimiydi, o Azərbaycan topraqlarını, teymurilər hökümətinin mirası kimi sanaraq, uzun həsən əleyhinə savaş açır və muğan da yenilərək öldürülür.

Həman zaman sultan hüseyn bayqra qorqan`ın əmiriydi, əbusəid öldürülərkən, xorasan bölgəsində güc boşluğu yaranır və sultan hüseyn bayqra özünü şah elam edir, demək olar bölgə də bu şəxs ilk şiə məzhəb olaraq, özünü şah elam etmişdi. Qorqan əmiri zeydi şiəsi olaraq mötəzilə məzhəbinə inanırdı, onlar yalnız əli, həsən və hüseyn`i imam tanıyırdılar və əsna əşəri imamlarının qalanlarını imam tanımazdılar.

Uzun həsən`in ilərləməsiylə, trabzon bölgəsində məsihi bir tayfanın başçısı, qızı katrina`nı uzun həsənə verərək, onun yardım iylə,

osmanlı hökümməti qarşısında qorunmaq istəyirdi, vəli türlü olaylardan dolayı osmanlılarla onların arasında ixtilaf çıxır və birsıra ailə üzvləri öldürülür. Katrina Uzun həsənlə bu şərtlə anlaşır, o dinində azad olsun, və bu üzdəndə öziylə keşiş və özəl qulluqçular gətirir, həm amod şəhrində və sonrada təbriz şəhrində təntənəli kilisə düzəldir.

-Bu olaylar üz verən dönəm, osmanlıların bir sıra təzyiqləri sonucu və xalqın yoxsulluğu səbəbiylə Bəzi ayaqlanmalar olmuşdu, osmanlı padşahı yavuz sultan səlim zamanı, tokat ətrafında mehdilik iddiası bəhanəsiylə cəlalilər ayaqlanmağa başladılar, Azərbaycan-dada koroğlunu səmbol bilrək şahlara və zalimlərə qarşı ayaqlanan hərəkətlərə də cəlalir ayaqlanması deyilirdi.

-Şah ismayılyən böyük babası şeyx coneyd ilkcə sünnü olaraq şafei məzhəb idi, sonra əhl həq məzhəbinə üz gətirərək h. Əli`nin tanrılığına inandı və sonralarda əbahi məzhəb olaraq müridlərini dini təkliflərini, yerinə gətirməkdən məaf etdi, o dönəm bu təriqət cahad adıyla qaradənizin doğusunda olan məsihi çərkəs`lərə hücum edib, talançılıq edərək yaşamlarını sürdürüdülər. Şeyx coneyd sonralar Uzun həsənlə yaxından tanış olur və onun bacısı xədicə biyim`lə evlənir, şeyx coneyd günəş ili 838 (m.1459) payızında qaraqoyunlu hakimi cahanşahla savaşa girir və savaş meydanında öldürülür. və bir sütəmər uşağı heydər, yetim qalır və müridləri tərəfindən böyüdülür.

Şeyx heydər, babasının müridləri tərəfindən aşırı düşüncələrlə eyitilir və savaş yöntəmlərini öyrənir o uzun həsən`ın nəzərini cəlb edərək, özünü bir cəsarətlı savaşçı kimi nişan verir, Uzun həsən, məsihi xanımı Katrina`dan olan marta adında qızını şeyx heydər`ə verir, bu dönəmdən sonra şeyx heydər`in gücü olduqca artır. Marta 866 da oğlu dünyaya gəlir və adını ismayıl qoyurlar.

-Uzun həsən miladi 1477 də (günəş 856) dünyadan köçür və üç oğlu arasında çəkişmələr soncu sultan yəqub ölkəyə hakim olur,

bu dönəm şeyx heydər atalarının mirasçısı olaraq, osmanlı təzyiqləri səbəbiylə və onların bir sıra yanlış hərəkətlərindən dolayı şiəliyə üz gətirmişdilər və bu məzhəbə dayanaraq və fətva verərək, sünnülərin qanını tökəməyi həlal edir, xalqı, osmanlıların əleyhinə qışqırdır, şeyx heydər miladi 1488 (günəş 867) ili, sultan yəquba savaş açarkən öldürüldü, onun oğlu ismayıl bu dönəm bir yaşındaydı.
Şeyx heydəri öldürürkən, sünnü fəqihlərin fətvasıylə, kəlləsini təbrizdə itlərin qabağına atırlar, və anası marta iylə oğlunu şiraz`a sürgün edirlər, marta`nın böyük oğlu əli, bayındırlı rüstəm bəy tərəfindən öldürülür, marta iki oğluyla, lahican`a qaçır və orada gizlənir, aydındırki bu olaylar marta`nın ürəyində dərin yara açır və bölgə hakimlərinin əleyhinə kin yaradaraq, uşaqlarının eyitilmə yöntəmində böyük iz qoyur.

3-4-2-şah ismayılın çocuqluğu

ismayıl 7 yaşında gilan-lahican`da mirza əli karkiya adında bir hakim xanın evində eyitilir, mirza əli zeydi şiələrindən idi, bu məzhəb təbəristan şiə məzhəbinin qalıntılarından idi. Şah ismayıl uşaqkən fars kültürlü xanların içində böyüdü, uzun müddət Azərbaycan mühitindən uzaq olaraq böyük ölçüdə bu kəsimlərdən etgilnədi.
-Avrupalı valter hinz, səfəvi ailəsinin etnik tərkibində gürcü və rum qadınlarının olmasını nəzərə alaraq, «ismayıl`ın damarlarında axan qanda anası marta (yəni yunan, bundan başqa ata tərəfindən də rum qarışıq) dolayısıyla türk qanının üstün bir durumda olmadığı iddaasını irəli sürür.
Əlbətdə burada qan məsələsinin düz yanlış olmasını biryana buraxsaq, önəmli olan eyitim və kültür məsələsidir, aydındır vəqti ismayıl, bəlli amaclar doğrultusunda şübhəli zeydi məzhəbli təbəristan`lı bir farsçı sarayında, və ayrıca məsihi bir ailə iylə çevrili olaraq, eyitilirsə, eyitilmə tərzində olan müxtəlif ünsürlərin təsiri, onun yaşamında və əməllərində etgili olacaqdır.

-Bu dönəm şeyx heydərə bağlı qızılbaş tayfaları içində olan müridlər, ismayıla, şah ismayıl yəni təriqət şahı diyərək tez tez və gizlincə onu görməyə gəlirdilər. Bu dönəm fars şiəçilri zeydi şiə çərçivəsində, kinlə dolu məfkurələri şah ismayıl`ın beyninə soxmağa çalışırlar, o biri tərəfdən şeyx heydər`in müridləri onu övürdülər və ona səcdə edirdilər, təbiidirki şah ismayıl da bunlardan etgilənərək özünü bir qutsal zat və vucud kimi hiss edirdi, və beylə böyüyərək sonralar onu inanmayanlara düşmən göziylə baxacaqdır.

3-4-3-səfəvi hökümətinin qurulması

günəş ili 878 lərdən sonra (m 1499), şah ismayıl 12 yaşındaykən onun müridləri ətrafına yığışaraq yürüyüşə başladılar və müxtəlif türk tayfaları (şamlı, təkəli, qacar, rumlu, qaraman, varsaq, ustacılu, bayat) ona qoşularaq 13 yaşında təbrizdə özünü şah elam etdi (günəş ili 879,m. 1500), o zaman təbrizin 200 min nəfər nufusu varıydı və türk əhali içində sünnü olaraq şafei və hənəfi məzhəb insanlar az deyildilər.

Səfəvi dövlətinin elan edildiyi 1501-ci ilin yayından etibarən o zamana qədər mövcud olmuş məzhəblərarası mütəadil və tolerant münasibətlərə son qoyuldu. Yeni səfəvi hakimiyəti şiə olmayanların varlığını belə qəbul etməmək həddinədək aqresiv siyasət yeritməyə başladı. Tarixi qaynaqların verdigi məlumata görə, təbrizin cuma məscidində on iki imama ilk dəfə xütbə oxutmaq üçün xususi şiə müctehidi gətirildi. Ismayıl özü bu zaman yalın qılınc əlində, savaş paltarında məsciddə idi. İlk xəlifələr əbubəkr, osman və ömər`ə küfr demək adəti də Azərbaycanda o zamandan başladı.

Qızılbaş ordusunun keçdiyi şəhər və kəndlər sünnü əhalinin qanına bələndi. Fəth edilmiş bakıda böyük qırğın oldu. Dövlətin paytaxtı təbrizdə 20 mindən artıq insanin məhv edilməsi haqda dövrün qaynaqlarında məlumatlar var. Hətta anası, uzun həsən`in qızı aləmşah bəyim`in (marta) qətlamlara etiraz etməsinə qəzəblənən ismayılın onu qətəl etdirdiyi tarixi mənbələrdə əks olunub.

Ağqoyunlu hakimiyətinin əsas dayaqlarından olan bayanduor tayfasına aid olan heç kəsə aman verilmədi. Farslar içindədə sünnülər qırqınlara məruz qaldılar, bir sözlə, kütləvi qırqın və təqiblərlə şiəlik, dövlət dini elan edilir, sünnülər düşmən sayılır, teokratik dövlətin əsasları qurulur, bu arada şiəlik, farslar içində daha çox məqbuliyəti varıydı və buda tarixi geçmişləri səbəbiylə izah oluna bilir. Yuxarıdakı bilgilerin muqabilində, onların abartıldığına dair, inananlarda vardı, bu haqda sonrakı bölümlərdə izah vermişik.

3-4-4-şah ismayıl`ın çaldıran savaşı

şah ismayıl 1508də (günəş 887) əraqa hücum etdi və əbu hənəfi`nin qəbrini tovhin amiz halda xarabladı, və demək olar şah ismayıl bu əməllərilə düşmənçilik toxumunu, bölgədə və özəlliklə qızılbaşlarla osmanlılar arasında səpərək, durumu barışmaz hala gətirdi və osmanlılar içindədə sultan səlim`in iş başına gəlməsiylə (m 1912), bu düşmənçilik iyicə körükləndi; bu hadisələrdən sonra sultan səlim, şah ismayıla qarşı kəskin bir vəziyət tutaraq və Bəzi deyişlərə görə şah ismayıl`ın istəmədigi halda savaşa girişdi, hər halda şah ismayılda əməllərilə və tohinlərilə ortamı iyicə qarışdırmışdı, və günəş ili 893 də (1514 agus`un 23u) osmanlı hakimi sultan səlimlə çaldıran savaşına girdi hər iki tərəfdən minlərcə əsgər, bir neçə qimətli sərkərdə məhv edildi. Çaldıran məğlubiyəti səfəvilər impratorluğuna, özəlliklə onun başçısı, bu vaxtadək daima ğələbə sevinci yaşamış məğrur şah ismayıla sarsıdıcı zərbə oldu. Çaldıran`dan sonra ismayıl bir hökümdar və insan kimi dəyişdi. Əslində ölkənin tarixindədə yeni mərhələ başlandı.

Ölkə həyatında dinin rolu ifrat şəkildə artdı, qızılbaşlığın on iki imam (imamiyə) şiəliyi, və sünnü-şiə qarşıdurması, dövlətin rəsmi ideolojisinə çevrildi.

-Şah ismayıl və sultan səlim bu savaşla yaşamlarının ən böyük xətalarını yapdılar və islam dünyasında böyük itgi yaradaraq, şah

ismayıl öz yaşamındada bir dönüm nuqtəsi düzəltdi, o bu savaşda yenilərək ömrünün qalanını xəlvətə sığınaraq geçirdi və özünü qutsal zat kimi sanaraq bu yenilgi onun düşüncəsini pozdu və içkiyə üz gətirdi və özünü unutmağa çalışdı.
-Çaldıran məğlubiyəti şah ismayılın yenilməzliyi haqdakı qızılbaşlarda olan inancı məhv etdi, venizli tacirlərin o zamankı raporları qızılbaşların ölümsüz olduqlarına inandıqları başçılarına (şaha) kor-koruna bağlandıqlarına şahidlik etməkdədir. Bu inanc çaldıranda böyük zərbə aldı.. Qızılbaşlar.. Bu inanclarının zəifləməsiylə keçmiş qəbilə bağlılıqlarına döndülər..Qəbilələr arasında iç savaş başladı. Bu «iç savaş» şah ismayılın vəfatından (1524) dərhal sonra özünü göstərdi.

3-4-5-səfəvilər və səbb u lən məfkurəsi

-bu dönəm Azərbaycan türkləri serf şəriət və təriqət qruplarının öncülərinin düşüncələrinə dayanaraq və tarixi bir yanlış təfəkkürü, dinin bir əsli kimi götürərək, siyasi iqtidarı ələ gətirdilər və onu genişlətdilər, osmanlıların qarşısında dayanmaq amacıyla, səfəvilər, əski fars şiəliyi və fars kültürünə dayanaraq səbb u lən və qarqışlama məfkurəsini, dinlərində bənimsəyərək gücləndirdilər. Bu məfkurə ilk rafizi`lərə və zərtoştizmə dayanaraq əslində Peyğəmbərdən sonra hökümət edən üç böyük xəlifəni pisləməyi amaclayır və zahirdə h. Əli`dən yana olaraq, hökümməti üç xəlifə tərəfindən ğəsb olmasını önə sürür, halbuki h. Əli`nin beylə bir inancı olmayaraq qızını h. ömər`in nikahına gətirir, üç oğlunu üç böyük xəlifə eşqinə, əbubəkr, ömər və osman qoyur, osman əleyhinə şuriş də osmanı savunur və hətta h. həsən orada yarlanır.
Beyləliklə Azərbaycandada iran`ın fars bölgələri kimi səbb u lən fikiri tarixi bir yanlışlıqla ortaya gəldi və bu mövzua şah ismayıl`ın bəğdad hücumünda imam hənəfi`nın məzarını xərablamasıyla daha kötü şəkildə özünü göstərdi, Azərbaycan türkləri sonralar bu yanlışı düzəltməyə çalışsalarda, onun altından çixabilmədilər və hələdə hələdi onun faturəsin və tavanın verirlər.

3-4-6-səfəvilər və yanlış yol

fars şiəliyinin kitabları başdan dibə mütənaqiz rəvayətlərlə doludu, səfəvilər iqtidarı sayəsində, farsçılar, şiə məzhəbini, əllərindən gəldikcə, inhrafa çəkdilər, əlbətdə onlar eyliyə bilərdilər hətta koleyni, ibn babuye, və tusi kimilərin rəvayətlərinin içində, ağla uyqun hədislərini, ölçu tutalar və uyqulayalar, ama nə yazıqkı o hədislərdən, daha çox xorafata bulaşmış, zid əxlaqi, zid insani və nəhayətən nifaq yaradan hədisləri seçdilər, və islam aləmində nifaq salaraq, müsəlmanlara həm ideoloji və həm iqtidar cəhətdən böyük zərbələr vurdular, bir məsələyədə toxunmaq lazimdi, bu dönəm səfəvilərin, ən azından fars bölgələrində böyük qətlamlara əl vurmaları ağla uyqun deyil, çünki farslar öz əski gələnəkəlrinə uyqun görərək, çox öncələr fars şiəliyini qəbul etmişdilər və qırıqın üçün nədən və səbəb qalmamışdı əlbətdə bu sözlər, fars bölgələrində qətlam və qırqınların əsla olmadığı anlamına gəlməməlidir.

3-5-şah ismayıl və səfəvilər haqqında müxtəlif yaxlaşımlar

3-5-1-farsca sünnü kanallar və şuubiyə kökünün görməzdən gəlməsi

birsıra sünnü tələviziyon kanalları, şah ismayıl və səfəvilər haqqında verlişlər yayırlar və geniş haldada Bəzi tarix kitablarını örnək üçün əmirhüseyn xonci`nin yazdığı «şah ismayıl səfəvi», kitabını yayırlar, bu kanallar umumən olaylara bir tərfli baxaraq səfəviləri və osmanlıları türk olduqları üçün haqsız göstərməyə çalışırlar, ayrıca ırqçı bir yaxlaşımla, bölgə tarixində türk ünsürünü görməzdən gəlirlər və pəhləvi hökümətinə tay, türkləri yox sayaraq onları təhqir etməyə çalışırlar, şiə məzhəbini və onun köklərini unutdurmağa çalışaraq rafiziliyi sadəcə 4-5 əsər öncələrə və türk səfəvilərə məhdud etmək istəyirlər, ayrıca zirəngliklə səfəvilərdən öncəki rafiziliyidə bir sıra ərəb və yəhudi ünsürlərə bağlayaraq, demək olar bu kanalları dolandıranlar bilərəkədən bir növ bəzəkli fars sünnü

məzhəbini təbliğ etməyə çalışırlar. Və əlbətdə buda farsçılığa bir növ uğur sayılabilir çünki eyliyə biliblər hətta zid şiə sünnülərin içində də fars ırqçılığını dərin şəkildə yerləşdirələr.
Bucür kanalların yanısıra bütün farsçılar, şiəliyin kökünü yalnız səfəvilərə bağlayırlar və oradada bitirməyə çalışırlar, və eylə təbliğat edirlər quya ondan öncə ya şiəlik yoxuydu və əgər olsada balaca qruplar halındaydılar.

3-5-2-farsca sünnü kanallarda xonci kimi ırqçı şəxslərin təbliğatı

üzülərək deyilməlidirlidir dışarıda sünnülük təfəkkürünü yaymağa başlayan, kələmə, nur, visal kimi kanallar və özəlliklə bu kanallarda işləyən Bəzi ünsürlər, geniş halda əmir hüseyn xonci kimi şəxsləri təbliğ edirlər, öz fikirləricə bir daşla iki quşu vurmağa çalışırlar bir tərəfdən bir sıra haqlı fikirlərlə rafiziliyi rəd edirlər, o biri tərəfdən rafiziliyin bütün suçlarını türklərin boynuna ataraq onları vurmağa çalışırlar.
Onlar neçə şeyi unudurlar vəya görməzdən gəlirlər, sünnülükdə və tarix boyu üməvi, əbbasi sünnülərdə olan xətaları kiçitməyə və ya yumağa çalışırlar və ayrı tərəfdən fars ırqçılığından yana olaraq farsçıları təmizləməyə çalışırlar və unudurlarkı farsçılıq, rafiziliyin nütfəsidir. Və bunuda görməzdən gəlirlər, Azərbaycanlılar, türk ulusunun yüzdə 15-20sini oluşdururlar və türklərin yüzdə səksəni sünnüdülər, vəli sünnü türklərin onlara önəmi yoxdur və yirmi fayizi bəhanə edərək, bütün türkləri vurmağa çalışırlar.
Onlar firdusi kimi ırqçıları ustalıqla, zərbə altından qurtarmağa cəhd göstərirlər, və sasanı kültürü heyranları olaraq, yalan danışmaqda və sözləri təhrif etməkdə fars şiəliyi kimi əməl edirlər, onlar hətta firdusi`nin əhl sünnət üçün tohinlərini də görməzdən gəlirlər (örnək[1]): Vəqti təxt lə mənbər bir ola hamı bubəkər və ömmər olar).

---

[1] - چو با تخت منبر برابر شود. همه نام «بوبکر» و «عُمّر» شود.

Örnək üçün səfəvilər əleyhinə yazılan, əmirhüseyn xonci`nin kitabını təhrif edərək, çoxraq anti türk şəklində sunmağa çalışırlar.
İlkcə əmir hüseyn xonci nin əsli kitabından neçə bölüm pdf şəklində gətiririk və sonrada xonci nın sünnü kanallar tərəfindən yayılmış kitabından həman mətalibi gətirirərək, yalan və təhrif olan bölümləri göstərməyə çalişacayiq.

3-5-3-farsca sünnü kanalların təhrifləri

«cənab xonci`nin 2006 da yayılan kitabı, səfhə 52» :[1]
bu mətalib eynən xonci`nin öz kitabından gətirilibdir, və qısaca çevirisi beylədir:
«marta şah ismayıl`ın anası uşaqkən sünnü osmanlılar, onların yaşadığı tərabzon bölgəsinə hücum etdilər, və ana tərəfindən olan ailəsini qırdılar, əmiləri xəlil, yəqub və məqsud`u xəfələyərək öldürdülər, sonrada sultan yəqub, marta`nın əri şeyx heydəri öldürdü və başını sünnü fəqihlərin fətvasıyla təbriz itlərinin qabağına atdılar və onlarıda şiraz`a sürgün etdilər, böyük oğlu əli, qaçarkən rüstəm bəy bayındırlı görəvliləri tərəfindən öldürüldü..Aydındırki bu olaylar öc almaq üçün onun (marta) ruhiyəsində dərin izlər buraxacaqdır və bu düşmənçilikləri törədənlərin hamısı sünnü ydülər..»
Bu kitab sünnü saytlar tərəfindən, bir sıra dəyişikəlikə məruz qalaraq 2013üncü ildə yayınlanıbdır, onların yaydığı kitabdakı

---

[1]-

۵۲

دخترش مارتا را نیز با خودش میبرد تا او را با تعالیم دین آبائی‌اش آشنا سازد.

مارتا– مادر اسماعیل– کودک بود که عثمانیهای سنی‌مذهبْ کشور پدربزرگ مادریش (ترابزون) را تصرف کردند و خانوادهٔ مادریش را قتلِ‌عام نمودند. پس از چندسال برادران پدریش خلیل و یعقوبْ برادرِ پدر و مادریش مقصود را خفه کرده از بین بردند. سپس سلطان یعقوب شوهرش حیدر را به قتل رساند و سرش را به فتوای فقهای سنی جلوِ سگان تبریز افکند، و او و فرزندانش را به شیراز تبعید کرد. بعد ازآن نیز پسر بزرگش علی به‌هنگام فرار از برابر مأموران رستم بیک بایندری کشته شد، و او با دوفرزند دیگرش متواری شدند و در لاهیجان پنهان گشتند. طبیعی بود که این رخدادهای تلخ بر این زن اثر بگذارد و روحیه‌ئی کینه‌جو و انتقام‌طلب نسبت به همهٔ کسانی که با خاندانش این‌چُنین دشمنی ورزیده بودند و همه‌شان سنی بودند را در او پرورش دهد. هردو دولت عثمانی و ایران دشمنان آشتی‌ناپذیر خانوادهٔ او به شمار میرفتند، و همهٔ قزلباشان تاتار– که مریدان شوهرش بودند– دوستان طبیعی او و خاندانش محسوب میشدند. او با چنین روحیه‌ئی اسماعیل را دردامنش پرورد.

mətləb beylədir. Bu mətalib əynən sünnü saytların yayınladığı kitabdan gətirilibdir, və qısaca çevirisi beylədir:
«marta şah ismayıl`ın anası uşaqkən, osmanlılar onların sakin olduğu trabzon bölgəsinə hücum etdilər, və ana tərəfindən olan ailəsini qırdılar, sonralar əmiləri xəlil, yəqub və məqsud`u xəfələyərək öldürdülər, sonrada sultan yəqub, marta`nın əri şeyx heydəri öldürdü və başını təbriz itlərinin qabağına atdılar və onlarıda şiraz`a sürgün etdilər, böyük oğlu əli, qaçarkən rüstəm bəy bayındırlı görəvliləri tərəfindən öldürüldü..Aydındırki bu olaylar öc almaq üçün onun ruhiyəsində dərin izlər buraxacaqdır».[1]
-Göründüyü kimi, kitabda sünnü fəqihlərin qəbih fətvasından söz açılan sözlər həzf olubdur.
Demək olar kitabda səfəvilərin qəbih işlərinin nədəni, sünnü fəqihlərin qeyr insani işləri, nişan verilibdi, vəli farsca sünnü saytların yaydığı kitab eylə dəyişilibdi quya sünnülər suçsuz və bütün qəbahət səfəvi şiələrində dir və əlbətdə cənab xonci nın əsil hədəfi şiə vəya sünnülər deyildi bəlkə bütün kitabında bunu demək istəyir quya : «bütün qəbahətlər əslində türklərdədi, ayrıca bunu demək istəyir: iranda türk asarı yoxuydu və Azərbaycanlılarda azəri dilində danışırdılar və azəri dili əslində farscanın bir şaxəsi idi və sonralar tatarlar, səfəvilərin vasitəsilə əvvəl azəri dilin yox elədilər və sonrada türklüyü irana gətirdilər və nəhayətən milləti qırıb tökdülər».

---

[1] -

مارتا – مادر اسماعیل – کودک بود که عثمانی‌های کشور پدر بزرگ مادریش (ترابزون) را تصرف کردند و خانوادهٔ مادریش را قتل عام نمودند، پس از چند سال برادران پدریش خلیل و یعقوب برادر پدر و مادریش مقصود را خفه کرده از بین بردند، سپس سلطان یعقوب شوهرش حیدر را به قتل رساند و سرش را جلو سگان تبریز افکند، و او و فرزندانش را به شیراز تبعید کرد، بعد از آن نیز پسر بزرگش علی به هنگام فرار از برایر مأموران رستم بیک بایندری کشته شد، و او با دو فرزند دیگرش متواری شدند و در لاهیجان پنهان گشتند،

تاریخ شاه اسماعیل صفوی ۵۸

طبیعی بود که این رخدادهای تلخ بر این زن اثر بگذارد و روحیه‌ئی کینه‌جو و انتقام‌طلب نسبت به همهٔ کسانی که با خاندانش این چنین دشمنی ورزیده بودند را در او پرورش دهد، هردو دولت عثمانی و ایران دشمنان آشتی‌ناپذیر خانوادهٔ او به شمار می‌رفتند، و همهٔ قزلباشان تاتار – که مریدان شوهرش بودند – دوستان طبیعی او و خاندانش محسوب می‌شدند، او با چنین روحیه‌ئی اسماعیل را در دامنش پرورد.

Ayrıca sünnü saytlar bir haldaki «sünnü osmanlılar.. Qırdılar» kimi ibartlərdə sadəcə sünnü kələməsini həzf ediblərç ilk baxışda beylə görünür quya onlar sünnü olaraq, kitabda yalnız sünnüləri pisləyən yerlərdə bu kələməni həzf ediblər vəli dərin baxışda bu farsçılar daha dərin bir şeyi amaclayırlar, onlar cümləni beylə yazırlar «osmanlılar.. Qırdılar» yəni burada istəyirlər türk osmanlıları qırıcı və türkləri pis göstərsinlər.

Cənab xonci heç yerdə istəmir diyə, bu şiəliyin kökü hardadı; iran şiəsi iylə sasanı kültürü arasında ortaqlıq qurmaq istəmir, yalnızca amacı türklüyü pisləməkdi, və yalan sözlərlə və böhtanlarla və bəlgəsiz sözlərlə, bütün kötülükləri türklərə mənsub edir, və əski iran hökümətlərini yeri gəldikcə övür və onları ən təmiz və kültürlü hökümət kimi göstərir.

Farsçı sünnü saytlarıda bu bölümlərindən xoşlanaraq, kitabı yaymağa çalışırlar və ırqçı inanclarını; şiələri məhküm etmək kimi fikirlərin arxasında gizlədirlər, necəki həmin bu saytlar «özümün eşitdiyimə görə» təbliğatlarındada dəfələrcə firdusi`dən böyük şair kimi yad edərək, sadəcə onun dastan və əfsanə yazdığı üçün şahlar haqqında böyüdücü şəkildə söz etməsindən danışırlar və əcibdi ki heç vaxt istəməyiblər onun zid ərəb, zid islami və zid türk düşüncələrini açıqlasınlar, özəlliklə firdusinin əbubəkr və ömər haqqında pisləyici sözəlrinədə işarə etməzlər.

Dahada kötüsü onlar beylə bir amac yaratmaq istəyirlərki quya şiəliyin kökü firdusi kimi şəxslər və onlara bağlı axımlar deyilki quran, Peyğəmbər və əhl beyti tapdalamaq istəyirlər, bəlkə qonuşmalarında çalışırlar bir sıra geri qalmış ərəbləri bucür cəryanların kökü kimi tanıtdırsınlar və eyn halda çalışırlar iranlıları arın və bucür hadisə lərdən mübərra və uzaq göstərsinlər, onlar heç vaxt istəmirlər sasanlıların, zid islami kültürlərin və onlarla fars şiəsinin arasında bağlantı qursunlar və bu üzdəndə eyliyə bilmirlər tarixi olayların düzgün nədənlərinə əl tapsınlar.

-Bu kanallar, səfəvilərdə olan farsçılıq ünsürlərini görməzdən gələrək şah ismailin bir zeydi şiə fars ayiləsi içində böyüməsini və eyitilməsini demək istəmırlər, və yalnız türk olmasina dolayılı dolayısız işarə edirlər.
-Bu kanallar daima səfəvi şiəsini böyüdərək onları dolayısız türklərə bağlamaq istəyirlər və özəlliklə beylə bir imac yaratmaq istəyirlər, quya təqribən bütün türklər həman səfəvilərdilər və səfəvilərdə şiəliyin binasını qoyublar və onlarda sadəcə bir iddə yəhudilikdən dönmüş Bəzi ərəblərdən yararlanaraq bu işləri görüblər, halbuki şuubiyə`nin kökü sasanlı kültürünün yanlısı olan farsçı kəsimdə axtarılmalıdır, mütəəssifanə sünnü kanallar ya fars şiəliyinin kökünə varmağı və bu haqda bilgi verməyi istəmirlər vəya bilərək bu konunu sapdırmaq istəyirlər.

3-5-4-farsca sünnü kanalların yararlı yayınları

farsçı sünnülərdən intiqad edərkən, sünnülərində, farsçı şiələr kimi, bütünyilə haqsız olmalarını önə sürnmək deyil, tam tərsinə sünnülər bir çox dini konularda daha haqlıdılar, ama saxta düşmənçiliklər yaratmağa çalışırsalar, fars şiələri kimi ırqçı və geriçi məfkurələrə tutulub təhlikəli oyunlara düşəbilərlər, necəki əlqaidə kimi sünnü məzhəb teror təşkilatlarına işarə edəbilirik, onlar vəya aşırı kürdçü teroristlər bu haqda aydın tanıqlardı. Hər halda bu kanlalların bəlli konularda yayınları yararlıdır, umud edirəm onlarda müxtəlif qruplardan yararlanaraq kanal yönəticilərinin ırqçı yaxlaşım göstərmələrinin qarşısın almış olsunlar.
Ayrı deyişlə bu kanallar və internet saytları hatib ul leyl olmamalıdılar, doğru yalan hər şeyi təbliğ etməməlidirlər, və serf şah ismail səfəvi haqqında olduğu üçün və içində yüzlərcə yalan və böhtan olan kitabı yaymamalıdılar və əgər onun düz bölümlərini yaymaq istəsələrdə o kitabı düzgün yorumlarla yeni kitab halına gətirərək yaymalıdılar, özəlliklə xonci kimi şəxslər fars ırqçısı olaraq onlarca yalanı birdana düzün yanına qoymaqla ırqçı

düşüncələrini yaymaqdadır, umuram, sünnü kanallar və saytlar bu mühüm məsələyə diqqət yetirsinlər.
Əlbətdə bu kanalların mocrilərinin, hər birini irqçılığa müttəhim etmək düz olabilməz, ama Bəzi kəsimlər tərəfindən yönəltilmə izlərini görmək olar.
Əlbətdə bir yaxlaşım bu ola bilir Şayəd onlar beylə həsab edirlər əgər fars şiəliyinin köklərinə getsələr və firdusi`nin və sasanlılığın kötülüklərini desələr mümkündür böyük fars kütlələrini əldən versinlər.
Aya onlarda həqiqəti demək istəmiyərək bir növ təqiyəyə üz gətiribəlr? Aya mütməindilər gələcəkdə inhirafa çəkilməyəcəklər?. Bu səbəblə bucür mözvular haqqında dərindən düşünmək lazimdir və eylə olmasınkı çuxurdan qurtulaq, dərin quyuya düşək.

3-5-5-xonci`nin səfəvi türkləri əleyhinə vurduğu böhtanlar

bir ayrı məsələyə də toxunmaq gərəkir, xonci kitabında səfəviləri, türk və tatar olduğu üçün pisləmək istəyir və həbibusseyr kimi tarix kitablarından örnəklər verərək, hərcür böhtan və yalanlamaları türklər haqqında yazır. Əslində cənab xonci, kələmələrin zahiri mənalarıyla oynayır, və əsli möhtəvanı kölgəyə atmaq istəyir, misal üçün cənab xonci nın kitabından (səfhə 72-73) bir örnək yazını eynən veririk.

[qiyas əddin xandmir, şah ismayılın əyyaşlıq məclislərini beylə tərifləyir].
Burada şah ismayılın qəbih işlərindən və içki içmələrindən danışır. Və eyn halda türklərin o zamana qədər iranda var olmadığını yazır. Kununu aydınlatmaq üçün neçə mətləbə işarə olunur:
-həbibusseyr kimi kitablarda tarixi mətalib çoxlu təşbih və istiarələrlə gəlibdir, həbibusseyr kitabının müqəddəməsindən bir mətləb bu sözü daha artıq aydınladabilir,
səfhə 39 da humayi cənabları (kitabı təshih edən şəxs) müqəddəmədə beylə yazır:

-teymur və səfəvi dövrələrinin kitablarında və həbibusseyr kimi kitablarda təşbihlər və məcaz ibarələr və istiarələr o qədər çoxuyduki bəzən neçə səfhə tərif və təmcid yazılırdı ta bir cümlə, əsli mətləb deyiləbilsin və bu səbk(yöntəm) o dönəmin əsli özəlliklərindən sayılırdi. Aşağıda həman kitabdan veriln örnək açıqca buna qanıtdır.[1]

günəş ili 1229-1233 (miladi 1848-52) illərində baş vermiş babilər hərəkatı zamanın təlbəlrinə uyqun olaraq islam dini cəhətindən, ölkə nın tərəqqi və inkişaf yoluna çıxmasına yönəlmişdi. Əli muhəmməd bab`ın yazdığı «bəyan», onun tərəfdarlarının ana kitabına çevrilmiş, onlar üçün «quran»dan üstün sayılmışdı. Bab, əslində açıq-açığına «quran»ın köhnəldiyini yazır, onun yerini «bəyan»ın tutduğunu iddia edirdi. Özünü yeni Peyğəmbər elan etmiş bab, yalnız dini

əhkamların rasyional dərkinə çağırmırdı, həm də islamin yeniləşməsinin konseptual əsaslarını verirdi.

4-3-2-bəhayi məzhəbi

dini həyatda, islahat meyli, sonrakı on illərdə bəhayi`liyin meydana çıxmasında özünü göstərdi. Bu dini-kosmopolit cərəyan bir sıra Məsələlərdə babiliyin əksiydi. Əsasını mirzə hüseyn əli bəhaullah`ın (1817-1892) qoyduğu bu cərəyan «mədəniyət və tərəqqi« naminə üzünü avrupaya çevirən irandakı komprador burjuvazi nin əhval-ruhiyəsini ifadə edirdi. Bəhayilərin proqramında vahid dünya dili, dünya Məsələlərini həll edəbiləcək seçkili beynəlxalq şura, vahid dünya dövləti kimi fantastik müddəalar vardı. Bəhayiliyin başqa bir cəhəti də dini usulları son dərəcə sadələşdirilməsi və ifrat muasirləşdirilməsiydi.

Bu dinlərin heç biri tarixi köklərə və farsçılığa toxunmayırdılar, onlar və sonrada kəsrəvi kimilər, bütün günahları, islam dini üzərinə ataraq, pakdini kimi əski dinləri və ayrıca firdusi yə uyaraq sasanlı din və kültürlərini əsas toturdular və beylə fikirləşirdilər: əgər birinin dini dəyişilirsə o insan bütünüylə dəyişəcəkədir.
Onlar yanılırdılar, necəki kəsrəvi`nin yaşayışı tək başına sübut etdi bu anlayış kökündən yanlış fikirdı.
Bir insanin din dəyişəməsi, dünya görüşü dəyişmədən, heç şeyi təğyir verməyəcəkdir. Yalançı məfkurələr və xorafat, insaların geri qalmasında ən mühüm rulu yonayırlar.

4-3-3-pakdini məzhəbi

kəsrəvi`nin gətirdiyi din, pakdini adlanırdı, bu din açıq aydın fars kültürünə dayanan bir din idi, kəsrəvi tamamiylə, pəhləvi və ingilis yanlı bir siyasət çərçivəsində, əski iran dininə valeh olaraq zahirdə şiəçiliyin əleyhinə oldu, ama gərçəkdən fars şiəliyinin bütün mənfi cəhətlərini o cümlədən türklərə, ərəblərə, bəhayilərə və qeyr farslara qarqış və ləən etməyi sürdürdü, xalq seçiminə və insanlığa ən ufaq

inamı olmayaraq türklərin məhv olmasına və onların kültür və dillərini dağıtmasından yana ıydı, və sonrada özünə tay farsçışiə qrupa rast gələrək farsçılığın teroru içində boğuldu.

4-3-4-ticari, sənəti və toplumsal inkişaflar

bu dönəm ticarət və sənaye inkişafı ölkənin əsli məsələsi olaraq, imperyalist güclər tərəfindən ilrləməsinin önü alınmağa çalyışılırdı. Nasirəddin şah, 1888-cı ilin oktiyabr`ında rusya səfirinə yazırdı: «heç bir ölkə iranın bu gününə düşməyib. İngilis və rusya bizim hər hərəkətimizi çox diqqətlə izləyir. Ölkənin güneyinin rifahi və çiçəkələnməsi üçün, məsələn, yol çəkilişi kimi tədbirlərimiz rus hökümətinin ətirazına səbəb olur. Biz iranın qüzey, batı və doğusunda yolların çəkilişinə başlayanda ingilislər deyirlər: bu, rusyanın maraqları xatirinə edilir. Biz yollar çəkmək, fabrikalar tikmək, ərazilərimizin və təbe lərimizin rifahi qayqısına qalmaq istəyirik. Rus və ingilis hökümətlərinin nə haqqı var bu cür bəyanat və tələblərlə bizə muraciət etsin?, Şahın bu şikayətinə baxmayaraq, maliyə və siyasi bağlarla avropa dövlətlərinin nəzartı altına düşmüş şah hakimiyəti bu ölkənin yarım-müstəmlikəyə çevrilməsinə qarşı mübarizə aparmaq iqtidarında Deyildi. İran cəmiyəti ildən-ilə dərinləşən böhrana 20-ci yüzilin son on illərində baş verən hərəkat və üsyanlarla narahatlığını ifadə edirdi.

1877-cı ildə təbriz dövlət mədrsəsi açıldı. Bu, bir qədər əvvəl tehranda yaradılmış darulfunun tipli ali təhsil müəssisəsi sayılırdı və ona bəəzən «təbriz darulfununu», ya «müzəffəriyə mədrsəsi» də deyilirdi. Təbriz mədrəsə sində əczaçı, həkim və zabit hazırlanırdı. Mədrəsənin tədris proqramına tibb, həndəsə və hərbi dərslərlə yanaşı, fars, ərəb və fransız dilləri də daxil idi, və 40-45 tələbəsi varıydı. Dövlətin bu və bunun kimi bir neçə təhsil ocağı yaratması ölkənin ehtiyaclarını ödəmək iqtidarında deyildi. Hökümətin və ruhanilərin təhsil sahəsinə qısqanclıqla yanaşmasına baxmayaraq, artan bu ehtiyacı qarşılayacaq fədakar insanlar ortaya çıxdı. Tək Azərbaycanda deyil, bütün iranda yeni özəl təhsil ocaqlarının

yaradılması fədakarlığını boynuna götürmüş bu şəxslərin başında mirzə həsən rüşdiyə gəlir.
Mirzə həsən beyrut`dakı fransız müəllimlər institusunu bitirdikdən sonra istanbula getdi və rüşdiyə Mədrəsələr yasasında, yeni tipli ilk məktəbini irəvanda açmışdır. Daha sonra, 1888-cı ildə «dəbistan« adlı məktəb açar. Burada əlifba səs usulu iylə öyrədilmiş, fiziki cəza (fələqqə) ləğv edilmiş, sabit dərs qrafiki müəyyən edilmiş, bir sözlə avropa məktəbələri kimi qaydalar qoyulmuşdu. Bu işlər, irticaçıları qəzəbləndirmiş, «dəbistan« məktəbinin dağıdılmasına səbəb olmuşdur. Tehranda, təbrizdə, qumda yaradılmış bu məktəblər qurucusunun adına bağlı olaraq «rüşdiyə» məktəbləri adlanmışdır.
rüşdiyənin davamçılarından mirzə hüseyn kəmal 1897-cı ildə təbrizdə «mədrəseyi-kəmal» adlı yeni qaydalı məktəb təsis etdi. ama bu məktəb də uzun müddət davam edə bilmədi, 1903-cu ildə irticaçılar onu ğarət etdilər. 1900-cu ildə yaradılmış «məarif əncüməni» də açıq və geniş fəaliyət göstərə bilmədi. 1893-cu ildə mirzə sadiq ibn molla əsəd təbrizi «dəftəre ədəbi» adlı dərslik nəşr etdirdi. Müəllif uşağa öz ana dilində sadədən mürəkəkkbə keçmək yolu iylə təlim verməyi məsləhət görürdü. «Vətən dili» adlı ikinci dərsliyi mirzə həsən rüşdiyə tərtib etmiş (1894), öz məktəbində istifadə etmişdir.
Bu dönəm görkəmli Şairlər: mehdi bəy şəqaqi, muhəmməd xəlifə aciz, əndəlib qaracadağı, fazil xan şeyda, seyid əbulqasim nəbati (ölümü 1852), muhəmməd bağır xəlxali (1812-1874), hacı mehdi şukuhi (1829-1897), riza sərraf (ölümü 1907), mirzə əbdulhüseyn xazin, mirzə əli xan ləəli (1837-1907) meydana gəldilər. Bu Şairlərin əsərlərində eşq, təbiət kimi lirik mövzularla yanaşı, haqsızlıq, zülüm və bərabərsizlik, din xadim lərinin tamahkarlığı və mürtəceliyi kimi ictimai mövzular da vardı.
Quzey Azərbaycanda rusların qışqırtmasıyla erməni sorunu gedərkən, böyük oyanış hərəkətləri üz verir və zərdabi, ağaoğlu, topçubaşı və.. Kimi dahilər yetişdirilirkən, güney Azərbaycanda isə

milli həyat daha sükünətli idi. Qacar hakimiyətini etnik baxımdan yad saymayan türk əhalisi arasında 20-cı yüzildə milli oyanışın təzahürləri hələ görünmürdü. Siyasətdə olduğu kimi, kültür həyatında da əski ənənə davam etməkdəydi.

Digər tərəfdən, dış güclərin təşbbüslarıyla, və müxalifətin təbliğatında qacarlarla türklük eyniləşdirildi, ona olan nifrət ölkə əhalisinin xeyli hissə`sini təşkil edən türklərə qarşı yönəldildi. Ölkənin çox millətli tərkibi gerilik əlaməti həsab edildi. İranın ayağa durması və inkişafı üçün modernist dairələrdə, qərbi avropanın homojen (tək millətli) toplumları model götürüldü. Çeşidli tayfalardan, dillərdən, kültürlərdən ibarət olan iran imperiyası müxalifətin təbliğatında vahid mərkəzi hakimiyətə malik, (fars dili və milləti əsas tutularaq) bir dilli, bir kültürlü, bir millətli unitar dövlətə çevrilməliydi. Bu məqsədə çatmaq üçün iki yol təklif edilirdi: idarəçiliyin mərkəzlşədirilməsi və azlıqların farslaşdırılması.

Farsçı yazarlar, iranın başına gələn faciələri Buradakı türklüyün varlığı iylə izah etmək kimi qatı ırqçı nəticəyə gəlirlər: «bizim indiki bədbəxt liklərimizin kökləri muğul və tatar yürüşlərinə gedib çıxır. Sevgili azərbaycanımıza bir xarici dil təhmil edildi. əhalimiz fars və türk dillilərə bölündü.»

Məşrutə inqilabının məğlubiyətindən sonra ölkə xaricindəki mətbuat «iran milləti» adlandırdığı toplumu «vahid iran etnik birliyi»nə çevirmək üçün konkret idealar irəli sürməyə, ğeyri-farslar Məsələsində daha aqresiv mövqe tuomağa başladı. Onların, ilk növbə də türklərin farslaşdırılması ideası daha çılpaqlığı iylə tələb edildi.

Hadisənin dramatikliyi ondadırkı, bu mətbuat orqanlarının çoxunun tasisçisi və əsas yazarları Azərbaycan kökənli nufuzlu şəxslər idilər, beylə deməliyik istemarçılar uzun müddətli siyasətləri və təcrübələri doğrultusunda iran türkəlrinə, rahatcasına bu məfkurələri qəbul etdirmək üçün, türklərin içində olan yazarların beylə düşüncələrinə

daha çox önəm verərək onları təbliğ edirdi, Məsələn kəsrəvi haqqında bunu açıqca görmək olar o azəri sözünü hələ iranda yaymamışdan öncə və bir xarici lobnan qazetində yayarkən bilafasilə ingilis səltənəti ödülün alaraq avrupalı yazarlar və dərnəklər tərəfindən övülməyə başlandı.
arif qəzvini adlı tanınmış şair deyirdi: «türkün dilini dartıb boynunun ardından çıxartmaq lazimdir; bu dilin ayağını ölkədən kəsmək və fars dili iylə dörd nala arazı keçmək məsləhətdir; ey səhər nəsimi, qalx və təbrizlilərə de ki, zərdoştun ana yurdu, çəngiz`in yeri deyil.»
Bu illərdə güney Azərbaycan əhalisinin türklük fikrini müdafiə edən yazarlara (məmməd əmin rəsulzadə, əhməd ağa oğlu, ğeyrtli həsən roşəni və bənzərlərinə), cavab verənlərin əksəriyəti də məhz Azərbaycan kökənli şəxsləridi, bu arada rus və ingilislərində müdaxilələrini unutmamaq lazimdi, hər zaman Azərbaycan türklərinin gücləndiyi hiss ediləndə və onların farsçılar qarşısında ağır basması durumunda, ingilizlərin və rusların dolayılı və dolayısız müdaxilələri baş verirdi, və hər türk milli şuurunu savunanlara hücum olunaraq onları boğmağa çalışırdılar, 1290da ruslar, farsçıların və ingilizlərin etirazına məruz qalmadan, təbrizə hücum edirlər və aşura günü 243nfər öncünü bir ay içində dara çəkirlər.
Paniranistlərin idealarına zid olaraq 1920-cı illərin əvvəllərində iranı müxtariyət hərəkatları bürüdü. Gilanda, xorasanda, Azərbaycanda, ərəbistanda (xozistanda), kürdüstanda yerli güclər tehrandan asılılığın azaldılmasını tələb edərək, onunla əlaqələri kəsməyə qədər irəli getdilər.
Əslində, bu, mərkəzləşmiş idarəçiliyə qarşı yönəlmiş, əski «məmaliki-məhrusə» sisteminin yasallaşmasını, başqa sözlə, iranın fedrallaşmasını tələb edən hərəkatlarıydı. Qacar sarayı bu iki cərəyan arasında hərəkətsiz qalmışdı, əski manevr siyasətiylə bu dəfə də böhrandan çıxmağa umudluydu. Maraqlıdırkı, hakimiyətin

tam itirilməsi ərəfəsində, sonuncu qacar şahı sultan əhməd, mustafa kəmal atatürk`ün hakimiyətini geri qaytarmaq üçün ona təklif etdiyi köməkdən belə imtina etdi.
Siyasi proseslərin sonrakı gedişi bəllidir. İngilizlərin yardımiylə ölkə hakimiyətini ğəsb etmiş riza xan, müxalif ideolojiyası panıranizmi, dövlətin ideolojiyasına çevirdi; iran, pəhləvilərin hakimiyəti dövründə fars ırqçı dövləti karakteri aldı. Beləliklə, iran coğrafiyasında yüzillərlə davam etmiş, özəlliklə səfəvilərdən başlayaraq yeni miqyas almış ali hakimiyət uğrunda türk-fars mucadiləsi 1925-ci ildə farsların xeyrinə sonuclandı. Qacarların hakimyətdən getməsi iran coğrafyasında təxminən 1000 il sürən türk xanədanlarının hakimiyətinin sonu deməkiydi. Bu, türk xanədanlarının öz etnik kökündən qopmasının, eləcədə yüzillərlə milli mədəniyətə qayğısızlığın məntiqi nəticəsiydi. Bu prosesdə tam farslaşmış türk aydın eliti, iranda vahid dövlətin qurulması naminə, türklüyün inkar edilməsində modhiş rol oynadı.
On illər sonra şəhryar yazacaqdı:
«qurtarmaq üçün zalimlərin əlindən rey şümşadını [oxu: iranı].
Öz şümşadın başdan -başa olub al qan, Azərbaycan!».

4-4- səbb u lən və Azərbaycan türkləri

-Azərbaycan türkləliylə fars şiəçilrinin birləşməsi və səbb u lən məfkurəsi, əvvəllərdə azacıq, səfəvi hökümətinə güc versədə zaman geçdikcə bütün türklərin və islam aləminin geriləməsinə və parçalanmasına yol açdı, və bu arada Azərbaycan türkləri ən çox zərərlərə məruz qaldılar və indilikdə hətta təmama məhv olma nüqtəsinə belə gəlib çıxıblar, son zamanlarda həm pəhləvi və həm fars şiəçilri, bunların tarixi varlığını danmağa başlamışdılar. Və əgər son oyanış hərəkatı olmasaydı çoxlarının fikricə, bu millətin adı sanı belə tarixdən silinmiş görünürdü.
Demək olar Azərbaycan türkçülüyü bu yanlış qarqışlama məfkurəsi sonucu özü qarqışlanaraq, türk birliyini puzaraq düşmən qarşısında zəiflədi və xaçlıların və özəlliklə rus ırqçılarının güclənməsinə

nədən oldu, və eylə görünür bu qarqış məfkurəsini tamamən üzərindən atmadıqca və onun əleyhinə olmadıqca bu fəlaktdən qurtula bilməyə cəkdir, ayrı deyişlə hər Azərbaycan türkü tarixini öyrənərək öz vucdanında bu yanlışlıqdan qurtulmalıdır.
Bu durumumda bizlər Azərbaycan türkləri olaraq, özlüyümüzdə, atababalarımızın qurduğu səfəvi dövləti tərəfindən islam böyüklərinə səbb u lən edərək, yapılan yanlışlıq nədəniylə bütün soydaşlarımızdan və dindaşlarımızdan üzr istəməliyik.
Ayrı tərəfdən mümkündü, beylə təsəvvür ola, farslar bu hadisələrdən, ən böyük yararı sağladılar, onların bir səviyədə qazandıqlarında şübhə yoxdur və əlbətdə mövzu bütün iylə beylə deyildir, onlarda və özəlliklə kütlə halında zərərdən başqa bir hasilləri olmayıbdır yalnız göstərişi zahırdə gözəl bir qazanclar əldə ediblər. Bir haldaki fars dili geçən əsrə qədər bütün qonşu ölkələrinin ən az aydınları içində və saraylarında geniş ölçüdə bənimsənirdi, ama farsların bütünlükdə zid islami sasanı kültürünə dönüşüylə, fars dilinə ilgi təmamiylə kəsilərək yerini bir tərs yönə buraxmışdı və indi hətta iran içində də bir işğalçı dilə çevrilmişdi. Və bu dilin gələcəyidə indidən aydınca görünməkdədir və mütməinən yaxın gələcəkdə iranda olan bütün qeyr fars millətlərin içindən atılmağı şübhə siz görnür. Və demək olar bu əli qanlı fars şiə impratorluğu bir püflək güclü topa oxşamağa başlayıbdır, aydındırki bu olaylardan fars milləti ən çox zərərə uğrayan millət olacaqdır, yəni onlar üçün birdaha sasanı dövərnün qədəri tikrar olmaqdadır. Şayəd burada məruf bir söz, fars milləti üçün daha geçərli olabilir: «çox millətli bir ölkə də, hakim (diktator) millət, azad olabilməz» ayrı deyişlə hakım millət o zaman azad olabilirki o biri millətlər azad olsun, bu təcrübəni geçmiş əsr türk osmanlı ölkəsində də açıqca görmək olur.
Bu haqda ayrı bir məsələyədə diqqət etmək lazimdir, batı dünyasında xaçlı qrupların, islam dünyasının parçalanmasında, nə qədər yararları olduğu şübhəsizdi, bu üzdən onlar müxtəlif yollarla

fars şiəliyinin, iş başında qalmasına yardım edəcəkəlr bu üzdən Azərbaycan türkləri bu faktora və onların müxtəlif totəələrinə daha çox diqqət etməlidirlər.

5-məşrutə kültür devrimi və pəhləviçiliyin iş başına gətirilmə səbəbləri

5-1-məşrutə kültür devrimi

ruslar 1290(1911) ili, dey ayinin 5ində Azərbaycana hücum etdilər, mücahidlər qan tökülməsin diyə barış müqaviləsi yapdılar, barış anlaşmasının bir bəndinə görə ruslar mücahidlərə qarşı təərrüz etməyəcəklər və beyləliklə ruslar təbrizə girdilər, bu dönəm Azərbaycan xalqı böyük oyanış ərəfəsindəydi, ruslar təbrizə girər girməz mücahidləri tutmağa və onları edam etməyə başladılar, dey`in 10unda siqətülislam`la birlikdə 8 nəfəri və sonrakı iki həftə içində də 243 nəfəri dardan asdılar, edam olanların çoxu nə inki rusların əleyhinə olmasından dolayı bəlkə yalnız alim olduqları üçün dara çəkildilər Məsələn hacı əli tərki davaçılıq sənətini iyi bildiyi üçün dara çəkildi bu fikirlə ki məbada yaşasın və Azərbaycanın inkişafında rol oynamış olsun, demək olar rusların hədəfi bütün alim Azərbaycanlıları yox etmək iydi, ruslar istəyirdilər Azərbaycanda yeni əlmlərlə tanış olan hər insan varsa aradan qaldırsınlar və bu işi görəndən sonrada çəkilib getdilər.

-Bu sözləri ingilislər haqqındada demək olar, batılı qüvvələr, səfəvi dönəmindən bəri türkləri və müsəlmanları parçalamaq üçün şiəliyə (fars şiəliyinə) sərmayə qoydular və əlbətdəki uğur qazandılar, hər halda indi bizlər bir hadis olmuş vaqiə iylə üz üzəyik, biz əgər bu düşmənçiliyin qarşısın alabilsk böyük uğurlara imza atacayıq vəli bu yanqını körükləsək, bölgə millətlərinin yanında mütmeinən şiəliyin özüdə hamıdan çox sədəmə görəcək.

-Əlbətdə batılılar və özəlliklə ingilislər və ruslar bilirdilər, əgər bu düşmənçilik zəifləməyə başlarsa, bölgə millətləri böyük ölçüdə ilərləyəbilərlər və bu üzdən bu kötülükləri iyicə körükləməyi lazım

görürlər və buradadırkı onlar siyasətlrinə uyqun qüvvələri gücləndirməyə çalışırlar və yıxıcı amaclarını bu güclərin yəni fars şiəliyinin əlilə yeritməyə tələş etdilər.
Məşrütə inqilabında (1905-1911), türklərin həm qacar hakimiyətinin təmsilçiləri, həm də müxalifətin liderləri kimi qarşı tərflər olaraq ən fəal şəkildə iştirak etmələri, Azərbaycanın inqilabın iki başlıca mərkəzindən biri olması bəlli tarixi hadisədir.
Məşrutə inqulabının türklər haqqında ayrı bir özəlliyi onun geniş şəkildə dini kəsimlər içində yayılmasıydı, əlbətdə məşrutə devrimi türk və fars mallaları içində ayrı ayrı şəkildə özünü göstərir, bir haldaki, türklər içində din adamlarının əksəriyəti məşrutə inquilabından yanaydılar, ama farslar içində din adamlarının əksəriyəti məşrutə iylə müxalifət edirdilər.
Azərbaycan kökənli müxalif siyasi xadimlər əsasən sosiyal-siyasi şüarlar irəli sürmüş, zəifləmiş qacar hakimiyətinə qarşı mübarizə yə o qədər bulaşmışki, etnik şuur baxımından çox irəlidə olan farsların inqilabdan əldə etdikləri üstünlüyün fərqində belə olmamışlar, ayrıca bunuda unudmuşlarkı, böyük güclər uzun müddət, islam aləmini zəiflətmək üçün, şiə sünnü ixtilaflarını körükləmişdilər, istemarçı siyasət çərçivəsində və özəlliklə yazıçı framasonlar vasitəsiylə və ya "sayks" kimi öz yazıçılarının əlilə, farslara saxta tarix düzəltmişlər, əski fars yazarların içəryiyində olan ırqçı məfkurələri önə çıxarmaqla, fars toplumunun milli şuurlarını obiri millətlərin əleyhinə gücləndirmişlər.
Bilindiyi kimi, 1906-cı ilin sonunda təsdiq edilmiş ana yasa, fars dilini bilməyi seçkidə iştirak üçün ön şərt saydı. O zaman farsların siyasi-iqtisadi və mədəni mərkəzi olan paytaxt tehrana məclis üzvlərinin sayının uçdə biri - 60 yer verildi. əhalisinin sayı tehran əhalisindən 6-7 dəfə çox olan Azərbaycana isə cəməi 12 məclis üzvü seçmək haqqı tanındı.
Məmməd əmin rəsulzadə 1911-cı ildə məşhur «iran türkləri» silsilə məqalələrinin birində yazırdı: «türk inqilabçıları, türk məbusları,

türk əncümənləri dediyimizdə bunların məhz türklük namına hərəkət etdikləri düşünülməsin. İran türk məşrutiyet pərvərləri türklüklərini düşünmədilər; bütün fədakarlığı ancaq iranlılıq və vətən-i müştərək namına icra etmişdilər.»

5-2-xiyabani hərəkatı və Azərbaycanda məşrutə devriminin son ışıltıları

birinci dünya savaşının sonlarından etibarən 1917 inqilabı və çarlıq rusyasının yıxılmasından sonra güney qafqaziyada Azərbaycan türkləri, ermənilər və gürcülər içində, milliyətçi hərəkətlər oluşmaya başlamışdı. 1911 də rus-ingilis iş birliyi iylə ruslar, güney Azərbaycana müdaxilə edir, ayrıca ruslar ermənileri dəstəkləyərək qanlı savaşlara itələyir. Gürcülər`isə bəzən rusya,bəzəndə almanyia və ingilterəyə yaxlaşmaq- daydılar. Azərbaycan türkləri isə Türkiyə`dən başqa bir dayanaq görmürdülər. Bu şərtlərdə ilk olaraq Gürcüstan bağımsızlıq elan etdi. Onun ardındanda mavra qafqazdakı Azərbaycanlı vəkillər istəfa edərək Azərbaycan milli şurasını elan etdilər və başqanlığına da rəsulzadə`ni gətirdilər. Rəsulzadə 28 mayıs 1918də Azərbaycan demokrat cumhuriyətini, baku, bolşevik işğalında, olduğu üçün tiflisdə elan etdi. Keçici başkənd olaraq gəncə seçildi və başbaxanlığa fəthəli xan xuylu gətirildi. Türk milliyətçiliyinə dayalı bu türk cumhuriyəti 23 ay qısa bir sürə yaşadıqdan sonra bolşevik`lərin 1920də ki işğalı iylə yıxılmışdır.

Quzey Azərbaycandakı bu dövlət girişimi, güneydə təbrizdə də etgili olmuşdur. Şeyx muhəmməd xiyabani 1919 tarixli iran- ingilis anlaşmasına, şiddətlə qarşı çıxaraq 10 neysan 1920də tehranla ipləri tamamən qopardı. Xiyabani Azərbaycan demokrat firqəsini qurmuşdu və təbriz mərkəz olmaq üzərə Azərbaycanın kontrolunu ələ keçirdi. 22 hazıran 1920də xiyabani ayrı bir hökümət qurulduğunu açıqladı bir gün sonrada güney Azərbaycanın adının "azadistan" olaraq dəyişdirildiyi elan edildi. "Ətabəki", azadıstan

adının quzeydəki Azərbaycan cumhuriyət- indən ayrı görünmək istəyi iylə seçildiyini iddia etməkdədir.
Bu dönəm iran dövlt başçısı (nəxost vəzir) müşirüddövlə, Azərbaycan valisi müxbirüssəltənə vasitəliyi iylə xiyabani üzərində təsirli olmağa çalışdı. Xiyabaniyə bir səfərində 20000 bir səfərində də 15000 tümən rəşvə təkəlif etdi. Xiyabani bu təkliflərin heç birini qəbul etmədiyi kimi müxbirüssəltənə`nidə nazikcə Azərbaycandan qovdu. müxbir isə dönüşündə hökümət adına qazaq tuğaylar iylə anlaşdı. Tehran, xiyabani` nin hökümətinə qarşı, rus qazaq tuğaylarını və ittifaq etdigi türk şahsevən əşirətini də qullandı. Eylül 1920(1299 günəş ili, 24 şəhəryur) də xiyabani öldürülərək azadistan dövləti girişiminə son verildi.
Xiyabani hərəkəti Azərbaycanda bir milli hiss və kimlik bilincinin inkişafına səbəb olmuşdu. Azərbaycanda 1920lərdən etibara riza şahın gəlməsiylə bir növ iqtisadi və ticari geriləmə başlanmışdı.
Riza şah dönəmində Azərbaycan əski ticari ekonomik parlaqlığını tədricən itirmişdir. Şah, iqtisadi cəhətdən tehran mərkəzli bir siyasət təəqib etmişdir. Və məmləkəti olan mazndrana da böyük yatırımlar yapmışdır. Şah dönəmində isfahan və mazəndran, iranın əsli yatırım bölgələri olaraq, tehranda teknolojik sənayə cəhətindən mərkəz halına gəlmişədi. Buna qarşılıq Azərbaycan yatırımlardan haradaysa heç pay alamamışdır.
ein zamanda Azərbaycanın batı kəsimlərində, urmu xoy ətrafında cilovlar, ermənilər və kürdlər Azərbaycan türk milləti əleyhinə böyük soyqırım başlatdılar, yalnız 1918ıncı ilın əvvəllərində cilovlar, urmu şəhrini işğal edən gün, mötimidulvüzəra, rəhəmət ullah tofiq`ın dediyinə görə (tarixçə ye urmiə) 10000 nəfəri bir gecə də öldürdülər (isfənd ayinın 5 i 1296cı günəş ili, m. 1918), yenə də həman il iki oğro dəstə başçısı birbirinin canına düşür və isfəndin 28ində marşimon cilovların elebaşısı, simitqo (kürdlərin elebaşısı) tərəfindən öldürülür, cilovlar bunun əvəzini işğal olunmuş urmu türk xalqından çıxarırlar və həman qaynağın dediyinə görə 15000

nəfər urmulardan qətlam edirlər, bu halda kürdlərdə urmiə və ətraf kəndlərə hücum edib çarəsiz milləti suymağa başlayırlar və çoxlu insanları öldürürlər, batılı qazetlərin yazdığına görə bu dövrədə Azərbaycanlılardan 160.000 nəfər öldürülür, bu olaylar indiki batı Azərbaycan topraqlarında üz verdi, o zamanın nufusuna görə ölənlərin oranı 25 fayizdən çox olurdu, talanlanan kəndlərin çoxuna simitqo və hamilərinin əlilə, kürdlər yerləşdirilirdi bu qətlamlar yalnız osmanlı ordusu Azərbaycana gələrkən sona çatır. (Qaynaq: fəcaye e cilovluq kitabı, dilməqani)

5-3-pəhləviçiliyin iş başına gətirilmə səbəbləri

farsçılar içində yayqın olaraq beylə bir söz var, quya rizaşah, yeni iran yaratmaq üçün gəldi və ən azından əgər ingilis və ruslar tərəfindən gəlsədə sonralar öz zəkasına dayanaraq yeni iranı düzəltməyə çalışdı, və örnək üçündə başdan başa (sərasəri) dəmir yolunun düzəltməsini örnək verirlər.

Tarixi hadisələr bu sözün zəddinə işarət edir bu haqda neçə Məsələ yə toxunmaq gərəkir.

1-məşrutə devrimi dünyanın ən gəlişmiş devrimlərindən biri olmuşdur bu oyanışda millət və mübarizlərin böyük payi olaraq ayrıca hakimiyət də olanlarda nisbi halda milli şuura Sahib iydilər, bu üzdən, inqilab ən az tələfatla ğalib oldu. Bu devrim, eylə bir şərayit yaratmışdır, əmələn bir tərəfdən millətimiz və insanlarımız, ayrı tərəfdən hakimiyət, yeni bir dünya yaratmaq sonucuna varmışdılar: yeni ortamda, hakimiyət və xalqın bağlantısı bəlli qayda və nəzm üzərində olmalıydı, şuralarda xalqın seçim haqqına önəm verilirdi, ayrı deyişlə məmləkətin inkişafı, şəxs vəya şəxslərə qayim və dayalı olmayaraq, yasal qurumlarla ilərıyə aparmaq istənirdi.

Gərçəkdən qacar məhrusə məmalikində insanlar və ən azından aydınlar bu sonuca varmışdılar, məmləkət, qaydalar üzərində dolandırılmalıdır nə şəxslər üzərində. hasıl olmuş bu məfkurələr on illər boyu nəhzətlər və hərəkətlərin nəticəsiydi və bəlliydi beylə

məfkurələr o dönəmin böyük və gəlişmiş məfkurələri yanında indilikdədə, çağdaş düşüncələr səviyəsin- dəydi, nə yazıq ki düşmənlər bu gəlişmələr və inkişafları gördülər və tanıdılar və bu üzdən çarə axtardılar, bu nədənlə 1907 də (günəş ili 1286da) birbirləriylə qanlı pıçaq olan rus və ingilis anlaşma yaparaq, qacar məhrusə məmalikinin dağılması haqda bəlli qərarlara vardılar.
-Mütmeinən bu senarionun ən önəmli qismi, bu inkişaf və gəlişmələri durdurmaq üçün uyqun bir adam tapmaq iydi, və bu dönəmdən sonra özəlliklə ingilislər bu mövzunun üstündə işlədilər.
2-«ərdəşir riportər» hindustan zərtoştilərindən, hindustanda ingilis casusluq servisi xidmətində iydi, o qacar səltənti sonlarında irana gəlir və ingilislər tərəfindən «iran əski tarixi»ni düzəltməyə başlayır, o «siyasi əlmlər oxulu»nu tehranda qurur və «əski iran» kürsüsünü öz öhdəsinə alır, və batıda eyitim almış çoxlu şəxsləri o cümlədən məhəmud əfşar yəzdi kimilərini öz başına toplayır, ərəb türk qarşıtı, və batı qarşısında boyun əymə kimi məfkurələri onlara aşılamağa müvəffəq olur.
«Ərdəşir riportər» ayrı tərəfdən, iran hökümətinin başına, bir müti və münasib fərd gətirmək peşindəydi, bu əsasda riza mirpənc 1396 (1917 m.) Də ona tanıtılır, və 4 sənə «ərdəşir cey riportər»ın casusluq sevisinin kontrolu altında eyitilir, «dənis rayt, ingilis diplomatı», iranda səfir olaraq kitabında «ingilislər iranlılar içində», «ərdəşir riportər» haqqında yazır : ərdəşir riportər 1396 (1917 m.) İlində riza xanı görür və onu bəyənərək təsmim tutur onda yurd sevərlik hissini! Gücləndirsin və riza xanı ilk dəfə «ayrun sayrun»a mərifi edir,
Rizaşah`ın böyük imtiyazlarından «fəxr edici geçmişinin olmaması, aydın əsl nəsəbinin olmaması, xəşiən və qaba zahirli olmasıydi», savadsız olduğundan lazimiydi ona tovcihi cələsələr qoyulsun və onda özgüvənliyi (etimad bə nəfs) çoxaltsınlar.
Yeni iran`ın əsaslarını qoyan ərdəşir riportər hər gecə ona «firidun, dara, xəşayar şah, firdusi»dən tərifləyirdi və onu yeni iranın

qurucusuna təbdil etməyiə çalışırdı, o xatirələrində aydınca bunlara işarə edir, o haldaki quldurluqdan və xuşunətdən başqa, rizaşah dan heç bir şey görünmə- mişədi, birdən birə, elmi jest tutaraq, məhəmməd əli furuği`nin öyrəti ləriylə «firdusi`nin min illiyi» mərasimində bir qonuşmacı kimi zahir olur, o bu qonuşmasında dərbar amillrinə nəcür şovinisti zəhniyətləri teorizə etmələrini öyrədir. Beyləki «fəransəli qrişmən, amerikalı omested və ingilislı hening» kimi xariciləri əcir etməklə, dərbar amilləri, şovinisti fikirləri teorizə edib və cəəli iran tarixi yazmağa başladılar, onlar beylə liklə həxamənişi şahlarının tarixini: «şahənşahi həxamənişi» və «başlanqıcdan islama qədər iran tarixi: iran əz ağaz ta islam» kitablarını yazdılar. Demək olar farsçılar eynən fars şiəliyi kimi təhrif və cəl təcrübəsinə dayanaraq, yalançı hədisər kimi, yalançı tarix və məfkurələr yaratdılar və xalqa təzriq etdilərş

«Ərdəşir riportər»in vəsiyət naməsi, 25 il ingilis dövəltinin sirri əsnadı (top secret) kimi saxlanırdı, bu əsnad nişan verir: ərdəşir riportər, ingilizlərin təhrif yöntəmlərindən yaralanaraq eyliyə bildi, rizaşah da, ərəb və türk qarşıtı təfəkürlərini və farsların bədəvi və aşırı nasiyonalizmini gücləndirsin.

Fars dili üçün aşırı milliyətçilik fikri, döktür məhmud əfşar (pan iranism nəhzətinin qurucusu) tərəfindən düzənləndi və riza şahın əlilə (bu nəhzətin muhafizi və qoruyucusu) uyqulandı, rizaşah təxtdən düşənə qədər, ərdəşir riportər bu hərəkəti yönəldirdi.

Məhmud əfşar, milli birlik qurmanın və zahiri ixtilafların aradan aparmağın yollarını beylə önərirdi : «fars dili və ədəbiyatı və ariyai tarixinin özəlliklə qeyr fars bölgələrdə öyrədilməsi, türkcə və ərəbcə yer adlarının aradan aparılması və onları farscaya dəyişilməsi və ayrı millətlərin dillərinin, idarələrdə və oxullarda qadağan etməsi və..»

Beyləliklə irana yeni tarix yazdılar, kuruş, daryuş və mühüm ariya nəjadı kimi şeylərdən, farslara fəxr edici tarix yaratdılar, bu arada özünə hoviyət düzəltmək istəyən hər kəsin, özünü farslara

yapışdırmaqdan başqa çarəsi yoxuydu, o halda ki gərçəklər ayrı şəkildəydi : örnək üçün bistun kətibəsi bu vəziyəti aydınca göstərir «mən (daryuş), onun (fərəvəti mad sərkərdəsi) burnunu, qulağını və dilini kəsdim və bir gözünü çıxardım və o halda onu sarayın qapısına bağladım ta hamı görsün sonra onu həmdanda asdım və bütün yoldaşlarının boyunlarından sallayaraq boğdum» (şarp,həxamənişi şahlərinin fərmanları, kətibə bistun2, bənd13).

3-farsların tarixləri haqqında və onun qondarılmasında, ingilislərin böyük nəqşi vardır, ingilis məmurları, pəhləvilər iş başına gəlməmişdən, böyük ölçüdə farslara tarix düzəltməyə başladılar, bu haqda çoxlu qanıtlar vardı. ingilis əfsəri serpersi sayks bu örnəklərin biridi.

Serpersi sayks, 1892 də orta asiya`da və bəluçistan`da ingilis ordusunda ordubaşı kimi işə başlayır, 1894 də (1273) kirmanda, v1899 də (1278) sistanda ingilis konsolluğun qurur.

Serpersi sayks iranda olarkən önəmli kitablar yazır: «şiə aləminin iftixarı, əfğanistan tarixi, və iran tarixi». Onun farscaya tərcümə olduğu kitabın ilk cildı 800 səfhədən artıqdır, demək olar bu kitab sonralar rizaşahın məmur etdiyi həsn pirniya və iqbal aştiyani tərəfindən və bir balaca gözdən geçirilərək «tarix irane bastan adıyla»yenidən yazılaraq pəhləvilərin rəsmi tarix kitabı kimi tanınır və oxullarda dərs kimi, öyrəncilərə öyrədilir.

Serpersi sayks həxamənişi`ilər, sasanilər və özəlliklə şiələr(fars şiəliyi) haqda çoxlu övücü mətalib yazıbdır.

4-bir sıra bilgilerə görə ingilislər və avrupa istemarçı qüvvələr Bəzi alimlərinidə ortaya gətirərək, farslara yalançı tarix düzəltmək üçün çoxlu saxta tarixi əsərlər yaratmışdı o cümlədən qrişmən və quteşmid kimi arkeoloji alimləri istemarçıların pulu və güciylə çoxlu daşyazılar, heykəllər (mücəssəmələr) düzəldərək, tarixi əsər kimi tanıdaraq haqqında yazılar və kitablar yazmışılar, bu kitablar farsçı müvərrixlərin və özəlliklə riza mirpənc`in hökümətinin qaynaqları halına gəlmişdi.

5-riza mirpənc`i iş başına gətirmək üçün ingilislər və ruslar vargüclərivlə və bütün gizlin qüvvələriylə çalışırdılar, hələ neçə il riza mirpənc iş başına gəlməmişdən, hər qazetəçi riza mirpənc haqqında ən balaca tənqidi söz yazdığında, tutuqlanir, döyülür və təhdid olunurdular.
Pəhləvi hökümətidə istemarçılara tabə olaraq, ingilis və rus siyasəti doğrultusunda, bu məmləkəti uçurumlara sürükləməkdə əlindən gələni əsirgəmədi.
-Bu dönəm milli şuura önəm verməmək ölkə nın inkişafının önünə böyük bir manə kimi taxıldı, özəlliklə qacar məhrusə məmaliki türkləri, türkçülük məfkurəsi haqda, bilgilerinin az olduğu, səbəb oldu, istemara bağlı yeni irançılıq məfkurəsi, aldadıcı şəkildə aydınlar içində yayılaraq inanılmağa başlandı, farsçılar yenilikçiliyi, irançılıqda və fars kültürünün hakim olmasında xulasə edirdilər, aydındı ki ingilislər və ruslar antı türk mövze dən yaxlaşaraq bu kəsimlərin ən böyük dəstəkçiləriydilər.
-Qacar hökümməti yıxılarkən riza şah dönəmi başlayır və iranda fars kültürü təmamiylə hakim olur, və birsıra bağımlı və bağımsız aydınların, yeni irançılılıq təfəkkürünü, nəcat yolu kimi göstərdikəlrinə rəğmən, iran ölkəsi, yarım müstəmləkilikdən qurtulamadı, və daha çox, batılı istemar- çıların otoritəsi altına gedir və ağır diktatorluğa və qarqaşalığa üz gətirdi.
-Riza şah məşrutə dönəmi təbrizə hücum edənlərin içindəydi və onların əlilə yenilgiyə uğrayaraq böyük yara almışdır, sonralar riza şah iş başına gələndən sonrada ingilizlərin siyasəti doğrultusunda olaraq, Azərbaycanı iqtisadi cəhətdən baykotda saxladı.
Ayrı tərəfdən ruslar Azərbaycanda böyük qırqınlar yaradaraq ingilislərlə birlikdə, Azərbaycanı iqtisadi və mənəvi kadr cəhətindən zəifəltəməyə çalışırdılar.

5-4-pəhləviçilərlə fars şiəliyinin iş birliyi

-əslində fars şiəliyi və pəhləvi hökuməti arasında heç bir fərq yoxdur, hər ikisinində təmælləri birdir, fərqləri yalnız təmællərin nəcür uyqulanma-sındadır.

-Şiəlik siyasəti pəhləvi hökuməti dönəmindədə vargüciylə izlənildi, şiə hökümətinin liderləri kimi, və əslində onların öyrətisiylə, pəhləvi liderləridə özlərini tanrının kölgəsi bilirdi və özlərini tanrının elçisi (numayəndəsi) tanıdırdılar. pəhləvilər imamlığın atadan oğula geçməsini, fars millətinin irsi bir gələnəyi kimi təbliğ edərək öz şahlıqlarını, irsi qayda olaraq tocih edirdilər.

-Tanrının elçisi olmaqla şahənşahlıq arasında heç fərq yoxdur, əlbətdə əski şahənşahlıq o dönəmin ilkin ürətim ayqıtları (tolid əbzarları) və ilkin kültür şərayitində ortama uyqun olabilirdi vəli geniş ilətişim çağında bu sistim, çağdışı bir yönətimiydi.

Bu haqda çoxlu bəlgələr və örnəklər vermək olar,Məsələn pəhləvi şahı muhəmməd riza pəhləvi yazdığı kitabında beylə deyir :[1]

atamın tac qoyma mərasimindən sonra həsbə xəstəliyinə tutuldum və neçə həftə ölüm qalımla üzüzəydim, bu xəstəlik məhriban atamı çox üzmüşdü, bu gərgin gecələrin birində movla müttəqiyan h. Əli əleyhssəlamı yuxuda gördüm, o belinə qılınc bağlayaraq mənim yanımda oturmuşdu, və mubarək əlində bir cam varıydı, mənə buyurdular, onda olan suyu içəm və məndə itaət edərək içdim onun sabahı günü, mənim qızdırmam kəsildi və hızla toxdamağa başladım.. Sonralarda bənzər hadisələr üz verdi, və mənim mənəvi yaşayışimda böyük etgi buraxdı, uşaqlıqdan bəri təqribən hər il ailə

---

[1] - کمی بعد از تاجگذاری پدرم دچار بیماری حصبه شدم و چند هفته با مرگ دست به گریبان بودم و این بیماری موجب ملال و رنج شدید پدر مهربانم شده بود. در یکی از شبهای بحرانی کسالتم مولای متقیان علی علیه السلام را به خواب دیدم در حالیکه شمشیر معروف خود ذوالفقار را در دامن داشت و در کنار من نشسته بود و در دست مبارکش جامی بود و به من امر فرمود که مایعی که در جام بود بنوشم. من نیز اطاعت کردم و فرادی آن روز تبم قطع شد و من حالم به سرعت رو به بهبودی رفت.. طی همان دو سال بعد دو واقعه دیگر برای من رخ داد که در حیات معنوی من تاثیری عمیق بر جای گذاشت .در دوران کودکی تقریبا هرسال همراه خانواده به امامزاده داوود می رفتیم برای رسیدن به آن محل ناچار بودیم که راه پر پیچ و خم سراشیب را پیاده یا با اسب طی کنیم. در یکی از این سفر ها که من جلو زین اسب یکی از خویشاوندان خود که سمت افسری داشت نشسته بودم ناگهان پای اسب لغزید و هر دو از اسب به زیر افتادیم. من که سبک بودم با سر به شدت روی سنگ سخت و ناهمواری پرت شدم و از حال رفتم. هنگامی که به خود آمدم همراهان من از اینکه هیچ گونه صدمه ای ندیده بودم فوق العاده تعجب کردند. ناچار برای آنها فاش کردم که در حین فرو افتادن از اسب ابوالفضل علیه السلام فرزند برومند علی علیه السلام ظاهر شد و مرا در هنگام سقوط گرفت و از مصدوم شدن مصون داشت روزی با مربی خود در حوالی کاخ سلطنتی سعد آباد.. قدم میزدم. در آن هنگام ناگهان مردی را با چهره ملکوتی دیدم که بر گرد عارض اش هاله ای از نور مانند صورتی که نقاشان غرب از عیسی بن مریم می سازند نمایان بود. در آن حین به من الهام شد که با خاتم ائمه اطهار حضرت امام قائم روبرو هستم مواجهه من با امام زمان چند لحضه بیشتر به طول نیانجامید که آن حضرت از نظر ناپدید شد - .محمد رضا پهلوی - ماموریت برای وطنم - برگرفته از کتاب " نگاهی به شاه " عباس میلانی

iylə birlikdə imamzada davud`un ziyarətinə gedərdik, oraya getmək üçün yaya vəya atla, buruq buruq yollardan geçirdik, bu səfərlərin birində, atın ayağı büdrədi və mən daşlıq yerə düşərək başım daşa çarpıldı və mən bayıldım, özümə gələndən sonra sağ olduğum üçün yulbirlərim çox təəccübləndilər, və mən başıma gəlnləri açıqladım, və dedim: atdan düşərkən h. Əli nin oğlu əbulfəzl əleyhissəlam zahir oldu və məni qorudu, və bu üzdən mənə bir şey olmadı, yenədə bir gün öz eyitmən`imlə sədabad sarayında yürüyürdüm, o anda bir nurani ağanı gördüm, onun başının ətrafında, h. isa ibn məryəm`in başının ətrafında olduğu kimi, nur haləsi varıydı, mənə ilham oldu imam zamanla görüşməkdəyəm, neçə ləhzə sonra o həzrət gözdən ğeyb oldu «muhəmməd riza şah: yurdum üçün görəvim; kitabından»;

-fars şiəçilri və əslində çoxu pəhləvi yanlıları olaraq, indilikdədə bütün televizion filımlərində, danışıqlarında və hətta kartoni filmlərində beylə bir baxış sərgiləyirlər, quya şahın ətrafındakılar şaha yanlış raporlar verərək şahı yanlış şəkildə bilgiləndirirdilər və şahda bu üzdən yanlışlığa düşürdü, nəhayətən bunu eşidən və izləyiciyə təlqin etmək istəyirlər, quya pəhləvi şahları pis deyildilər bəlkə hədəfləri məmləkətə və millətə xidmət etməkiydi və bu mövzunu özəlliklə riza mirpənc haqqında və dəmiryolu haqqında hər danışıqlarında tikrarlayırlar.

-Bir ayrı olaya işarə etmək düşündürücü olabilir: fars şiəliyi, ölkənin rəsmi məzhəbinə çevriln zaman, özəllikə rizaşah dönəmi, 1300 ildən bəri öz dinlərinə bağlı qalmış çoxlu zərtoştilər, dərhal şiəliyi qəbul etdilər və zərtoştizmi buraxdılar, deməli bu məzhəbi öz əski ənənələrinə uyqun görürdülər.

5-5-dəmiryolu düzəltməsi

pəhləvi yanlısı yazarlar və o dönəm eyitim görmüş burokratlar zahirdə pəhləvi hökümətini pisləsələrdə, yanlış bilgiler verərək, onların uydurma işlərini övməkdən çəkinmirlər, və rizaşahı iranın

qurtarıcısı kimi göstərməyə çalışarlar, halbuki mövzu kökündən tərsinədi, istemarçı güclər, sadəcə böyük işlərin önünü kəsmək üçün riza mirpəncı iş başına gətirildilər, pəhləvi yanlılarının yanısıra, çoxu zaman, fars şiəçilridə, pəhləvi hökümətini, siyasi ictimai və özəlliklə qadın örtüsü (hicab) və özgürlüklər haqqında qınasalarda, iqtisadi konularda və özəlliklə dəmir yolu haqda, dolayılı və dolayısız övərlər.

- Onlar məmulən beylə deyərlər: düzdü rizaşah diktatoruydu vəli iranda dəmiryolunun təməlini atdı və quzeydən-güneyə dəmiryolu çəkdi, vəya eylə danışırlar quya qacar zamanı heç bir bilim və eyitim yoxuydu və hamısı rizaşah dönəmindən başladı və rizaşahı yeni iranın atası bilirlər.

-Yenədə pəhləvi yanlıları rizaşah dönəmindən eylə danışarlar quya ondan öncə ölkə əhalisi əsla dəmiryolunu tanımırdılar, dəmiryolunun irana gətirilməsi və özəlliklə iç qaynaqlara dayanaraq və qənd şəkərə vergi bağlamaqla bu işi görmək, rizaşahın yetənəyidi və bu səbəblə övülməlidi.

Buna diqqət etməliyik riza mirpənc birinci dünya savaşından sonra iş başına gəldi və qacarlar bu savaşdan öncə hakimiyətdə iydilər, və əlbətdə bu iki dönəmin arasında (birinci dünya savaşının öncəsi və sonrası) böyük teknolojik düzeydə fərq varıydı. Bu haqda qısa bilgi üçün işarə olunur: «birinci dünya savaşından öncə qatarlar buxar gücüylə işləyirdilər və 1913üncü il dizəl gücü, buxar gücünün yerinə oturdu və həman illərdə elektrisitə (bərq) gücündən də dəmiryolunda yararlanmağa başlanıldı. Və birinci dünya savaşından sonra dəmir yolu geniş səviyədə dünyada istifadə olundu».

Bunlara rəğmən müxtəlif qaynaqlarda görünürki qacar məhrusə məmalikinin müxtəlif yerlərində yaxlaşıq 717 kilometr dəmir yolu tikilmişdir, bunlardan Bəziləri dövlətin ixtiyarındaydi və bir bölümüdə özəl xarici şirkətlərin malikiyətindəydilər.

Günəş ili 1250 də nasirəddin şah tərəfindən dəmiryolu düzəltməsinin imtiyazı, əngilisli barun riyter`ə verildi vəli rusların basqısıyla ləğv olundu.
Qacar məhrusə məmalikində dəmiryolunun düzəliş ili miladi 1886(günəş 1265) ilə gedib çıxır o dönəm məhmudabad - amul arasında dəmiryolu düzəldi və 1261 günəş (m. 1882) ili tehran - şahəbdüləzim arasında 8.7 kilometir fəransəli misiyo buvatal tərəfindən dəmiryolu düzəldi və sonralar bir beljikliyə verildi.
Ayrı örnəklərdə vermək olur: 1912ıncı ildə təbriz- culfa arasında 149 kilometr, 1920inci ildə zahidan – mircavə arasında 94 kilometir dəmiryolu istifadə olunurdu, vəya 1918 inci ildə buşehr-burazcan arasında 60 kilometir əngilislər tərəfindən dəmiryolu çəkildi, və bəndər ənzəli pirə bazar rəşt məsirindədə 12 kilometir dəmiryolu kullanılmaqdaydı bu qətarların üstündə 1848inci il, düzəliş ili kimi hək olmuşdu.
-Ölkənin başdan başa (sərasəri) dəmiryolu haqda tərhlər qacar dönəmi dəfələrcə planlanmışdı.
-Bu haqda əhməd şah`ın fikricə, ən dəyərli və məmləkətin işinə yarar məsir, zahidan, isfahan, tehran, ərak kirmanşah yuluydu, yəni o dönəm ölkənin batısını doğusuna bağlamaq hədəflənirdi çünki ölkənin istratejik yararı və özəlliklə daşımacılıqda ən çox mənfəəti, malların batıdan doğuya və ya tərsinə daşımaq idi çünki avrupanı asyaya bağlayırdı və beylə bir dəmiryul məsiri, iqtisadi ticari lahazdan ən düzgün yoluydu, halbuki quzey güney dəmiryolu yalnız nizami cəhətdən tərh olunaraq,və ingilislərin işinə gələrək rusyaya əl tapmaq amacıyla mətrəh olunurdu, qacar ölkəsinin yararını nəzərdə almadan, ingilislər 1912inci ildə öz məclislərində bunu bəhsə və tartışmaya qoydular və öz yararlarını nəzərdə alaraq batı duğu məsirinin düzəlməsinin qarşısının almağı hədəflərində qoydular və bu siyasət doğrultusunda sonralar riza mirpənci iş başına gətirərək, quzey güney məsirini iran ölkəsinin öz əhalisinin vergisi və mal iylə və ingilizlərin siyasəti doğrultusunda düzəltdilər,

rizaşah dönəmi düzələn quzey güney dəmir yolunun uzunluğu yaxlaşıq 1500 kilumetridi.
Bu haqda çoxlu sahib nəzər şəxslərdə beylə düşünürlər Məsələn müsəddiq (4/7/1324) milli şura məclisində bir qonuşmasında, batı duğu dəmiryolunu ölkənin yararına və ayrı yolları ölkə məsalehinin xəlafına olduğunu bilirdi. Ayrıca abbas iqbal aştiyani, və ayrılarıda bu önəmli nüktəyə işarə ediblər bu mövzu haqqında daha geniş açıqlamaları «gozəşte çerağ e rah e ayəndə əst: geçmiş gələcək üçün çıraqdır» kitabında izləmək olar.

5-6-məşrutədən umudsuzluq və Azərbaycanda özünə dönüş başlanqıcı

5-6-1-seyid cəfər pişəvəri və Azərbaycan milli hökuməti

almanlar, savetlər birliyinə saldırırkən ikinci dünya savaşı başlayır, iran hakimi rizaşah almanlarla iyi ilişəkilər qurmuşdu, özəlliklə almanların «jermən ırqının üstünlük» teorisinə heyran olan və irandada ariya ırqının ustünlüünü sağlayan rizaşah, almanların geri oturmasıylə zor duruma düşdü. 1941 də müttəfiq quvvələr iranı əşğal etdi və savetlərin qızıl ordusu iranın quzeyinə (güney Azərbaycana) yürüdü. Eş zamanlı olaraq böyük britaniya da petrol çıxarlarını qorumaq üzərə iranın güneyini əşğal etdi.
Ingilis və savetlər arasında 1942 ilində yapılan bir anlaşmaya görə, bu iki ölkə, savaşın bitimindən altı ay sonra birliklərini irandan çəkəcəklərdi. Zamanı gəldigində ingilis, petrol bölgəsindəkilər xarıc, birliklərini çəkdiysədə 2 mart 1946da şurəvi birlikləri hala iranın quzey bölgəsində ki movcudiəytlərini sürdürməkdəidilər.
Savetlər, qafqazın kontrolunu əlində tutmaq istiyirdi və erməni kartından da yararlanaraq Türkiyə və iranda komonist propaganda fəaliyətlərini artırdı və bu ölkələrdə marksist örgütlənmələr üçün zəmin yoxladı.
Pişəvəri Azərbaycanın bağımsızlıq hərəkətinin liderliyini üstlənərək 3 eylul 1945də Azərbaycan demokrat firqəsinin manifeıstini elan

etdi. bundan 20 gün sonra iran tudə hizbi rəhbərliyinin müxalifətinə rəğmən, tudə partisinin Azərbaycan qoluda bu hərəkətə qatildı. Azərbaycan türkcəsində yayın yapan Azərbaycan qazeti, yeni partinin, rəsmi organı elan edildi. Partının əkim 1945də ki ilk kongresində siyasi tələblər ayrıntılı olaraq ortaya qoyuldu. Bunlar arasında iran üçün demokrasi, Azərbaycan üçün otonomi, Azərbaycan türkcəsinin oxullarda və hökümət quruluşlarında rəsmi dil olaraq qullanılması, Azərbaycan iç işləri üçün Azərbaycan türklərinin atanması və Azərbaycan əsgəri gücünün oluşdurulması vardı.

Azərbaycan demokrat firqəsinin manifestində bağımsızlıq deyil otonomi olmasına rəğmən tehran bu partını qeyr Qanuni bir hərəkət elan etdi və iran ordusunu Azərbaycanda yeni dən tehranın hakimiyətini qurmaq üzərə bölgəyə göndərdi. Savet ordusunun çəkilməsindən sonrada Azərbaycanda dirəniş dəvam etdi. Payız 1946da sürən çatışmalar sonrası, tehran höküməti, Azərbaycanda yenidən kontrolu ələ geçirdi.

Azərbaycanda üz verən bu hadisələr çox önəmli olaraq dünya siyasətinin 50 ilinə hökm edəcək olan soyuq savaş və iki qutublu dönəmində başlanqıcı olmuşdur.

Farsçı yazarlar toplumsal məsələlərə göz yumaraq və fars şiə teorisi kimi xalq gücünü heç sayaraq və yalnız xarici gücləri etəyin bilərək bu olayları şurəvi birliklərinin iranda ayrılıqçı bir Azərbaycan hərəkətinin dəstəkləməsinin nəticəsi olduğunu savunarlar, və Azərbaycan mərkəzli milli yada etnik xususiyətli bir hərəkətin var olmadığını isbat etməyə çalışarlar, və Azərbaycanda olan ırqçı iqtisadi və kültürəl təzyiqləri görməzdən gələrlər.

Ancaq bu haqda gərçəkçi müvərrixlər ayrı cür düşünürlər. Azərbaycan demokrat hökümətinin qurucusu seyid cəfər pişəvəri solçu fikirlərdəndə etgilənərək, amacı Azərbaycanın bağımsızlığı istəyi olmuşdu və qurduğu hökümətin ilk işi türkcəni rəsmi dil olaraq qəbul etdi və güney Azərbaycan oxullarında türkcə eyitimini

başladı, bu hərəkətlər toplum istəklərilə eyni doğrultudaydı və demək olar pişəvəri solçuluq ortamından yaralanaraq Azərbaycan xalqının istəkləri doğrultusunda hərəkət edirdi, pişəvəri və Azərbaycan demokrat hökuməti və tərəfdarları Azərbaycanda bolşevikləşədirməkdən çox türkcənin rəsmi dil olduğu, iqtisadi və toplumsal fəaliyətlərlə bağımsız bir Azərbaycana bir addım daha yaxlaşmaq fikrindən etgilənmişdilər.
Bu sözə ən aydın subut pişəvəri tərəfdarlarıyla tudə partisi yanlıları arasında, su üzünə çıxan, ayrılıq və çatışmalardı. Və bu olaylar əslində, Azərbaycan türklərinin modernləşmək üçün başlatdığı uzun müddətlı bir milli bilgilnəmə dönəminin sonucuydu, bu dönəmdə güney də xiyabani azadistan girişimi, quzeydə təqiyef, əlimərdan topçubaşı; əli bəy hüseyn zadə və əhməd ağa oğlu kimi alimlərin fəaliyətlərinində böyük etəgiləri olduğu bilinməkdədir. Mövzunu aydınlatmaq üçün pişəvərinın yaşam boyu fəaliyətlrinə qısaca baxmaqda yara vardır
seyid cəfər pişəvəri xalxalda seyidlər zeyvə`si kəndində dünyaya gəldi, təhsilatın quzı Azərbaycanda bitirəndən sonra 32 yaşında irana döndü, rizaşah dövrü mübarzələrindən dolayı 11 il həbsə girdi, günş1323 xordadın axırında 14cu məclisə vəkil seçildi, onun etibarnaməsi tir ayının 22sində məclisdə mordad ayi, tudə hizbi tərəfindən rəd oldu.
(Pişəvərinin etibar naməsinin rəd olmasında milli şura məcəlisində düktür müsəddəq də qonuşma yapır, və deyir «əgər irad səsvermədədir, niyə təbrizin o biri numayəndələri rəd olunmur? Əgər xaricə bağlılıq məsələsi vardır, seyid ziya`dan, daha çox kim var?» Hər halda bu qonuşmada onun rəd olmasına təsir qoyabilmir, günş 1324cı il tehrandan təbrizə köçərək 1324 şəhrivərin 12sində demokrat hizbini qurdu (və tudə hizəbinin rəhbərliyinin müxalifətinə rəğmən, Azərbaycan tudə partisinin qolu demokrat partisinə qoşuldular) və sonra ilk Azərbaycan qazetin yayılmağa başlandı, 1324cı il azərin 21ində milli məclisin açılışın və

hökümətin qurulmasını elam etdi, dalısı gün təbriz padiqanı xəl silah olundu, şəhrrivərin 27sində urmiyə padiqanı təslim oldu, günş1324 dey ayinin 19unda təbriz yuniversitə sinin qurulması, (ziraət tibb və eyitim fakultələri) və bəhmən ayinin 27 sində xalisə ərazinin bölünməsi təsvib oldu, 1325 ordibeheşt`in 19unda rus qoşunları iran topraqlarından xaric oldu, xordad`ın 22 sində təbriz yuniversitə`sinin açılışı düzənləndi, müxtəlif olaylar sonucu azər`in birində zəncan, hökümət tərəfindən boşaltıldı və 16sında mərkəzi hökümət qoşunu, amerika qoşunu köməyilə Azərbaycana hücum edərək ayin 22sində Azərbaycan höküməti yıxıldı, hökümət adamlarının bir bölümü, sonradan höküməti yenidən ələ gətirmək umuduyla otaya geçdilər.
Seyid cəfər 1947ci il eyəlül‘ün 11ində bir otomobil qəzasında bakı şamaxı arasında yaralanaraq xəstə xanaya müntəqil olaraq, quya istalin‘in əmriylə dava təzəriqi əsərində öldürüldü.

5-6-2- milli hökümətin gördüyü işlər

Azərbaycan milli höküməti qısa bir müddətdə (1324-1325) böyük işlər gördü çoxlarının dediyinə görə Azərbaycan milli höküməti bir ildə pəhləvi hökümətinin 20 illik yolunu getdi, aşağıda bunların ən önməlilrinə işarə olunur (yərevand abrahamiyan, kitab «iran beyn do enqelab»,)
1-milli hökümət dönəmi, qısa sürədə Azərbaycan türkcəsi Azərbaycanın rəsmi dili elan edilmiş, oxullarda, dövlət qurumlarında kullanılmağa başlamış və ilk oxul öyrənciləri üçün, ana dil adlı altı cildlik dərs kitabı yayınlanmışdır.
2-ilk dəfə olaraq iranda seçib seçilmə haqqı məclisdə və iyalətı və vəlayətı əncümənlərdə eşit və bərabər halda qadınlar və kişilərə verildi (işarə olunmalıdır, islam aləmində ilk dəfə olaraq 1921 (günəş 1300) ilində quzey Azərbaycanda və muhəmmməd əmin rəsulzadə liderliyində seçib seçilmə haqqı qadınlara verilmişdi və uyqulanmışdı, Azərbaycan milli hökümətinin qadınlara seçib seçilmə haqqı tanıması nəticəsində, sonralar döktür muhəmməd

müsəddiq hökuməti zamanı günəş ili 1332 də (m. 1953) ilk dəfə seçmə haqqı iran çapında qadınlara verildi, əlbətdə indidə iranda bütün seçim qanunları özəlliklə qadınlar haqqında tamamiylə soveri (zahiri) şəkildə olaraq gərçəkliyə qovuşmayıbdır və onun əsli nədəni əski fars kültüründə qadınları aşağılamaqdan qaynaqlanır.
3-təbriz universitəsi qurularaq türkcə eyitim – öyrətim işlərinə başlandı (9/10/24), bu girişim ülgü olaraq sonralar pəhləvilər tərəfindən bütün şəhərlərdə uyqulanmağa başlandı.
4-təbriz radiyosu təsis edilərək türkcə yayın yayılmağa başlandı.
5-Azərbaycan qazeti, Azərbaycan demokrat partisinin (firqəsinin) rəsmi orqanı olaraq siyasi, ədəbi və sosiyal konularda məqalələr nəşr etdi. Onlarca türkcə kitab, dərgi və qazet yayınlanmağa başlandı.Təbrizdə güney və quzey Azərbaycan Şairlərindən əbart bir Şairlər məclisi quruldu.
6-ilk dəfə olaraq xalisə ərazı, və xalq əleyhinə olan və qaçqın olaraq düşmənə sığınan maliklərin yerləri əkinçilər arasında bölündü. Əkinçilər qurultayi, 600 nəfərlik numayəndə iştirak iylə təbrizdə quruldu və əkin yerləri bölümü (təqsim ərazi) haqda və «malik əkinçi» ilişkiləri haqda qərarlara varıldı.
Azərbaycan milli hökuməti yaşamının qısalığına baxmayaraq təsiri iran çapında böyük olmuşdu, qəvamussəltənə zamanı, zəhmətkəş işçilər yararına geçirilən yasalar, müsəddiq zamanı əkinçilərin məhsuldan paylarının artırılması, və sonralar sözdə «ağ inqilab» adıyla əkin yerlərinin bölümü, quşqusuz milli hökümətin tasiriylə ortaya gəlmişdi və ilqinc olaraq, şahın ağ inqılab adıyla başlanan əkin yerlərinin bölüşümü, 1324. ildən qaldığı yerdən, yəni Azərbaycanın mərağa bölgəsindən başlanmışdır.
7-ilk dəfə olaraq malik və əkinçi arasında məhsul bölüşmə qaydaları tədil oldu, və əkinçilərin payi 80 faizə kimi artırıldı beylə ki əkin amillərinin səhmləri bəzr, saman, öküz(yer sürmək üçün), su (sulu vəya dem yerlərdə) və biçmə vəya məhsul götürmə şəklində ayrıldı

və hərkəsin çəkdiyi əməyə görə və qoyduğu sərmayəyə görə haqqı bəlli olundu.
8-ilk dəfə olaraq işçilər üçün yasalar qoyuldu, 8 saatlıq iş təsvib olundu, 13 ildən az yaşlılardan iş çəkmək qadağan oldu və qadınlar üçün doğum dönəmi istirahəti, müzdlərini almaq şərtiylə yasa qəbul olundu. Və təavunilər quruldu.
9-şəhərlərdə içmə su boruları çəkilməyə başlandı.
fars şiəliyi quran`ın məxluq olması haqda bəlli dəlilləri vardı, örnək üçün şeyx əbulhəsən şərif (məratulənvar) kitabında, quran`ın təhrif və əskik olmasının şiə məzhəbi nın zəruriyatından olduğunu yazaraq bu dəlilləri sayır.

1-ilk quşqu: yəhud və nəsara Peyğəmbərindən sonra kitablarını təhrif elədilər. Peyğəmbərdən sonrada beylə bir olay quran üçün qeyr təbii olmamalıdı.

-Bu məsələyə cavab üçün quran`ın iki ayəsi yetərlidi: (hicr 15/ 9: إِنَّـا نَحْنُ نَزَّلْنَا الـذِّكْرَ وَإِنَّـا لَـهُ لَحَـافِظُونَ: biz quran`ı yolladıq və qoruyuruq). (fussilət 41/ 42: لَا يَأْتِيهِ الْبَاطِلُ مِن بَـيْنِ يَدَيْـهِ وَلَـا مِـنْ خَلْفِـهِ تَنزِيـلٌ مِّـنْ حَكِيمٍ حَمِيـدٍ: heç cürə batillik (təhrif) nə indi (yeniş zamanı) və nə gələcəkdə quran`a yetirməyəcəkdi Çünki o həkim tanrının tərəfidən göndərilibdi..

İslam diniylə obirilərin ən böyük fərqi, iqtidar məsələsidi, h. Peyğəmbər quran`ın yenişi zamanı iqtidarının ən yuxarı zirvələrindəydi və bu üzdən sayısız valeh və heyranı varıydı və quran`ı təhrif etmək üçün imkan yoxuydu.

-Yəhudiyət və məsihiyət dinlərinin tarixi, eynən islamiyət dönəmindədə tikrarlanması, fəlsəfi cəhətdən, özü bir baxış məsələsidi, fars şiəliyi tarix haqqında döngüsəlliyə inanır, halbuki islam alimləricə və özəlliklə yeni bilim əsasında, tarix, döngüsl deyil bəlkə tarixin gedişi və hərəkəti evrimsəldi (sarmal olaraq yuxarı doğrudur).

-Fars şiəliyi yalnız quran`ın təhrifinə inanmaqla qalmayıb bəlkə tarix boyu, cəəli ayələr düzəltməklə özləridə bu təşəbbüsdə bulunublar, koleynilər, tusilərin hədis kitabları, çoxlu yalançı və cəəli ayələrlə doludu, ama quran`ın söylədiyi kimi tanrı quran`ın qoruyucusudu, və farsçılar, quranda hətta bir hərf dəyişməyə gücləri yetmədi, və gərçəkdən quran`ın möcizəsi onun dəyişməz olduğudu.

2-quran`ın toplum içində dağınınq şəkildə olması və sonrada bir yerə toplanması onun təhrif olmasına imkan yaradır, əllamə məclisi, məratuluqul kitabında bu məsələyə işarə edib və deyibdi: «quran dağınıq şəkildə toplum içindəydi və onu qeyr məəsum şəxslər bir yerə toplayıbdi və ağıl hökm edir onun kamil olmağı gərçəklərlə uyqun olabilməz».

əvvələn fars şiəliyinin iddia etdiyi məəsumluq fəlsəfəsi əsasdan batildi və quranda deyilən kimi, tanrı heç kəsi və hətta Peyğəmbəridə məəsum yaratmayıbdı, və aydındı vəqti bir nəzər, batıl əsas üzərində qurula, özü batıldı.

Ayrıca əgər onların iddia etdikləri məəsumiyət məsələsini nəzərə alarsaq, h. Əli, h. Ömır, h. Əbubəkr və h. osman toplayanların başı üstündə idi və onlar vəhy katibləriydi.

Ayrı cəhətdəndə desək səhabələr quran`ın hafizlriydilər və çoxlu müsəlmanlarda onu əzəbərləmişdilər və bu üzdən təhrif məsələsi sayımlama cəhətindəndə sıfıra meyl etməkdədi, [əlbətdə Şayəd riyazi cəhətdən bu hədd sıfır olması mümkün deyildi, ama insan niyazlarını nəzərdə tutarsaq, onun güvənilir olması kifayət qədər olur].

3-fars şiəliyi bu şübhə üstündə durur quya əhl sünnət`in dediyi və inandığı mənsux ul-tələvə ayələr, eynən təşəyyo yanında olan təhrif rivayətləri kimidi.

Şeyx tusi əltəbyan kitabında yazır: Bəziləri quran`ın nəsx`ini danırlar halbuki bu haqda aydın dəlillər vardı və çoxlu ayələr sonralar nəsx olubdu (1/394)»

tanrı quranda buyurur: «bəqərə 2/ 106: مَا نَنسَخْ مِنْ آيَةٍ أَوْ نُنسِهَا نَأْتِ بِخَيْرٍ مِّنْهَا أَوْ مِثْلِهَا أَلَمْ تَعْلَمْ أَنَّ اللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ: hər ayəni boşladıq və ya unutdurduq, onun yerinə ondan iyisin vəya ona tayın gətirdik və onun yerinə qoyduq».

Aydındıki təhriflə nəsx arasında fərq vardı və fars şiəliyi yalnız öz ətrafını bulandıraraq fikr edir hər yer qaranlıqdı və heçkəs onu görməyəcəkdi.

4- fars şiəliyi deyir h. Əli nin yanında özəl quran varıydı və indiki quranla bir deyildi.
Bu dəlil batildi çünki h. Əli müsəlmanların xəlifəliyinə yetirdi və ən iqtidarlı şəxs idi və əgər beylə bir Məsələ olsaydı dinə və quran`a xatır yayardı və xütbələrində söylərdi halbuki beylə bir söz, nə onun zamanında və nə ilk üç qərndə heç vaqt söylənmədi və yalnız 300 il sonra sasanlı şahzadələri olaraq koleynilər və tusilər dedilər.
Fars şiəliyi Yuxarıda qeyd olunan şübhələrə bənzər ayrı şübhələr ortaya atır və quya kamil quran filan şəxslərin yanındaydı (Məsələn əbdullah ibn məsud, obəy ibn kəəb, ayişə, salim molay həzifə) vəya əsli ayələrin örnəyi beylədi, və hər halda beylə bir şey olsaydıda onların özlərinin tənzimlədikləri kitabıydi, və onlar nəhayətən birləşdirilib və bütün səhabə və əhl beytin qəbul etdiyi nəhayi kitab mötəbər sayılmaqdadı.
5-fars şiəliyi deyir:osman quran`ı toplayandan sonra ikinci kərə Bəzi kələmələri və ayələri həzf etdi və bu Məsələ quran`ın təhrif olması üçün önəmli dəlildi (fəsl ulxitab 150).
Müsəlləm odurki quran Peyğəmbər zamanı məktub olub və h. Əbubəkr yalnız onları bir yerə toplayıbdı, bu üzdən onlar haqqında təhrif məsələsi düzgün olabilməz, ayrıca bu toplanmaqdan amac müxtəlif ərəb deyiş və ləhcələrini birləşdirib vahid qoreyş ləhcəsini quran üçün təsbit etmək amaclanırdı.
Necə ki tanrı buyurur «bəyyinə 98/ 2 : رَسُولٌ مِّنَ اللَّهِ يَتْلُو صُحُفًا مُّطَهَّرَةً: quran sohof`lərdə toplanıbdı (tanrı tərəfindən göndərilmiş tərtəmiz oxuyan bir elçi)».
Liza quran Peyğəmbər zamanı sohof`larda yazılıb və h.Əbubəkr zamanı bir yerə toplanıb və h.Osman zamanı, qoreyş ləhcəsiylə təsbit olaraq ondan nüsxələr yazılır və müxtəlif islami mərkəzlərə yollanılır. Hərhalda vəhy katiblərindən h. Əli bütün bu aşamalarda hey və hazırıydı və hər üç xəlifəyədə danışmanlıq yapıbdı və mütməinən hər tür yetərsizlik olsaydı iqtidar başında olan zaman söyəlrədi və bərtərf edərdi, və əlbətdə beylə yetərsizlik heç vaxt

olmamışdı. Necəki hətta fars şiəliyində olan Bəzi öncülərdə buna işarət ediblər, örnək üçün «tarix əlqran, zəncani 67» də yazır: «osman quran`ı movlamız əli`nin nəzəriylə topladı». Yenə də «səhih sənədlə ibn davud ibn həcər`dən nəql edir: h. Əli buyurdular osman haqqında iyi və xeirli danışın çünki tanrıya and olsun səhifələr (yazılı vəraqlar) haqqında hər iş gördü, bizim məşvərətimizlə və bizim huzurumuzla etdi, və heç işi özündən və təklikdə yapmadı. Fəth əlbari 9/18, ibn əbi davud/ kitab əlməsahif, s 19, əbu şamə/ əlmürşid əlvəciz, s 53».

6-fars şiəliyi deyir, tanrı öz vəsf`lərin və adların öncəki kitablarda gətiribdi və o adların quran da olmaması onun təhrifinə subutdu, və misal vurur quya imamların adı öncə ki kitablarda gəlibdi və gərək quran dada gəlmiş olardı.

Fars şiəliyi bir sıra yalan sözləri ortaya atır və beylə düşünür sonralar o sözlər yaylacaq və tədricən üstündə mücadilə başlanacaq və bir iddə şübhəyə düşəcək, aydındı ki öncə ki kitablarda hətta h. Əli nin adı geçəməyibdi harda qalsın o biri imamların adı, əlbətdə buna tay farsçılar Məsələn vilayət sürəsini, kitablarında gətiriblər, bu yazılar anlamsız və quranla əsla bir bağlantısı olmayaraq uyumsuz sözıərdi və yalnız fars şiəliyi heyranları tərəfindən və ya istemarçı quvvələr tərəfindən nifaq salmaq üçün orda burda yazılır. Və yenə də müxtəlif qəraetləri quran`ın təhrif olmasına dəlil kimi göstərirlər. Halbuki o qəraetlər h. Peyğəmbərində təsdiqin almışdı.

7-fars şiəliyi hicr 15/ 9 ayəsi haqda deyirlər quran əski kitablardada deyildiyi gibi, göylərdə loh-i məhfuz şəklində saxlanılır və bu ayədən mənzür indiki quran`ı qorumaq deyil bəlkə göylərdə məhfuz olmasına işartdı. Bu haqda aşağıda bilgi verilibdi.

10-3-5-quran və onun yaradılmışlığı haqda yanıtlar

quranın yaradılmış olması iki cəhətdən yəni araşdırmacının nəcür inancı olduğu baxımından araşdırılmalıdı: 1-araşdırmacı müsəlman olaraq quran`a inanır. 2-araşdırmacı tanryia inanmır və ya

müsəlman olmayaraq quran`ın tanrı tərəfindən göndərilməsinə inanmır. Aşağıda sırayla bu yaxlaşımlara yanıt verilir.
1--tanryia, vəhy`e və quran`a inanan biri üçün, quranın göylərdə loh-i məhfuz olması anlamsız bir sözdü, və loh-i məhfuz yerdəki quran və indilikdə əlimizdə olan quran deməkdi, zıra göylərdə yalnız quranın məhfuz lohu deyil ayrıca sayısız məhfuz loh olmalıdır və tanrı istəsəydi onları minlərcə kitabda sayaraq deyirdi ama onları deməyə nə luzum vardı vənə insan indiki durumunda onları düşünə bilirdi, ayrı tərəfdən məhfuz loh`un göylərdə olmasının insana nə yararı vardı və onu deməyin tanrı üçün nə ləzumu varıydı, tanrı insanların yer üzündə yaralanmaları üçün əlimizdəki quran`ın tanrının düzgün sözü olduğunu vurqlayır və insana bu üzdən höccətini tamalandığını söyləyir. Bu haqda son sözü beylə diyə bilirik: tanrı quran`ı göndərib və quranda dediyi gibi (hicr 15/ 9, إِنَّـا نَحْـنُ نَزَّلْنَـا الـذِّكْرَ وَإِنَّـا لَـهُ لَحَـافِظُونَ: şübhəsiz biz bu quran`ı yollamışıq və onu qoruyuruq) onu quruyacaq və əshab da onun qurumağı üçün vəsilədi. Və insanlarda hər zamanda güvənərək əlimizdə olan quran`dan yararlanabilirlər. Ayrıca Bəzi bənzətmələr haqqında və özəlliklə əzəli ləfz və sifət haqqında aşağıdakı paraqraf yetərli olabilir:
allah`ın bir bənzəri olmadığı üçün, allah`ı ona qiyaslama imkanımız yoxdur. İnsanlar nəcür ki allah`ın zatının həqiqət və keyfiyətini bilməkdən aciz isə, sifətlərinin də həqiqət və keyfiyətini bilməkdən acizdir.
2-ikinci halətdə araşdırmacı quran`ın tanrı tərəfindən göndərildiyinə inanmır, bu halda onun yaxlaşımı iki cəhətdən yorumlanabilir əgər xoşgörülü olursa aydındıkı quran`ın 1400 il tarixində təhrifsiz şəkildə bizlərə yetirilməsi onun ən böyük gücü və qodrəti olaraq tanıyacaqdı və yenədə dahada etgili olması üçün onu çağdaş ilkələr əsasında yorumlayacaq, qalan bölümlərini tarixsəlci yorumla tarixi məsələləri açıqlamaqda işlədəcəkdi; ama araşdırmacı mənfi yöndən baxarsa aydındıkı onun təxrib qəsdində quşqu olmayaraq quran`ı

gözdən salmağı amaclayır və beylə hallarda yalnız onun təhrif təlaşına yanıt vermək gərəyir və təhrif işinə əngəl törətmək lazimdi.

10-4- quran`ın ləfz- məna olaraq ayrılığı teorisi və tarixsəlcilik

quranda vəhy, tanrının bəşərlə qonuşma növlərinin biri kimi tanıdılıbdı (şura 42/ 51), və vəhy`i alan Peyğəmbərin canıdır « نَزَلَ بِهِ الرُّوحُ الامين عَلي قَلبِكَ..» (şüəra 26/ 194), və vəhy tanrının özünə əayddır və ona monətəsb dır (şura 42/ 3).

Quran araşdırmacılarının bir bölümü beylə inanırlar : ilahi mənaların (vəhy`in) söz qalıblarına tökülməsinin cəbrəil`ə və ya h. Peyğəmbərə aid olduğunu söyləmək, quran`ın ləfzi möcizəsini yox saymaq anlamına gəlir. Halbuki quran`ın ləfz və uslubundakı şah əsərliyini görən ərəb ədib və Şairləri ona inanmasalar belə heyranlıqlarını gizləyəməmişlərdir. Bu üzdən müsəlmanlar buna inanırlar: quran tanrının sözü olaraq onu Peyğəmbərin vasitəsiylə insanlara yollamışdı.

Tanrı quran`ı bəlli bir zamanda və bəlli bir xalq dilində göndərmişsə onların düşünəbiləcəkləri uslubda yollamışdı və müsəlmanlarda onun hərkəs tərəfindən düşünəbiləcəyinə inanırlar, bu üzdən, quran ayələri, tarixsəlcilik ortamında yorumlanabilməsi mühəqqəqdir: bütün insanlar, öz düşüncə səviyələrinə görə, quran`ı, düşünəbiləcəklər, onu yorumlaya biləcəklər və bəşəri yasalarda və uyqulamalarda ondan dolayılı və dolayısız yararlana biləcəklər.

Quran ayələrində təlavət və qəraet məsələsinə (nəhl 16/ 98; qiyamət 75/ 18; al imran 3/ 58; muzzəmmil 73/ 4), və əlfazın dəyişilməsinin yasaqlanması (yunis 10/ 15), unudlmamasına (qiyamt 75/ 16) vurqu yapılır. Quran araşdırmacılarından Bəziləri, ləfz və mətnin sabitliyinə təkid olunmasını (təhrif olunmaması məsələsini), mənanı kölgədə buraxmaq kimi təbir edirlər. Beylə yaxlaşımlar, düzənsiz yorumsamalara yol açabilir. Bu üzdəndə quran haqqında yorumlar və özəlliklə onun hermenütiki çağdaş bilimləri göz önünə alaraq yeniş zamanının olaylarını da nəzərdə tutmalıdır.

10-5- quran`ın umum xalq tərəfindən düşünəbilirliyi və anlaşılabilirliyi

tanrı quran`ı düşünəbilir və anlaşılabilir şəkildə insanlara göndəribdi, bu haqda çoxlu ayələrə işarə etmək olar :

al imran 3/ 138 : هذا بيان للنّاس و هُدىً و مَوعِظه لِلمُتّقين: bu (quran) xalq üçün açıq dəlildir,təqvalılar üçün bir qılavuz və öyüddür.

Zumər 39/ 28 : قُرآنًا عرَبيًّا غَيْرَ ذِي عِوَجٍ لَعلَّهُمْ يَتَّقُونَ: bunu əyri büyrüsü olmayan ərəbcə olaraq yendirdik, qorunub sakınabilsinlər.

Şüəra 26/ 95 : بِلِسَانٍ عرَبِيٍّ مُّبِينٍ: quran aydın və açıq ərəb dilində yenmişdi.

Qəmər 54/ 32,40 : وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِن مُّدَّكِرٍ : and olsun biz quran`ı öyüd və ibrət üçün sadələşdirdik, öyüd və ibrət alan varmıdır?.

Kəhf 18/ 54 : وَلَقَدْ صَرَّفْنَا فِي هَذَا الْقُرْآنِ لِلنَّاسِ مِن كُلِّ مَثَلٍ وَكَانَ الْإِنسَانُ أَكْثَرَ شَيْءٍ جَدَلًا: and olsun biz bu quran da insanlar üçün hər tür misalı dəyişik şəkillərdə açıqladıq, fəqət insan tartışmaya hər şeydən daha çox düşkündür.

Muhəmməd 47/ 24 : أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْآنَ أَمْ عَلَى قُلُوبٍ أَقْفَالُهَا :onlar quran`ı düşünürlərmi? Yoxsa qəlbləri kilidlimi?.

Mərim 19/ 97 : فَإِنَّمَا يَسَّرْنَاهُ بِلِسَانِكَ لِتُبَشِّرَ بِهِ الْمُتَّقِينَ وَتُنذِرَ بِهِ قَوْمًا لُّدًّا: biz onu sənin dilində sadələşdirdik, onunla təqva sahiblərini müjdələ və inadçı quvmu uyar.

Nəhl 16/ 89 : وَيَوْمَ نَبْعثُ فِي كُلِّ أُمَّةٍ شَهِيدًا عليْهم مِّنْ أنفُسِهِمْ وَجِئْنَا بِكَ شَهِيدًا علَى هَؤُلاء وَنَزَّلْنَا عليْكَ الْكِتَابَ تِبْيَانًا لِّكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَى لِلْمُسْلِمِينَ : gün olur hər ümmətə, öz cinslərindən tanıq gətirəcəyiz və səni onlara tanıq tutacağız, sənə bu kitabı yendirdik ta hər şey üçün ayrıntılı bir açıqlayıcı, bir qılavuz, bir rəhmət, müsəlmanlarada bir müjdə olsun.

Yuns 10/ 5 :.إلاَّ بالْحَقِّ يُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ .: o anlayacaq bir topluluq üçün ayətlərini açıqca bəyan edir.

Fars şiəliyi əski gələnəkəlrinə yəni sasanlı dini kültürünə dayanaraq, tələş edir, quran`ı anlaşılmaz və qarmaşıq bir mətn kimi göstərsinlər, bir haldaki quran xəvas üçün yox bəlkə umum xalq və ümmət üçün, və sadələşdirilmiş və açıq və düşünüləbilir şəkildə yendirilmişdi. Misal üçün koleyni və məclisi bir qondarma hədis

gətirərək (انمـا یعـرف القـرآن مـن خوطـب بـه : yalnız o kəslərki quranın muxatəblridi onu tanıyarlar; usul kafi 8/485, 8/312, bəharulənvar 46/350, feyz kaşani 1/20), beylə bir imac yaratmaq istəyir quya quran`ı xas əfrad düşünəbilir və umum xalq, gərək bu xəvasın sözlərinə və yorumlarına baxalar, ona tay Ayətullah xomeynidə deyir: «biz öz düşüncəmizlə quran`ı yorumlayabilmərik və yalnız vəhy və vəhy`ə bağlı quvvələr vasitəsiylə onu alqılayabilərik».[1] Aydındı ki fars şiəliyi bu tür yaxlaşımlarla diktatorluqların xalqa təhmil etmək istəyirlər və nəhayət mali çıxar əldə etmək peşindədilər, və tələş edirlər quran`ın insani dəyərlərini xalqdan gizlin saxlasınlar.

Quran`ın anlaşılabilirliyi və düşünəbilirliyi nə mənadadır

quran`ın anlaşılabilirliyi və düşünəbilirliyi haqda və onun sadələşdirilmiş şəkildə yendiyi və hərkəs tərəfindən öyrəniləbilir olması haqda bir nüktəyə işarə etmək gərəyir:

bu haqda bir misal verərsək daha aydın olur, örnək üçün ingiliscə vəya ərəbcə vəya hər ayrı bir dilin öyrəniləbilməsi üçün iki söyləntini vermək olar.

1-ingiliscəni xas insanlar öyrənəbilir və bu iş yalnız özəl bağlantılarla mümkündür.

2- ingiliscəni hər kəs oxuyub düşünə bilir.

Aydındırki ilk söylənti yanlış bir sözdür və ağıl gərəyicə heç kəs bunu qəbul etməz.

İkinci söylənti hamıca qəbul görünməkdədir, ama bu mövzua açıqlıq gətirmək lazimdir.

Hər bir insan istəsə və iradə etsə ingiliscəni öyrənəbilir ama beylə deyilki ilk anda bunu öyrənəcək, və lazimdir əmək sərf edə, zaman qoya və onu öyrənə, və hər nəqədər çox zaman qoyarsa daha çox öyrənəbilir və hətta bu işdə yüksək dərcədə uzmanda olabilir.

---

[1] -امام خمینی(س) در یک جا می گوید: ما به رأي خودمان نمي توانيم قرآن را تأويل كنيم. ما بايد: «انما يعرف القرآن من خوطب به» (حر عاملي، ج 27، ص ١٨٥، ح ٣٣٥٥٦) ما از طريق وحي و از طريق وابستگان به وحي قرآن را اخذ كنيم و بحمد الله از آن راه هم غني هستيم. (صحيفه امام، ج١٨، ص ٤٢٣).

Quran`ın düşünüləbilirliyi məsələsidə eynən beylədir, yəni hər kəs onu düşünəbilir ama bunun mənası o deyilki ilk anda bu işi görəbilir, bəlkə zəhmət çəkərsə və vaxt qoyarsa onu öyrənəcək və daha çox əmək sərf edərsə uzman kimi də düşünəbilir və öyrədəbilir, nəhayi sözü desk, allah təala quran`ı eylə bir uslubda yullayıbdı hər insanın gücü və ağlı qapsamında olaraq onu düşünəbilir və onda gizlin bir anlam yoxdur və onu düşünməyədə heç cürəsinə vəhy`ə, vəhm və xiyala vəya cadıçılığa ehtiyac yoxdur, yetərki insan iradə etsin və əmək sərf etsin.

Bu haqda bir məsələyədə deyink lazimdir, bir sıra ayələrdə, quran`ın çətin və qarmaşıq olduğuna (bəziləricə) işarə edir və buyurur onlar bu cür mövzuları düşünəməzlər, və bir iddə quran qarşıtı şəxslər, bucür ayələri yuxarıda söylənən ayələrə tərs olaraq görürlər, və quran da olan ayələri birbirlərinə mütənaqiz görürlər, bu haqda diqqət olunmalıdır, quran bu sözləri o adamların haqqında deyibdirki ğərəzli olaraq quran`da olan mütəşabihat`dan yararlanaraq onları özlərinin istədiyi kimi yorumlayırlar və sonrada mütənaqiz yorumları qabardaraq quran ayələrini birbirlərinə zid göstərirlər.

Mütəşabihat termini, neçə mənalı kələmələr üçün söylənilir, quran`da bucür kəlmələr işləndiyində gərək öncəki və sonrakı ayələri və hətta bəzən quran`ın bütünlükdə olan yorumunu ələ alaraq onları mənalayaq, məsələn 26/ 171 və 7/ 83 ayələrində, lut qovmunun qurtarmasından danışarkən, birində piğəmbərin qadınından və o biri ayə də bir qoca arvad dan danışır və buyurur bunlardan başqa qalanını nəcat verdik, ğərəzli quran qarşıtları, bucür ayələri birbirlərinə mütənaqiz bilərlər, halbuki düzgün baxılırsa o qadınlar ikisidə bir şəxsdi yalnız hər ayə də muxtəlif özəlliklərlə tanıdılıbdır.

Yenə də quran qarşıtı şəxslər, quran da olan cəbr haqqında olan ayələri və ya ixtiyar haqqında olan ayələri birbirlərinə qarşıt bilərlər, halbuki onlar fəlsəfi lahazdan bu iki məfhumu qarışdırırlar və quran

da, onların sınırları haqda bəlli sözlər vardır ama ğərəzli kəsimlər istəyirlər yaşayişi, ya cəbər və ya ixtiyar olaraq göstərələr, halbuki tanrı, evrim və təkamul lahazından cəbri bir yolda, bəlli ixityarlarla insani (və hətta çoxlu movcudatı) yaradıb və yola salıbdır.

10-6-məkki -mədəni elmi və tarixsəlcilik

quran elm`lərinin ən önəmlilərindən biri ayətlərin nuzulunu və cəhətlərini, məkkə devrinin başında, ortasında, sonunda nazil olanları; eyni şəkildə mədinə devrində nazıl olanların nə zaman nazil olduqlarını bilməkdir.

Məkki surələrdəki ayətlər daha qısa və özlü, və işlənilən ifadələr daha şiddətli və duyquludur. Buna muqabil mədəni ayətlərdə isə muxatəblər gənəlliklə inanan insanlardan oluşduğu üçün ifadələrdə huquq dilinə daha uyqun və uzun cümlələrlə, daha ayrıntılı bir anlatıma baş vurulmuşdur.

Aydındırki h. Peyğəmbər məkkədə olarkən və hənuz bir əgəmənlik ortaya çıxmayaraq, huquqi ayələrə ehtiyac olmayaraq, mədinədə bir hökümət qurulur və insanları və toplumu yönləndirməyə huquqi məsailə ehtiyac duyulur, quran araşdırmacıları məkki mədəni ayələri və onların zamanla ilgili olduğunu, tarixsəlcilik üçün bir dəlil kimi alqılayırlar.

10-7-nuzul səbəbləri və tarixsəlcilik

fəlsəfi olaraq səbəb sözcüyü «gərçək nədən (illət), bir şeyi etkiləyən, oluşduran, doğuran; gərçək etkilərə və dəyişmələrə yol açan» anlamlarına gəlir. Quran ayələrinin nuzul səbəbləri, tarixsəlcilik bilim dalında, tartışılan önəmli mövzulardan biri sayılmaqdadır.

Bir sıra bilginlər «nuzul səbəblərini» əsl tutaraq, islamın ilk çağında üz verən hadisələri quran`ın nuzulunda etkin bilirlər və bu üzdəndə quran`ı o dönəmlə ilgilnədirirlər. Beyləki fəlsəfi anlamından hərəkətlə Bəzi tarixsəlcı düşüncəyə sahib aydınlar, ayətlərin yenişi əsnasında meydana gələn olayları və sorulan soruları, o ayətlərin yenişini gərəkdirən zorunlu bir səbəb, o ayətləri doğuran gərçək

nədən olaraq görürlər. Yəni olaylar olmasaydı və ya o sorular sorulmasaydı o ayətlər bugün əlimizdə olmayacaqdı.

Məsələn h. Peyğəmbər dönəmində insanlar, Peyğəmbərimizə yetimlər haqqında, (bəqərə 2/ 220) qadınların özəl durumu, (bəqərə 2/ 222), həram aylardan, (bəqərə 2/ 217), ruh (əsra 17/ 85) və digər konularda sorular sormuşlar, uca allah da bu sorulara cəvab vermişdir. Bəzi araşdırmacılar buradan hərəkətlə quran`ın tarix üstü bir mətin olmayıb tarixsəl bir mətin olduğu sonucuna ulaşılmaqdadır.
Bunlara yanıt olaraq bildirilməlidir, quran ayələrinə, nuzul səbəbləri açısından baxdığımızda onun bir qisim ayətləri özəl bir səbəbə bağlı olaraq yenərkən, digər bir qisminin da hərhansı özəl bir səbəbə bağlı olmadan doğrudan yendiyini görməkdəyiz. Bu durum, qaynaqlarımızda özəl nuzul səbəbi və gənəl nuzul səbəbi olaraq adlandırılmaqdadır. Nuzul səbəbləri tərkibindəki «səbəb» sözcüyünü fəlsəfi anlamda anlamaq doğru deyildir. Yəni əsbab-i nuzul, əsbab-i vucud deyildir.
Bəzi araşdırmacılar bu mövzunu önə sürürlər: quran nəss`lərinin, nuzul səbəblərinə bağlanması; və əhkama dair ayətlərin nuzul olaylarıyla ilişgiləndirilməsini, nəss`ləri olquların bir ürünü, olquya tabe, olquyla illətlənmiş, varlığı və yoxluğu olquyla doğrudan ilgili qılan anlayışın, marksist maddəci bir yöntəm olmalıdır. Ayrı tərəfdən Bəzi quran ayələrinin, bir illətə və nədənə bağlanmadan nuzulu, onun tanrısal bir kitab olduğunu ortaya qoymaqdadır, və nəhayətən bu nədənlərlə quran`ın, luh-i məhfuz olduğu önə sürülür.
Quran-i kərim, Peyğəmbəri, çağının etgisi altında qalmasına qarşı uyarır (bəqərə 2/ 120), və ayrı yerdə, hökümlərin özgür və müstəqilliliyinə təkid edir və təslimiyəti, fəsad kimi bildirir «mömünün /71 : وَلَوِ اتَّبَعَ الْحَقُّ أَهْوَاءَهُمْ لَفَسَدَتِ السَّمَاوَاتُ وَالْأَرْضُ وَمَن فِيهِنَّ بَلْ أَتَيْنَاهُم بِذِكْرِهِمْ فَهُمْ عَن ذِكْرِهِم مُّعْرِضُونَ : əgər haq onların arzularına uysaydı, göylər iylə yer və onlarda olanlar, əlbətdə ki pozulub gedərdi, xeyir, biz onlara şərflərini (quran`ı) gətirdik, onlar isə ona üz çevirdilər».

Ayrıca quran özündən «həq» və laribə fih (لاريبَ فيه : şəkəsiz və yalansız) «bəqərə 2/ 2: ذَلِكَ الْكِتَابُ لا رَيْبَ فِيهِ هُدًى لِّلْمُتَّقِينَ : bu kitab da quşqu olmayaraq təqva sahibləri üçün yol göstəricidi», «nəcm 53/ 3 : وَمَا يَنطِقُ عن الْهَوَى: o özündən (havadan) qonuşmur» şəklində ad aparır.

10-8-məqasid, məsləhət və tarixsəlcilik

tarixsəlcilik tartışmalarında məqasid və məsləhət konusu yer-yer gündəmə gəlməkdədir.

Qurandakı Bəzi əhkam ayətlərinin yorumlanmasında ləfzı/literal anlamla yetinilməyib bu hökümlərdə əsil olanın «ğayə» olduğu vurqulanmaqda, dolayisyila bu ğayəni gərçəkələşdirəcək fərqli formların bənimsənə biləcəyi və əhkamın dəyişəbiləcəyi iləri sürülməkdədir.

Quran ayələrinin özəlliklə əhkamla ilgili olan ayələrin bəlli bir məqsədləri vardır, və ona ğayə deyilir və bu hökmləri uyqulamaqdan ğayəyə yetişməkdi, ğayəyə yetişmək üçün hər millətiın özəl durumunu göz önünə alarsaq, hökmün uyqulaması özəl məsləhətə bağlanmalıdır, əlbətdəki bu məsləhətləri alqılamaq üçün islamın bir bütün olaraq ələ alınıb bu bütünlük içində dəyərləndirilməsi lazimdir, bir konuyla ilgili, lazimdir, bütün nəsslər ortaya qoyulub, istiqra(tüməvarım) yöntəmiylə, külli bir əsl və əsllər bəlirlənib və cüzi (tikəl) nəss`lərdə, bu kolli əsas çərçivəsində dəyərləndirilsin və uyqulansın.

Ayrıca, qurany anlamaq istəyən kimsə ona mütləqən ərəb dili açısından yaxlaşmaq zorundadır, başqa yollardan yaxlaşaraq onu anlamağa çalışmaq imkanı yoxdur.

Adətlərin fərqlilik göstərməsiylə hökümlərin də fərqlilik göstərməsi doğaldır, hər adət fərqlilik ərz etdiyi zaman yeni bir şəri əslə dönər və bu kəz onun hökmünü alır. Məsələn ərgənlik konusunda olduğu kimi, kişi, ərgənlik çağına ulaşdığı zaman üzərinə yükümlülük minər. Ərgənlik çağından öncə yükümlülüyün olmaması, ərgənlik sonrada yükümlülüyün olmaması mənasında deyildir.

Digər örnəklərdə də durum eynidir. Hökümlər hər zaman üçün sabitdir və onlar motləq surətdə səbəbəlrinə tabədirlər; səbəb bulununca hökümlər də bolunur, bu üzdəndə ilkcə səbəblər tanınmalı və qurandan alıqılanan qayda qanunlar çərçivəsidə düzgün hökümlər bulunmalıdır.

- H. ömər`in Bəzi uyqulamaları və tarixsəlcilik

-fəth edilən topraqların vəziyəti : h. Peyğəmbər cənablarıda, öz devrində fəth edilən topraqları bəzən ğazi`lərə dağıtmış, bəzən dağıtmamışdır. Yəni məsləhət nəyi gərəkdirirsə öylə yapmışdır. H. ömər`in uyqulamaları da bu doğrultuda gərçəkləşmişdir. H. ömər, hamının məsləhətini diqqətə alaraq fəth ediln topraqları xərac qarşılığında sahiblərinin əlində buraxılmasına hökm etmişdir.

Əraq topraqları konusunda h. ömər: «o mallar, içinizdən yalnız zənginlər arasında dönüb dolaşan bir güc/sərvət olmasın» diyə «allah beylə hökm etmişdir.» (Həşr 59/ 7) ayətindən hərəkətlə topraqları dağıtması halında bunun zənginlər arasında dönüb dolaşan bir güc/sərvət olacağını və «onlardan sonra gələnlər» (həşr 59/ 7) ayətinin özlərinə haq tanıdığı sonrakılara da bir şey qalmayacağını düşünərək topraqları xəraca bağlayıb əski sahiblərində buraxdı və bütün müsəlmanlar üçün bir irad qeyd etdi. Səhabə də buna muvafiqət etdi.

Yəni h. ömər bir ayətin hökmünü uyqulamazkən başqa ayətlərin hökmünü uyqulamaqdadır.

Bu uyqulamasında h. ömər`in məsləhətə görə hərəkət etdiyini inkar etmək mümkün deyildir.

Bu topraqlar əgər savaşa qatılanlara dağıdılsaydı topraq ağaları ortaya çıxacaq, əhalinin kölelik vəziyəti nəsildən nəsilə dəvam edəcək, daha sonra gələnlərə bir şey qalmayacaq, qısaca sosiyal ədalət, ekonomik dəngələr və güvənliyin təmini açısından şiddətli bir sıxıntı meydana gələcəkdi. Bütün bunlar nəss`lə çatışan bir məsləhət durumunu yansıdan xususlar deyildir. Dövlət başqanı

çeşidli alternativlər içində toplumun yararına alabiləcək ən uyqun çözümü bulmaq üçün təsərrüf də bolunmuşdur.
-Bu bağlamda məqasid və məsləhət məsələsiylə ilgili olaraq, movcud irs qanunları sonucu indiki çağda əkin yerlərinin parçaparça olmasıdır, bu vəziyət, teknoloji açısından geriləməyə səbəb olur, və yeni teknolojilərin kullanma imkanını azaldaraq onların əl iylə və balaca vəsilələrlə işlənilməsinə nədən olur, bu üzdən islami irs məsələsinidə əkin yerlərinin bir bütün halında satılması vəya təavuni şəklində kullanılmasının ön görülməsi və əkin yerinin bölüşməsi əvəzinə, onun dəyəri ayrı şəkillərdə, irsə bağlanması, tarixsəlcilik və hermenütik baxışla çözülməlidir.

10-9-quran`da tarixsəlliyə örnək göstərilən mövzualar

biz bu bölümdə, tarixsəllik tartışmalarında ən çox gündəmə gətiriln Bəzi ayətləri ələ alaraq bunların tarixsəl bir yönünün olub olmadığını, əgər varsa hansı cəhətdən tarixsəl vəya evrənsəl bir boyuta sahib olduqlarını təsbit edib və bu konulardakı fərqli görüş və düşüncələri tartışmağa çalışacağız.

10-10-köləlik

köləlik islam öncəsi dönəmdə həmən həmən dünyanın hər tərfində olduğu kimi ərəb yarım adasında da movcud toplumsal bir hadisəydi.
Ölkədən ölkəyə fərqlilik ərz etməklə bərabər ərəblərdə də savaş, adam öldürmə və zına kimi ağır suçlar, borçluluq, babanın çocuqlarını satması kimi səbəblərlə insanlar kölələşdirilirdi. Quran-y kərim, kölələrə qarşı, iyi davranmağı,onlara ihsanda bulunmağı tövsiyə etdi. Cahiliyə dönəmində olduğu kimi cariələrin fuhşa zorlanmamasını və bunun kəsinliklə həram olduğunu, (nur 24/ 33) bildirdi. Kölə və cariələri evləndirməyə təşviq etdi. (Nur 24/ 32)
quran, iman edincəyə qədər müşrik qadınlarla evlənməməyi, hətta müşrik qadınlar gözəl olsa bilə, müsəlmanlara mömünə cariələrlə evlənməyi əmr etməkdə, mömün bir kölənin müşrik bir kişidən daha

iyi olduğunu xəbər verməkdədir. (Bəqərə 2/ 222) yinə quran, yəmin, zihar və qəsdən oruç pozma suçlarına kəfarət olaraq kölə azadlığını önərməkdə (nisa 4/ 92; maidə 5/ 89, mücadilə 58/ 3), zəkat`ın sərf etmə yerlərindən biri olaraq kölələri saymaqdadır. Quran kölə azadlığını təlqin edir və h. Peyğəmbərin kölələri hürriyətinə qavuşdurmağa dair təşviqləri islamın köləliyi qaldırmağı hədəflədiyini göstərir.

Köləliyin hər türlü qaynağını qurudan islam, sadəcə savaş əsirliyi iylə onu sınırlandırmışdır. Günümüz dövlətlər huququnda əsir kamplarının qarşılığı, islam huququnda köləlikdir. Bugünun dövlətlər huququna görə, iki tərəf anlaşma yapıncaya qədər, savaş əsirləri, əsir kamplarında tutulur və hər türlü insani haqdan məhrum buraxılırlar.

Yapılan anlaşma sonucunda isə, təqəbbuliyət əsasına görə əsirlər ya dəyişilir ya da bəlli bir mənfəət qarşılığında vəya qarşılıqsız buraxılırlar.

İslam huququ da eyni şeyləri öngörməkdədir. Dövlət başqanı əsirləri dəyişdirmə, qarşılıqsız, vəya hərhansı bir mal vəya əsir qarşılığı sərəbəst buraxma vəya onları kölə vəziyətine qoyma seçənəklərindən birini tərcih etmə haqqına sahibdir.

Köləlik konusunun tarixsəllik tartışmalarında gündəmə gəlməsinin səbəbi, Bəzi suçlara kəffarə olaraq quran`ın kölə azadlığını öngörən hökümlərinin, bugün nəcür uyqulanacağı və anlaşılacağı məsələsidir.

Az öncə də bəlirtdiyimiz kimi Bəzi suçlara qarşı kölə azadı əmər edilmişdir.

İlgili ayətlərə baxdığımızda kölə azadlığı, yəganə kəffarə olmayıb alternativlərdən birisi olaraq zikr edildiyini görməkdəyiz.

üstəlik kölə azadlığı, zikər edildikdən sonra «maidə 5/ 89: فَمَن لَّمْ يَجِدْ fəmən ləm yəced : bulamazsa (tapabilməsə)» ifadəsi gəlməkdədir. Bu ifadəni, müfəssirlər, həm maddi olaraq kölə azad etmə

imkanından məhrum olma; həm də azad edəcək kölə bulamama şəklində yorumlamışlardır.
M. Rəşid riza, `ləm yəcid` feel`inin məfulunun həzf edilməsi, `bulamama` ifadəsinin hər iki anlama da gəlməsinə müsaid bir halə gətirdiyini söylər. Ancaq o, quran`ın `bulamazsa` ifadəsini işlətmək sürətiylə, sanki köləliyin ortadan qalxacağını öncədən xəbər verdiyini bəlirtir.
Bu qənaət daha isabətli olaraq. Ancaq bu ayətlər, köləliyin mövcud olduğu tarixsəl və toplumsal şərtlərdə düşünüldüyündə bulamazsa ifadəsinin həm maddi güc həm də kölə bulamamaq anlamlarının hər ikisini də qapsadığı şəklində anlaşılmasının daha doğru olacağını göstərir. Bizə görə, uca allah`ın beylə bir ifadəni seçməsi, ilahi kəlamın uslub açısından eecazını göstərən önəmli bir ünsürdür.
Kölə azad etmə hökmü bulunmaqda, ancaq kölə bulunmamaqdadır. Dolayısyıla bu höküm, özlüyündən qalxmaqdadır. Ama, savaş əsirliyi kimi bir səbəblə köləlik tikrar gündəmə gəldiyində eyni höküm yinə yürürlüyə girəbilir.

10-11-qadınla ilgili xususlar

Yüzillər boyunca qədim mədəniyətlərdə və toplumlardakı insanlar, qadının dəyəri və toplumsal movqeiyəti haqda fərqli düşüncələrə sahib olmuşlardır.
Ancaq bu bir həqiqətdirki çoğu zaman qadın xorlanmış və zülüm görmüşdür. Bütün səmavi dinlərdə qadın konusu önəmli bir yer tutmaqdadır.
Qadının mirasda heç bir haqqı olmadığı kimi əgər bir qadının əri (xocası) ölürsə, digər mallarıyla bərabər o qadın da bir məta kimi ən yaxın varisə intiqal tapardı.
Hər şeydən öncə quran, insan olması baxımından qadını ərkəklə eşit bir varlıq olaraq görür. Uca allah insani, qadın ərkək diyə hərhansı bir fərq qoymadan digər varlıqlardan üstün qıldığını bəyan edər. Quran`a görə insan olaraq üstün yaratılma açısından qadın-ərkək, rəng, ırq və bölgə fərqliliyi nəzərə almadan, bütün insanlar eşitdir.

Yenə quran`i həqiqətə görə, insanlar arasındakı fərqlilik, təqvaya yəni qulluq bilincinin üstünlüyünə bağlıdır.(Hocurat 49/ 13), quran çoğu kəz fəzilət və təqva sahiblərindən bəhs edərkən ərkək və qadınları ayrı ayrı zikr edər(əhzab 33/ 15). Quran`ın qadınlar haqqında gətirdiyi Bəzi hökümlər müdern dönəmdə tarixsəllik tartışmalarında önə çıxmaqdadır.
Bir sıra araşdırmacılara görə, quran`ın digər konularda olduğu kimi, qadın konusunda da gətirdiyi hökümlərin nazil olduğu dönəmin, ərəb toplumuna özgü(məxsus) hökümlər olduğu, bugünkü müdern toplumlarda uyqulanmasının mümkün olmadığı iddia edilmişdir. Aşağıda bu haqda tartışılma konusu olan Bəzi mövzulara işarə olunur.

10-12-çox eşlilik

quran`ın tarixsəl bir mətin olduğunu və ona tarixsəlci bir yöntəmlə yaxlaşılması gərəkdiyini bəlirtən fəzl ur-rəhman çox eşlilik konusunda bu iddialarda bolunur: quran`ın islahata yönəlik ən önəmli addımları qadınlar və köləlik konusunda olmuşdur. Çox eşlilik, öksüz qızların müxtəlif səbəblərlə vucuda gələn bir ortamında, ortaya çıxmışdır; ama gələnəksəl anlayışda bu ayət, yetim qızlar bağlamından çıxarılaraq umumi- ləşdirilmişdir. Fəzl ur-rəhman`a görə: dörd eşə qədər evlənmə izninin qanunlaşması nə mətinlə, nə də quran`ın ruhuyla uyuşur. Çox eşliliklə ilgili ayətlərin bir bütünlük içində dəyərləndirildiyində, bu yasa fiilən yasaqlanmalıdır.
Çox eşlilik ilk dəfə islam iylə ortaya çıxmış olmayıb, çin, hind, fars, misir, yunan və ruma kimi qədim millətlərdə də var olan səmavi dinlərdən yəhudilikdə də qəbul edilən, cahiliyə dönəmi ərəblərində də yayqın olduğu bilinən toplumsal bir vaqiədir.
Bu olqu quran`da da yetimlərə nəcür davranılması gərəkdiyini ifadə edən ayətlər bağlamında dilə gətirilmişdir.(Nisa, ayə 2-3) çox eşlilikdən bəhs edən ayətə mətinsəl bütünlük içində baxdığımızda

burada, öncəliklə yetimlərin huqqunun düzənləndiyini, sonra da qadınlara qarşı ədalətli olmanın vurqulandığını görməkdəyiz.
Gərçəkdən haqsızlığın və ədalətsizliyin yayqınlaşdığı toplumlarda bundan ən çox zərəri yetimlər və qadınlar görür. Çünkü bu kəsimlər, özlərinə yönələn ekonomik və toplumsal basqılara və zülümlərə çoğu kərə qarşı qoyabiləcək güc və imkanlara sahib olmadıqları kimi, fiziki olaraq da bunlara dirənəcək dunanımda deyildirlər.
İşdə beylə ortamlarda və toplumlarda insanların imdadına din yetişməkdə (məcusi dini xaric) və əzilən, haqsızlığa məruz qalan insanlara ən böyük yardımı və dəstəyi sağlamaqdadır.(Ənam 6/ 152, əsra 17/ 34). Klasik təfsirlərdə çox eşliliklə ilgili nisa surəsinin 3. Ayətinin təfsiri bağlamında yapılan yorumlarda ədalət şərti gərçəkləşdiyi təqdirdə çox eşliliyin mubah olduğu bəlirtilmişdir. Bu yorumlarda müfəssirlərin tartışdığı Məsələ bir ərkəgin eyni anda nikahı altında olabiləcəyi eşin ən üst sayısının neçə olacağıdır.
Müfəssirlərin əksəriyəti ən üst sayının dörddən fazla olamayacağını bəlirtirkən bəzisi, ayətin dilsəl yapısından və h. Peyğəmbərin dörddən çox eşi olmasından hərəkət edərək bu sayının dördlə də sınırlı olmayacağını demişlər. Qortəbi, neçə eşlə evləniləcəyi konusunda ayətin hərhansı bir sınırlama gətirmədiyini iləri sürən kimsələrin, rafizilər və zahirilərin Bəziləri olduqlarını, bu görüş sahiblərinin ərəb dilini və sünnəti bilmədiklərini, eyni zamanda ümmətin icmaına da muxalifət etdiklərini bəlirtir.Qortəbi, h. Peyğəmbər`in dörddən çox eşi olmasının, ona aid özəl bir durum olduğunu bəlirtir (əlbətdə məcusilər Yalnız ərəbcəni düşünməmək məsələsəndən dolayı yox, bəlkə atababa gələnəklərindən dolayı quran ayələrini təhrif etməyə çalışırlar və həm quranı çürütmək peşindədilər və gələnəklərinə uyaraq özlərinə iqtidar qazanmaq və cinsi yararlar əldə etmək dalısıcadılar).
Nisa surəsinin 3. Ayətində deyilir «əgər yetim qızlar haqqında adil davranmaqdan qorxarsanız sizə həlal olan (başqa) qadınlardan ikişər, uçər, dördər alın. Onlar arasında da ədaləti sağlayamamaqdan

qorxarsanız bir dana alın; yaxod əllərinizin altında bolunan cariyələrlə yetinin..» eyni surənin 129. Ayəti: «Nə qədər istəsəniz də qadınlar arasında ədaləti təmin edəməzsiniz..», Bu ayəti mütaliə edərək, ilk ayətdə ədaləti sağlama şərtiylə çox eşliliyin həlal qılındığını, sonrakı ayətdə isə ədaləti təminin mümkün olmadığı bəlirtilərək iki ayət arasında bir çəlişki/müşkül olduğu bəlirtilərək quran`ın açıqça çox eşliliyi rəd etdiyi şəklində bir sonuca ulaşılmaqdadır. Quran, allah qatından bir kitab olduğu üçün hər türlü çəlişkidən uzaqdır.(Nisa 4/ 82) nisa surəsinin 3. Ayətini siyaqıyla bərabər dəyərləndirdiyimizdə bu ayətdəki ədalət şərtinin, qadınlara kəbinlərinin ödənməsi kimi zahiri haqlarla ilgili olduğu görülməkdədir.

Buna görə uca allah`ın `asla ədaləti sağlayamazsınız` dediyi konu, kişilərin eşlərinə qarşı duyduqları sevgi və eşq iylə ilgilidır.Bu da insan fitrətinə son dərəcə uyqundur.

Toplumsal zorunluluqlar arasında isə savaş və başqa nədənlərlə qadın nufusun artması çox eşliliyi gərəkdirən durumlar arasında görülmüşdür. Bu və bənzər durumlar insanlarla bərabər var olacağından çox eşlilik də dinin verdiyi bir rüxsət olaraq varlığını sürdürəcəkdir. Dolayısıyla çox eşlilik quran`ın verdiyi dönəmsəl bir cəvaz deyildir. Modern dünyanın gənəl qəbullərinə və qadın haqlarına hayqırı diyə çox eşliliyin islamda olmadığını iddia etmək pək doğru görünməməkdədir.

Çox eşlilik haqqında bir Məsələ də bir kişinin ikinci bir qadınla evlənməsində şərt olaraq ilk qadının izin verməsidir bu izin, zorlamadan və özgürcə izin vermə mənasını daşıyır, çünki birinin tikrar evlənməsi, quran ayəti əsasında yalnız o şəxsin, qadınları arasında ədaləti sağlama şərtiylə mümkündür, mütməinən bu haqda ədalet məsələsi yalnız qadın tərəfindən söylənəbilir, çünki ədalətin sağlanmasını yalnız o söyləyəbilir və liza qadının izni olmadan ikinci nikah quran`a hayqırıdır.

10-13- qadının mirasdakı hissəsi

quran`ı kərim, höküm qoyarkən tədricən rüayət, insan fitrətinə uyqunluq, məsləhəti təmin, insanlar arasında ayrıcalıq gözətməmə kimi təməl prensipləri daima göz önünə almışdır. Quran buyurur «tanrı miras paylarının bölüşdürməsini bizzat özü üstləndi». Bu haqda Bəzi konulara işarə olunur.

Tarixsəlcilik tartışmalarında tarixsəl olduğu ifadə edilən nisa surəsi 11. Ayətindəki sadəcə «allah sizə, çocuqlarınız haqqında ərkəyə qadının payının iki misli (miras vermənizi) tövsiyə edər..» Hökmüylə ilgili müfəssirlərin yapdıqları yorumları zikr edərək bugün bu ayətlərin nəcür anlaşılacağı çərçivəsində Bəzi dəyərləndirmələr yapacağız.

Bu quran`ı höküm, Bəzi müsəlmanlar tərəfindən islamın qadına ərkəyin yarısı qədər dəyər verdiyi şəklində alqılanmaqda; insanlar arasında eşitlik və ədaləti təmin üçün var olan islamın bu hökmünün eşitliyə hayqırı olduğu gərəkçəsiylə modern dünyada tətbiqinin və izahının imkansız olduğu iddia edilməkdədir.

Qadının mirasıyla ilgili bu quran`ı hökmə, ağılcı və tarixsəlci bir tərzdə yaxlaşılmasını önərən nasir hamid əbu zeyd, bu düşüncəsini beylə ortaya qoyar: quran`ın islam öncəsi dönəm şərtləri altında mirasda, qadına ərkəyin payının yarısını verməsi, ilərıyə doğru atılmış bir adımdı. Çünkü o dönəmdə ona heç bir haq verilməməkdəydi. Əgər tarixin bəlirlədiyi bu hökmün məqsədi bugün diqqətə alınacaq olursa, qadın və ərkəyin huquq qarşısında tam bir eşitlik içində olması gərəkir.

Buxarı bir hədisdə, h. ömər`in bu sözəlrinə yer verir: «vallahi cahiliyə dönəmində biz, qadınlara, allah onlar haqqındakı ayəti yendirincəyə və onlarla ilgili paylaşmanı yapıncaya qədər heç bir şey verməzdik.»

Muhəmməd imara, miras oranlarının bəlirlənməsinin cinsiyətə görə olmayıb, bu xususda üç halət olduğunu zikr edər.

Birincisı, murisə olan yaxınlıq. Varisin murisə yaxınlığı oranında alacağı hissə artar.
İkincisisi, varisin nəsil/quşaq silsiləsindəki kunumu. Eyni nəsil varislərdən kiçik olana böyüklərdən daha fazla hissə düşər. Çünkü kiçik olan, gələcək bir həyatla qarşı qarşıya və onun önündə böyüyən bir sorumluluk alanı var. İkisi də ərkək olmasına rəğmən murisin oğlu, babasından daha çox hissə alır. Hər ikisi də qadın olmasına rəğmən, murisin qızı onun anasından daha çox hissə alır. Varis yalnız qız olursa irsin tamamı onlar arasında eşit halda bölünür.
Üçüncüsü, varisin ölənin ərkək və qız çocuqları üzərinə düşündüyümüzdə, hər ikisi də ölüyə yaxınlıq açısından və quşaq açısından durumları eynidir, ama ailədəki malı yükü yüklənmədəki sorumluluqları açısından fərqlidir.
İşdə bu üçüncü halətdəki fərqlilik səbəbiylə ərkək qadından daha çox hissəyə sahibdir. Bu mövzunu bir az daha açarsaq, hər şeydən öncə islama görə ərkək, həm özünün həm də eşinin geçimini sağlamaq zorundadır. Bunun yanında çocuqlarını, anasını, babasını geçindirmək də ərkəyə düşər. Qadın isə ərinə baxmaq zorunda deyildir. Gənəlliklə qadına başqaları tərəfindən baxılır, qadın himayə görür, ərkək isə himayə edən durumundadır. Əgər qadının qazancı varsa bunu özünə xərclər. Yinə evlilik əsnasında ərkək, qadına mehriyə vermək zorundadır.
Evlılikdə qadın üçün zorunlu hərhansı bir məsrəf də söz konusu deyildir. Qadın boşandığında iddət sürəsincə onun geçimi və digər məsrəfləri də boşayan kişiyə aiddir. Bu kunudakı quran`i əmirlər beylədir: `boşanmış qadınların, iyiliklə faydalandırılmaq haqlarıdır. Bu, müttəqilər üçün bir vəzifədir.`(bəqərə 2/ 241-236)
işdə, islamın ərkəyə yüklədiyi mali yükümlülük və kişinin ailə içindəki sorumluluqları bütünlüyündə miras məsələsi dəyərləndirildiyində, ərkəyə qadından fazla miras verilməsinin ədalətsizlik deyil, həqqaniyət olduğu anlaşılır.

Günümüz toplumlarında gənəlliklə, qadın da ərkəklə bərabər çalışmaqda, ailənin geçimi və çocuqların baxımı üçün gərəkli nəfəqə müştərəkən qazanılmaqdadır. Yəni qadın, ərkəyin yükləndiyi mali yükün eynisini yüklənməkdə, çalışma həyatının hər alanında yer almaqdadır. Bir baxıma günümüz qadınının toplumdakı rulu, quran`ın nazil olduğu zamankı qadın rolundan olduqca fərqlilşmişdir. Dolayısıyla beylə bir ortamda da qadının miras hissəsi ərkəyin yarısı qədər mi olacaqdır? Qadının miras hissəsinə geçmədən öncə islamın sosiyal həyatda qadına nəcür baxdığına qısaca deyinməkdə fayda var.

Quran-i kərim iyiliyi əmr etmə, kötülükdən saqındırma, konusunda qadın ərkək ayrımı yapmaqsızın hərkəsin eşit dərəcədə sorumlu olduğunu bəlirtir. (Hac 22/ 41, al imran 3/ 3,104-110),

önəmli huquqçulardan xeyrərddin karaman, qadının kamu görəvini konu alan bir məqaləsində, qadının hakimlik görəvini üstlənməsinə dini qaynaqların bir əngəl təşkil etmədiyini bəlirtir.

Ayrıca karaman quran nəss`ləri (tövbə 9/ 71, nəml 27/ 22-44) və Bəzi ilk dönəm uyqulamalarını dəlil göstərərək qadının dövlət başqanlığı görəvini də üstlənəbiləcəyini ifadə edər.

Karaman`a görə qadının kamu görəvini üstlənmə konusunda qaynaqlarda yer alan fərqli görüş və tartışmalar, bağlayıcı, qısıtlayıcı nəss`lərdən çox ürf, adət və ehtiyaca, başqa bir ifadə iylə zamanın sosiyal, kültürəl və ekonomik şərtlərinə bağlıdır.

Məqaləsinin sonuc qısmında karaman, islam`da qadının, gərəkdiyində kamu görəvi yapmasını yasaqlayan açıq, kəsin, bağlayıcı bir nəss olmadığını, əksinə bu qapını aralayan dəlillər bulunduğunu qeyd edər.

İslam alimləri, ailənin geçimi xususunda qadının çalışaraq ərinə yardımcı olmasının caizliyində ittifaq olduğunu bəlirtirlər. Ancaq ailənin geçiminə qadının qatqıda bulunması zorunluluq deyil, ixtiyari bir durumdur. Ehtiyac və zərurət hallarında rolların dəyişməsinə bir əngəl də yoxdur.

Qadına ərkəyin yükləndiyi mali yükümlülüyün eynisini yüklənməyi, zorunlu qılan çoxlu modern huquq, buna dayanaraq onların miras paylarını da eşit görməkdədir.
İslam isə qadın iylə ərkək arasında iş bölümü öngörməkdə onların fizyolojik durumlarını da göz önündə bulunduraraq fərqli rollar verməkdə, hər birinin bu yükümlülüyünə görə haqqı fərqlilik ərz etməkdədir. Bu baxımdan islamın, ərkəklə qadının miras paylarını fərqli təyini adil və huquqa uyqun bir paylaşımdır.
Əgər islam, qadını da ərkək kimi ailənin geçimi və digər xarcamaları konusunda eşit bir səviyədə tutsaydı, möhtəmiələn miras da ona görə bulunurdu.
İslamın qadına heç bir miras haqqı verilməyən bir toplumda yarı da olsa ona bir haq verərək iyiləşdirmə süreci başlatdığı, bunu eşitləməyi zamana buraxdığı şəklindəki iddia isə, quran`dan modern tələblərə dənk hökümlər törətmək üçün uyqun ortam yaratmağa yönəlik bir iddia kimi gözükməkdədir. Dini nəss`lərin tarixsəlliyi quralını quran`a uyquladığımızda, dini qaynaqdan uzaxlaşmaqla qarşı qarşyia qalırız.
Quran`ın bu hökmünün, ərkəklə qadın arasında miras eşitliyini hazırlamağa yönəlik bir inqilabın başlanqıcı olmadığını; bir din bilgini olaraq m. Hamdi, bu anlamlı təsbitiylə ortaya qoyar: quran ayəsi «ərkəyə iki qadın payi qədər miras düşər (nisa 4/ 11); gərçəkdən ilərıdə ərkəkləri xarcama zəhmətindən qurtarmaq üçün, ərkəklə qadın arasında miras eşitliyini hazırlamağa yönəlik bir inqilabın başlanqıcı olmaq üzərə deyil; bəlkə ortada yaradılış hikmətinə, hayqırı olaraq bulunan bir huquqi və sosiyal ixtilafı ortadan qaldırmaqla ədalət və haq dəngəsini təsbit edən və anladan əzəli bir haq qanunun ifadəsi olmaq üzərə yendirilmişdir.
Quran nəhayi hökmü qoymuşdur və toplumun bunu qəbul etməyəcəyi iddaası da çox tutarlı görünmür. Necəki quran toplumun bağımlı olduğu, içki konusunda, belə qədəməli də olsa son hökmü

gətirmişdir. Hətta əgər bir çoxuda buna uymasa mütməinən özləri zərərlərini görəcəklər.
Bu haqda bir ayrı konuda qadına aid mali qaynaqlarının bütünü olaraq ələ almasıdır, qadına irs olaraq ərkəyin yarısı qədər yetirir, ayrıca ona nəfəqə, mehriyə və evin mali yükümsüzlüyü haqqı yetirməkdədir, liza qadın və ərkək eşitliyi bütövlükdə mətrəh olursa, bunların bütünü birlikdə çözülməlidir, beyləki irsdə eşitlik; bərabərində nəfəqə, mehriyə və evin mali yükümsüzlüyünüdə aradan qaldırılmasını ortaya gətirir, bu haqda quran ayətlərini bir bütün olaraq dəyərləndirdiyimizdə bu eşitlik sağlana bilir sanılmaqdadır. Hər halda bu mövzuada gələcəklə ilgili olaraq, quran hermenütik iylə ilgilidır.

10-14-qadının şahidliyi

bir kişinin başqa bir kimsədə olan haqqını isbat etmək üçün, hakim önündə və da`valının qarşısında mətrəh olan iddaası üzərinə, üçüncü bir şəxsin «ona və buna şəhadət edirəm» diyərək da`va haqqında bilgi verməsinə, şahidlik vəya tanıqlıq; beylə bir bəyanda olan şəxsədə şahid və ya tanıq deyilir. Gərək islam huqqunda gərəksə digər huqqlarda şahidlik önəmli isbat vəsiləsidir. Şahidlərin verdiyi şəhadətə görə önəmli bir suç subut olacağı kimi, ağır cəza veriləbiləcək bir kişinin bu cəzadan qurtulması da ehtimal daxilindədir.
Bəqərə surəsinin 2/ 282. Ayətində yer alan iki ərkək bulunmazsa bunun yerinə bir ərkəklə iki qadının bulunmasını istəyən ayətin bu gün nəcür anlaşılıb yorumlanacağıyla ilgili tartışmalara yer verəcəyiz.
Bu haqda hədisçi olaraq buxari`nin kitabında bir hədisdə, qadınların ağıllarının və dinlərinin eksik olduğu ifadə edilir, bilgin akdemir, hədisin uydurma olduğunu söylər və deyir : gərçəkdən də qadının şahidliyi ərkəkinkinin yarısına bərabər olsaydı ayət-i kərimədə «qadının şahidliyi ərkəkinkinin yarısına bərabər olur» ifadəsinin yer alması gərəkirdi. Oysa beylə bir şey söz konusu olmamışdır.

Şahidliklə ilgili ayətləri dəyərləndirən akdemir, quran ayətlərində (məlainə), qadının şahidliyinin ərkəyin şahidliyinə eşit olduğuna dəlil olaraq iləri sürməkdədir. Bu ayətlərdə,(nur 24/ 6-9) xocanın eşinə zina isnad etməsi durumunda, qadının şahidliyini ərkəyin şahidliyinə eşit saymaqda və dörd dəfə şahidlik etməsi durumunda, qadından zina cəzasının qaldırılacağını bildirməkdədir.
Qadının, xocasının yalan söyləyənlərdən olduğuna dair dörd dəfə allah adına yəmin və şahidlik etməsi, zina cəzasını ondan qaldırır.
Akdemir`ə görə, iləri sürüldüyü şəkliylə, əgər qadının şahidliyi ərkəyin şahidliyinin yarısına eşit olsaydı, bu ayətdə qadının səkkiz kərə şahidlikdə bulunması özünə əmr ediləcəkdi. Ama beylə olmamışdır.
Bu halda qadının şahidliyi ərkəyin şahidliyinin yarısına bərabər olduğunu söyləmək, quran-i kərimə müxalifətdən başqa bir şey deyildir, və bu kimi davranışlardan kəsinliklə qaçınmaq gərəkir. Qurandakı qadınla ilgili hökümləri tarixsəl bulan və bunlara tarixsəlci bir tərzdə yaxlaşan "aminə vedud", iki qadın şahid olması ayəsinin ləfzindən qadınların ikisinin də şahid olmadığının anlaşıldığını iddia edər.
Aminə vedud`a görə, qadınlardan birinin görvi digərinə xatırlatmaqdır, yəni sadəcə təyid edici bir rolu vardır.
İki qadın var olmasına rəğmən hər ikisinin də görəvləri birbirındən fərqlidir. Qadının şahidliyinin ərkəyin şahidliyinin yarısına eşit olmasının nədənləri üzərində duran muhəmməd imara, bu kununun «şahidlik» iylə «şahid tutmanın» arasının qarışdırılması səbəbiylə doğduğunu qeyd edər.
İmara`ya görə şahidlik, hakimin bəlgəyilə ədaləti ortaya çıxarmada özünə dayandığı bir aracdır. Burada hakim, şahidlərin cinsinə və sayısına baxmaqsızın, onların söylədiklərinin doğru olduğuna qəlbi mütmein olunca hökmünü verir.
Amma bəqərə surəsində ayətin söz konusu etdiyi işhad=şahid tutma isə, hakim qarşısındakı şahidlikdən fərqli bir şeydir.

Gənəlliklə illətin dəyişməsiylə hökmün də dəyişəcəyi ilkəsi aydındır və dolayısıyla günümüzdə Bəzi bölgələrdə qadının eyitim düzeyinin yüksəlməsi nədəniylə ayətdəki unutma illti dəyişmişdir. İşdə bu bölgələrə məxsus olmaq üzərə, qadının şahidliyi ərkəyin şahidliyinə eşit sayılabilir.
H. Peyğəmbər bir hədisində bədəvinin şəhərliyə şahidliyinin geçərli olmadığını bəlirtir. Bədəvinin şəhərliyə şahidliyinin geçərli sayılmaması şəhər həyatına yabancı olması və hadisələri yanlış alqılaması ihtimali iylə ilgilidır.
Qadınların doğrudan bilgi sahbi olduqları konularda onların şahidliklərinin yetərli görülməsi, bir ərkək yerinə iki qadının şahidliyini istəmənin ticari təcrübə azlığından qaynaqlandığını doğrular nitəlikdədir. Ancaq bu durum, dünyanın hər tərfindəki qadınların ticari təcrübə qazandığı anlamına gəlməz.
Bu hökmün, illətinin baqi olub olmamasına görə dəyərləndirilməsi gərəkdiyi düşüncəsindəyiz. Günümüzdə hökmün hər bölgədə hərkəs üçün artıq dəyişdiyi söylənəməz. Meslə, bölgə, bilgi və təcrübə qapsamında hətta fərd fərd ələ alınabilir.

10-15-qadınların özgürlük yolunda mübarizələri

islam dininin və özəlliklə quran kitabının dərinlikəlrinə gedərkən aydınca bu sonuca varmaq olar indiki zamanda qadınlar özgürlük üçün və fəministi mübarizələrində, güvənliklə quran kıtabına söykənəbilərlər, özəlliklə düzgün yorumlarla hər tür haqlarını quran əsasında almağa imkan tapabılərlər.
Geriçilər quran ayələrini çağdışı yorumlarla tanıdarlar, halbuki, quran ayələrindən açıq aydın, çağdaş yorumlar əldə etmək olar, indiki iran xalqını nəzərdə tutarsaq onların quran və islam dininə bağlılıqları aydındır, nə yazıqkı geriçilər özlərinə özgü yorumlarla, qadınlara ən böyük həqartləri yönəldillər və bütün insanlara zülüm edərkən və onların ciblərini boşaldarkən, qadınlara mozaəf zülmü törətməkdə dirlər, və qadınlar haqqında insanlıq kəramətini heç eləməkdədirlər, bu arada fars şiəliyi yalnızca geriçiliyə sarılmırlar,

ayrıca əski fars kültürünə dayanaraq və məcusi şiəliyindən yararlanaraq hər cür alçaldıcı və kiçildici sözləri qadınlar haqqında danışırlar və məcusi dini kimi qadınlara məta (kala) kimi baxaraq onlardan yalnız cinsi yararlanmaq üçün danışırlar və onları qeyr insani xususiyətlərə müttəhim edirlər və əlbətə məcusi şiəliyinin amacı bütün insanlara hakim olmaqla birlikdə qadınlarıda özlərinin qulları kimi sanırlar.
-Güney Azərbaycanda, türkləri aşağılamağa çalışdılar, onların adi haqlarını pozmağa başladılar və elam olunmamış nizami hökümət yaradaraq, gənc qız və oğlanları müxtəlif bəhanələrlə tutuqlayaraq onlara qeyr əxlaqi vəya siyasi dosiyalar düzəltdilər və onların işləmə imkanlarını əllərindən alaraq, istixdam olmalarına əngəl törətdilər və iqtisadi cəhətdən fəlakətə düşmələrini sağladılar, və Azərbaycanda işsizlik yaradaraq onları fars bölgələrinə köçürməyə və onlardan qul kimi iş çəkməyə başladılar.

12-Azərbaycan və əliçilik

12-1-Azərbaycan şiəliyinin oluşumu

Azərbaycan şiələri, tarixdə vucuda gələn çoxlu şiə qrupların tərsinə, quran kitabını əsl bilərək, o əsasda öz məzhəblərinin ilkələrinə inanırlar, və ayrıca dörd böyük xəlifəyə sayqı göstərərək sünnülərıdə islam aləminin önəmli hissəsi kimi görərlər və onlara və ayrıca bütün məzhəblərə sayqı göstərirlər və islamiyəti, siyasi cəhətdən və seçim əsasında, h. Əli`də sona çatdığını savunurlar. Azərbaycan dövləti 20inci əsrdə qurulurkən, bənimsədiyi ilk və önəmli yasalarından, seçim yasası oldu və özəlliklə şərq aləmində ilk dəfə olaraq qadınlara seçim haqqı tanımaq oldu.

Qeyd olunmalıdır Azərbaycan şiəliyi, tarixi gəlişməsində, şah ismayıl səfəvi çağında, fars şiəliyi tərəfindən bir sıra inhraflara məruz qaldı ama hətta şah ismayıl zamanındada, heç vaxt türk tayfaları tərəfindən bənimsənmədi, Azərbaycan xalqı bu tür inhirafları üzərindən atmaq üçün böyük itgilər verdi, və şah ismayılın öz çağındada türk tayfaları səfəvilərin və əslində farsçı zeydi şiələrin qəzəbinə düçar oldular və səfəvilərin sonrakı şahlarının çağında tamamən dışlandılar və nəhayətən onlarda qurultay quraraq nadirşahı ölkə hakimi seçdilər və səfəvi dönəmi fars şiəliyindən bəraet elam etdilər.

Bu bölümdə qısacada olmuş olsa Azərbaycan şiəliyinin oluşumuna, göz atırıq və bu haqda şairlərimizin sözləri, hurufilik hərəkatı və bəktaşi məzhəbi diqqətə alınacaqdır.

Önəmli bir Məsələ buradadı niyə bizim tariximizdə din haqqında özəl dini kitablarımız yoxdur, ilk baxışda beylə sanılır, türklərin bu haqda sözləri yoxdur və quya dini məsaildə özgələrinə müqəlliddilər, bu haqda daha dərin baxmağımız gərəkir, və dərin baxdığımızda eylə görünür bizim baxışımız böyük ölçüdə, islam dininə, kültürəl baxış olmuşdu və bidət qoymaq yerinə, müxtəlif zamanlarda və müxtəlif türk toplumları içərisində şəraitə uyqun əski gələnəklərilə birlikdə quran və Peyğəmbərin uyquladıqları qaydaları, toplumlarına bağdaşdırmışlar. Türk toplumunda ozanlar dini liderlərinin yerində oturmuşlar onlar toplumun hakimləri kimi, xalqa öyüd vermişlər və dini qaydaları və usulları onlara
Açıqlamışlar, bu Məsələ türk gələnəyində yerində oturmuşdu, bu sayaq bir tərəfdən zamanına uyqun dini qaydaları yürürlüyə salır və ayrı tərəfdən dində bidət qoymağı önləyirdi, bu gedişdə Bəzi ozanlar daha yuxarı mərtəbələrə çıxaraq bildiklərini yazılarıyla topluma sunmuşlar, dədə qurqut, nəimi, nəsimi, füzuli, aşıq ələskər və.. Bunların bir neçəsiydi.
Bu bölümdə ozanların və Şairlərin dini baxışlarına qısaca baxmaq gərəkir.

12-1-1-dədəqorqut

islamiyətin ilk çağlarında dədəqorqut kitabı yazıldı, bu kitab Azərbaycan türklərinin əfsanə kitabı olduğuna rəğmən; ilk bölümündə Azərbaycan türklərinin dinini beylə tanıtdırılır :
rəsul əleyhissəlamın zamanına yaxın bayat boyundan qorqut ata derlər bir ər qopdu, oğuzun ol kişi tamam bilicisiydi..
Dədə qorqut genə söyləmiş, görəlim xanım nə söyləmiş:
ağız açub ögər olsam, üstümüzdə tanrı görəkli.[1]
Təngri dostı,din sərvəri «muhəmməd» görəkli.
Məhəmmdin sağ yanında namaz qılan əbubəkr siddiq görəki.
Axır siparə başıdır əmmə görəkli.[1]

---

[1] -اؤگر اولسام: اؤوسَم، آلقشلاسام؛ گؤرَکلی : گؤرکملی، مؤحتشم و گؤزل

Höccəsinləyin düz oxunsa y.s. (yasin) görəkli.
Əlinin oğulları Peyğəmbər nəvələri kərbəla yazısında.
Yəzidilər əlində şəhid oldu, həsnlə hüseyn iki qardaş görəkli.
Yazılıb düzülüb göydən yendi, təngri elmi quran görəkli.
Ol quran`ı yazdı, düzdü, üləmalər öyrənincə köydü biçdi.
aləmlər sərvəri osman əffan oğlu görəkli.
Alçaq yerdə yapılıpdı təngri evi məkkə görəkli..
Qarılar dörd türlüdər: birisi solduran soydur, birisi dolduran topdur, birisi evin tayağıdır, birisi necə söylərəsən bayağıdır.
Ozan evin tayağı oldurkı, yabandan evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol onu yedirər, içirər, ağırlar, əzizlər, göndərər, ol aişə, fatimə soyudur..
Və nizami gəncəvi Azərbaycanın böyük Şairidə beylə deyir (iskəndər-namə, şərəfnamə):
əli`nin eşqində sabit qədəməm. ömər`in sevgisindən uzaq deyiləm.
Əbubəkr bir şəmdir osman bir çıraq. Bu dərviş sifətli dörd böyük sultan.
-Füzuli böyük Şairimiz tanınmış şiə Şairidi, onun şeirlərində firdusi kimi farsçı Şairlərin tərsinə heç yerdə islam dini böyük xəlifələrinə vəya səhabələrinə heç vaxt tovhin ulünmayibdi.
Azərbaycan şiəliyi böyük ölçüdə hurufilikdən və bəktaşi ələvilikdən təsir götürmüşdü, mütəqabilən bəktaşi ələviliyə də təsir qoymuşdu.
Dədəqorqut kitabında olan sözlərin təsviri aşağıda göstərilibdir.



[1] -قوتسال قران ح. ابوبکر زامانی و ح. عؤمرله مشورت ائدەرک توپلاندی. کیتاب سیرایلا، ح. ابوبکر، و سونرادا ح. عؤمر و قیزی حفصەنین یانیندا قالدی و سونرا ح. عثمان اونو تکثیر ائتدی و موختلیف شهرلره یوللادی. بو بیت تشبیه شکلینده اولموشدو.





12-1-2-hurufilik

hurufilik 14. əsrin sonu və 15inci əsrin əvvəllərində Azərbaycanda, anadoluda və qərbi iranda yayılan sufi təriqətinin adıdı. Huruf sözü ərəb dilində `hərflər` mənasını verir.

Hurufilıyi bir fəlsəfi-dini sistem olaraq, quran şəxs, mənşəcə Azərbaycan türklərindən olan şəhab əddin fəzl ullah əstərabadi nəimi dir (40-1339/ 1394), nəimi dən sonra imadəddin nəsimi (1369 şamaxı, 1417 hələb) bu axımın öncüsü oldu, nəsimi hurufiliyin zirvəsi deməkdir.

Xəlifə mamun dövründə kateqoriyalar, metafizika, Yaradılış və ölüm haqında `Aristotel`in kitabı Və «platonun» kitabı yəni «sufist, qanunlar» və ayrı əsərləri tərcümə edilmişdir. Hurufilıyə oxşar inanclar qədim hindustanda, yunanistanda, misirdə, və yəhudilik və kristiyanlıqda da mövcuddur. Hindlilərə görə rəqəmlərlə hərflər arasında bir əlaqə vardır.

Uç, yeddi, on və qırx rəqəmləri müqəddəsdilər və hərəsi bir varlığa işarə edir. Hurufilik fəlsəfəsi böyük ölçüdə bu tür kitablardan və təfəkkülərdən etgilənmişdir.

Bu təriqət şiə təmayullu olsada, yaranışından etibarən istər şiə, istərsə də sunni məzhəbinin daşıyıcıları arasında tərəfdar tapmış, xususiylə təsəvvuf vasitəsiylə ədəbiyata və digər təriqətlərə təsir etmişdir.

Hurufilik fəlsəfəsinin əsasını mistik panteizm, yəni könüllə varılan vəhdət-i vücud təşkil edir. Hurufilərcə insanlar, allahın vucudundan qopmuş parçalardır, nəsimi insani cəmal-i həq bilir və ruh və cism ayrılığına inanmır, hurufilərcə varlıq, zaten əzəli və allahın özüdür, hər şey daima təkamul və evrim halındadır və insanlar allahdan gəlib eynən allaha dönərlər. Nəfsini tərbiyə edən insanoğlu (yəni salik) şəriət, təriqət, mərifət və həqiqət qapılarından geçər və ən sonunda haq iylə haq olur. Həllac-i mənsur və nəsimini ölümə götürn «ənəlhəq» sözü, bu inancın yansımasıdır. Bu kələmə ingilizcədə panteizm (pantheism) yəni tanrıyla varlığın bir vucud olması deməkdir. Bəzi alimlər, bu əsasda tanrının dəyərini, maddi varlıq mərtəbəsinə yenməsini önə sürərək, bu teorini quran`a hayqırı bilərlər.

Vəhdət-I vucud`a qarşı imam rəbbani «vəhdət-i şuhud» anlayışını önə surər, vəhdət-i şuhud anlamca «bir görmə» deməkdir; salik, hər şeyi allah olaraq, allah`ın təcəlliləri olaraq görür, və ondan başqasını görməyir. Bu anlayış əsasında, vəhdət-i vucud, həman vəhdət-i şuhud düşüncəsinin bir sonucudur.

Məsələn füzuli deyir: məndə olan aşikar sənsin. Mən xod yoxum ol ki var sənsin.
Bu görüşdə tanrı hər şeyin üstündədir və hər şey onun aləmdə yansımasıdır, bu teorinin bərabərı ingilizcədə panenteizm (panentheism) deməkdir.
Hər halda vəhdət-I şuhud, varlıqbirliyi yəni vəhdət-I vucud deməkdir, və fərq yalnız kələmələrin düzümü üzərində görünməlidir.
Hurufilikdə quran`ın təvili və yozumu, sayılar və hərflər üstündə qurulmuşdur. Onların nəzərində quran`ın hər hərfi bir sır`dı və onu hurufiliyin uca mərtəbələrinə yetirənlər açıqlayabilir, hurufilər umumən dini ibadətlərə sünnət şəklində yox, bəlkə hurufi böyüklərinin tövsiyələri əsasında əməl edirdilər.
Hurufilıyə görə kaynat əbədidir və müxtəlif dövrlər birbirini əvəz edir, bu dövrlər Peyğəmbərlik, imamlıq və allahlıqdır. H. Adəm Peyğəmbərlə, başlayan Peyğəmbərlik dövrü, muhəmməd Peyğəmbərlə başa çatmışdır. Əli ibn əbu talib`lə başlayan imamlıq dövrü imam həsən əskəri 11-ci imamla başa çatmışdır. Allahlıq dövrü isə fəzl ullah la başlamışdır. Təsəvvüf də hülul, allahın yaratdıqlarında meydana çıxması deməkdir. Hurufilərin inancına görə tanrı 11 imamdan sonra hurufilərin böyüklərində hülul edir və hər biri ölərkən sonrakı öndərdə hülul edir.
Hülul inancı, islam dininə hayqırıdı, quran aydınca deyir insan öldüyündə qiyamtə kimi dirilməz və ayrı tərəfdən, Hülul məsələsi tanryia ortaq tutmaq anlamına gələrək bir növi şirk sayılır, əqlı cəhətdəndə anlamsız təfəkkürdü, toplumda dini diktatorluğa yol açar və insanların seçim haqlarını görməzdən gəlir, ayrıca insanlarda özəlliklə uzun məddtdə bireyəsl (fərdi) və toplumsal cəhətdən eyləmsizlik və fəaliyətsizlik yaradar, çünki insanlar öz güclərinə yox bəlkə mohumi bir şəxsin gücünə və qüdrətinə inanaraq, fikirləşmək imkanların əldən verərlər, beylə bir sistimdə, toplum rukud və sukuna tərəf gedəbilir. (Bu haqda quran ayələri

«təvəssül və şəfaət bölümündə 12-4-25» rucu olunmalıdır). Hülul təfəkkürü indiki Azərbaycan şiəliyində, quran və ağıl gərəyi qəbul görünməməkdədir.
Hurufilər böyük səhvlə əzan`da yeni cümlələr əlavə edərək islam dinində bidət qoymağa qalxmışlar. Bəzən Hurufilıyi, yeni din kimi göstərirlər halbuki onları yalnız bir məzhəb kimi göstərmək olar. Bucür səhvlərin yanında hurufilik təfəkkürü, insana və onun kəramtini, böyük ölçüdə önəmsəmişdir.
İndiki Azərbaycan şiəliyində, hurufiliyin imam mehdi təfəkkürü etgili olmuşdu, imam həsən əskərinin sonsuz olması və imam mehdi`nin sonralar dünyaya gəlmə məsələsi bu təriqətdən qalmışdır (baxın: bölüm 12-3- əliçilər və imamət məsələsi).
Hurufilik təfəkkürünün allahlıq və ayrı deyişlə tanrı nayibliyi düşüncəsi, quran düşüncəsinə tərs düşür, vəqti tanrı insanlara buyurur (nisa 4/ 165: يكـونَ للنّـاس علـى الله حجّـة بعـد الرّسـول: mən (tanrı) muhəmməd Peyğəmbərdən sonra höccətimi sizlərə tamamladım). Höccətin tamamlanması, insanların öz ayaqlarının üstündə durabiləcəkləri anlamındadır və insanlar quran, və öz təcrübələrinə və ağıllarına güvənərək hər sorunu çözməyə qadirdilər. Ayrıca tanrı quran`ı insanlara düşünəbilir və anlaşılabilir şəkildə yullayıbdı və quran`ın sırrlı və gizli olmağını söyləmək quranın öyrətisinə və dünya görüşünə hayqırıdı. Quran`ın sırrlı olaraq anlaşılmaz deyilməsi, xalqı naqsuləğl bilmək deməkdir və bu Məsələ ağıl gərəyicədə düzgün görünmür. Beylə bir təfəkkürün sonucu diktatorluqdan başqa bir şey deyildi. Bu haqda «10-5- quran`ın umum xalq tərəfindən düşünəbilirliyi və anlaşılabilirliyi» bölümündə yetərincə bilgi verilmişdi.
Vəhdət-I vucud düşüncəsi müxtəlif boyutlardan tartışılmalı bir fəlsəfi təfəkkürdü, bu mövzu neçə növ yorumlanır, 1-əgər bu istilah dan mənzur tanrıyla məxluqun bir vucud olması olarsa, bu yorum ağıl gərəyicə yanlışdır, hərkəs, sadə fikirlə buna varabilir vəqti bir Azərbaycanlı bu qədər illərdən sonra hələ də hələdi geçən yüzildə

dörd yol böyük üsyanlardan sonra ən ibtidayi haqlarına qovuşabilməyib nəcür onları, allah fərz etmək olar, və ya zalimləri və zulm edənləri nəcür allah sanabilirik, liza bu istilah bu anlamda ağılca və dincə də düzgün görünmür.2-əgər vəhdət- vucud`un anlamı, var olan hər şeydə, tanrının ruhunun daşınması olursa bu ağla və quran`a uyqun gələbilir, zatən hər zərrəcikdə və uzayın hər yerində tanrının olmadığını söyləmək imkansızdır, tanrı buyurur mən sizlərə sizin şah damarızdan yaxınam, bu anlayışla varlıq, dəyişimin (təğyiratın) hasili olmuşdur, bu dəyişimi yönətən güc, tək bir qaynaqdan gələrək kainatı yaradanın gücü olmalıdır. 3- vəhdət-I vucud düşüncəsini yəni varlıq birliyini, ikinci anlayış yəni hər şeyi tanrının törətdiyi hərəkətin yansıması olaraq sanarsaq, vəhdət=I vucud fəlsəfəsini yalnız könüllə yox daha önəmlisi ağıl əsasında çözməliyik: çəkim gücünün evrənsəl olduğu, yaranış zərrəciklərinin hər yerdə var olması, hər movcudun ışınlarla tanınması və ışıqın hər yerdə olması və bəlli sürətdə zaman və məkanın yürürlükdən çıxması və çoxlu ayrı teorilər və bilimsəl bulqular bunların Bəzi örnəkləri olmalıdır.

Hurufilər yanlışlıqla Hülul məsələsinə inansalarda şeirlərində insanların bərabərliyinə və tanrı ruhunu daşıdığına inanırlar və onların qutsal gücə malik olduğuna inanırlar, hurufilik fəlsəfəsində insan hər işi görməyə qadirdi və bu üzdən onu üsyana çağırır. İnsanların bərabər görünməsi və ilahi nurun onlarda təcəlli tapması, insanlıq üçün dəyərli anlayışdı, nəsiminin bu təfəkkürü bütün şeirlərində yansyiaraq, insanlarda sevgiyə, və hərəkət qaynağına dönüşmşədü. Nəsimi söyləyir:

ey özündən bi xəbər ğafil, oyan. Haqqa gəl ki, haq deyil batil, oyan.
olma, fani aləmə mayil, oyan. Mərifətdən nəsnə qıl hasil, oyan.
Hərnə yerdə göydə var adəmdə var. Hər nə ayda ildə var adəmdə var.
Hərnə əldə üzdə var adəmdə var. Həq sözün fəhm etməyən, adəmdə var.

Nəsimi böyük ölçüdə təqiyə və sır saxlama təfəkkürünə qarşı çıxır:

dəryai mühıt cuuşə gəldi. Kovn iylə məkan xuruşə gəldi.
Sərr-i əzəl oldu aşkara. aşiq necə eyləsin müdara.

Nəsimi özündən sonra bütün öndə gələn Şairlərə təsir etmişdir və ələvi bəktaşi, əhl həq, goran`ların dini mərasimlərində onun şeirləri böyük vəcdlə oxunur.

12-1-3-bəktaşi ələvilik

bəktaşi ələviləri bir sıra axımlardan təsir götürmüşdü bunların ən önəmliləri batini`lik və yəsəvilik`di, bəktaşi cərəyanı, ələvilərin binövrəsini oluşdurur, batini lərə görə hər zahirin (açıq) bir batini (gizli) vardı və quran iylə hədislər ancaq təvil (yorum) iylə anlaşılabiləcəkdi və oda məsum imam tərəfindən və onun yolondan gedənlərcə bilinə biləcəyi mümkündü, ələvilik böyük ölçüdə, batini`lərin bu təfəkküründən təsir almışdı, bu düşüncə quran əsasında düzgün görünməməkdədir və insan ağlının tanrı tərəfindən kamil olmasını sorqu sual altına aparır.

Yəsəvilik: əhməd yəsəvi (ölüm ili 1166) tərəfindən qurulan ilk türk təriqəti olaraq bilinir. Əhməd yəsəvi, türküstan`da h. Məhəmməd`dən sonra ən uca kişi olaraq qəbul edilir. Əhməd yəsəvi`ni məşğul edən tək şey, xalqı irşad edərək doğru yola yönəltməkdir. Onun tövsiyə etdiyi başlıca şeylər bunlardı: ərənlərin sözünü dinləmək, quran və hədislərin hökümlərini rüayət etmək, şəriətlə təriqəti bağdaşdırmaq, zöhd və təqva əsaslarına bağlı qalmaq, dünyanın süsünə, malına və şöhrətinə bağlanmamaq, riyazət və mücahidə yolunu açıq tutmaq. O ayrıca eşq yoluna girmənin çox zor olduğunu, eşq yolunun fəzilətli, feyzli, fəqət çətinliklərlə dolu olduğunu bildirir. Yəsəvi`likdə coşqun, daşqın bir ruh həyatını təşviqdən çox, təmkinli və ölçulu davranışlar tövsiyə edilir. Yəsəvilikdə təriqət adabı beylədir: iki dizi üzərinə çöküb təvazo və ədəblə oturmaq. Özünü hər kəsdən alçaq görmək. Hərkəsi özündən daha fəzilətli görmək. Şeyx və əzizlərin hüzurlarında ədəbli və səssiz durmaq və onların məclislərində izinsiz qonuşmamaq. Onların sırların qoruyub saxlamaq.

Hacı bəktaşi vəli

bektaşi ənənələrinə görə hacı bəktaş vəli, əhməd yəsəvi`nin xəlifələrindəndir. Hacı bəktaş vəli (miladi 1210-1220 xorasanda anadan olub), ərəbcə və farscanı bilməsinə rəğmən türklük bilinci iylə türkcə yazan, buna qarşılıq ədəbiyat, jeometri, astronomi gibi pozitif bilimlərdən xəbərdar olan aydın bir ərəndi. Hacı bəktaş vəli`nin məqalatında olan 4 qapı və 40 məqam inancı bütün təsəvvüf ərbabı tərəfindən bəniməsənməkdədi: bu əsasda allaha gedən yollar yaratıqların nəfəsləri sayısıncadır; gərçəyə ulaşmış kişilər bunların arasından, onun tövsiyə etdigi 4 mərtəbənin bulunduğu bir yolu tərcih etmişlərdir: 1. Şəriət 2. Təriqət 3.Mərifət 4. Həqiqət.

Hənəfi düşüncəsi türk topluluqlarında ikiyə bölünmüş, bunlardan birisi, matridi düşüncə olub, ələvilik əslində, dini, ağılcı yorumlarla ələ almışdır. Hənəfiliyin ikinci qolu isə əşari düşüncədir. Səlcuqlularda matridi düşüncə iylə əşarı düşüncə arasında bir rəqabət gözlənmişdir. Osmanlı üləması hənfiliyin əşari qolunu tərcih etmişdir.

Bəktaşi ələvilərin ən mühüm özəllikləri qadına önəm vermələridi, 1918inci illərdə quzey Azərbaycan milli hökümətində, və şərq aləmində ilk dəfə olaraq, qadın özgürlüyü haqda yasaların qəbul edilməsi bu məsələdən etgilnməkdə və qaynaqlanmaqdadı.

Bəktaşi ələvilərin inanclarında, qadınlarda nəbi olabilir, örnək üçün h. Həvva, məryəm, sara, həcər, h. Musa`nın anası.. Birər nəbi`dirlər, bəktaşilər hətta h. aişə`nidə nəbi bilərlər, h. aişə`nin tanrı və müsəlman xalqı yanında böyük məqama sahib olduğunda quşqu yoxdur, çünki tanrı ona ümm ül mömünün (mömünlərin anası) adını veribdi və bu məqamın, nəbilik mərtəbəsiylə eşdəyər olması doğaldır, ama h. Peyğəmbər tərəfindən, h. aişə`nin nəbi məqamında olduğu haqda bir bilgimiz yoxdur, ayrıca h. Muhəmməd, xatəm ul ənbiya olduğu üçün bu quralla uyqun olabilməz, bəktaşi`lərin bu inancları, Azərbaycan şiəliyinin də inandıqları fikirdi və bunu dəstəkləməlidilər. Bu inanc qadın özgürlüyü üçün münasib ortam

yaratmaqdadır və Azərbaycan tarixi də bizim xalqımızın qadına dəyər verməsini isbatlamışdı.

12-2-islam dini haqda gərçəklər və fars şiəliyi gizliliyi

bu bölümdə fars şiəliyinin demək istəmədiyi bir sıra bilgilerə işarət olunur

-fars şiəliyi sasanlı yenilgisinın intiqamını h. ömər`i pisləməklə almaq istəyir, halbuki h. ömər yaşam boyu dinin inkişafına çalışdı və h. Əli`nin, qızı ümm kolsum onunla evləndi.

-H Peyğəmbər, h. Əbubəkrin qızı aişə iylə evləndi və nur(24/ 11) surə sində, xanım aişənin kəramti haqdadır və ona ümm ül mömünün ləqəbi verilibdi.

-H. Peyğəmbər, cənab osman`a sırasıyla iki qızını verdi və buyurubdur əgər evdə üçüncü qızım da olsaydı osman`a verirdim.

-H əli, həsən və hüseyn dən başqa ayrı oğlulları varıydı, onların üçünü, üç böyük xəlifə`nin eşqinə, əbubəkr, ömər və osman adlandırmışdı, onlar kərbəlada şəhid oldular.

-Əbubəkr, h. Əli, h. Həsn, h. Musı, nın oğullarının adıydı, və əbibəkər, imam musa və imam zeynəlabdın`in konyəsiydi.

-Ömər, imam həsn, imam hüseyn, imam zeynəlabdin`in oğlanlarının adıydı.

-aişə, h. Cəfər sadıq, h. musa kazim və imam riza və imam hadi`nin qızının adıydı. Osman əleyhinə ayaqlanmada, əli, həsən və hüseyn onu savunaraq hətta həsən yaralanmışdı. Osman, h. Əli və h. Zeynəlabdin`in oğlanlarının adıydı.

-Imam bağır (ə) buyururlar «Peyğəmbərlər imamlardan əfzəldirlər», buna rəğmən fars şiəçilri imaməti Peyğəmbərlikdən üstün bilərək; kərbəla və imamların türbəsini kəbədən əfzəl bilərlər, şeir, ədəbiyat və söhbətlərində Peyğəmbərləri aşağılayaraq onları əli`nin qapıcısı kimi qələmə verərlər və əslində yalnız yəzdgərd`in qızından olanları (özlərinin qondardıqlar soy) əzizləyərək qalanlarına tovhin edirlər.

-Quran kitabı h. ömər zamanında ilk aşamada toplandı və h. osman zamanında təksir oldu.
-imam cəfərsadiq`in nəsəbi ata tərəfindən h. Əliyə və ana tərəfindən h. Əbubəkrə yetirir. (Ana tərəfindən: ümm fərvə, atası: qasım, muhəmməd, h. Əbubəkr; ümm fərvə, anası: əsma, əbdürrəhman, h. Əbubəkr)
-fars şiəliyinin qaynaqlarında, çoxlu yanlış və gərçək dışı sözlərlə insan oğlunu və onun kəramtini və özlüyünü və əslində imamları aşağılamaq istəyirlər, Məsələn hədislərin birində beylə yazır «əmam həsən zamanı duğu və batı da birər şəhər varıydı imam həsən onların hər birində 70 min min dil olaraq onların hamısın bilirdi», beylə hədislər yalnız bir düşüncəsi yox dərcədə olan şəxsin sözü olabilir, nəcür o zaman bir şəhərdə 70 milyon dil olabilir o dönəmini bir ailəsin 5 nəfər tutarsaq və hər ailə bir dil bilərsə o şəhrin nufusu 350 milyon olur, bu sözlər hədis diyəni və yenədə hədisləri xətab alan insanları düşüncəsiz olduğunu isbat edəbilir.
Məclisi Bəharulənvar`da, səlmandan bir hədis deyir : h. Əli buyurur ey səlman h. Fatimə nin yanına get, səlman Fatimə nin yanına gedir, onun örtüyü və çadırası qıssa idi, vəqti başını örtürdü budları açıq qalırdı və budlarını örtəndə başı açıq qalırdı, bucür hədislər h. Fatimənin mirasının 7 bağ olduğunu nəzərdə alarsaq h. Fatimə nın və h. Əlinin kəramətinə və heyisiyətinə toxuşmaqdır və məclisilər gərçəkdən əhl beyti, öz əski behdini qadınlarına oxşadaraq, hər yerdə öz zehinlərini məşğul edən cinsi dastanlarla xalqıda məşğul etmək istirlər. Vəqti bu Məsələ ni quran ayəsiylə muqayisə edərsək hədisin quran`a görə nə qədər hayqırı və çirkin olduğunu görəbilirik,
əhzab 33/ 53 : و اذا سَألتُموهُنّ متاعاً فَسئلوهُنّ مـن وراء حجـاب ذالكم اطهـر لِقلـوبهم و قلـوبهنّ:
«Peyğəmbər qadınlarından» bir şey istədiyiniz zaman, onu örtük (pərdə) dalından istəyin, bu həm sizin qəlbəlrinizə və həm də onların qəlbəlrinə daha təmizdir.

Nəcür olur səlman izinsiz h. Fatimə nin odasına girir?, Və çoxlu bucür suallar vermək olar, əlbətə aydındırkı bu tür dastanlar hamısı fars şiə liyinin yalanlardır.
Vəya vəqti rəvayət də h. Fatimənin aylıq adətlərinin olmaması ona məziyət kimi sayılır bir haldaki bu ittiham o zaman söyüş sayılırdı (Məsələn bir qadına tovhin olaraq deyilir: ey aylıq adəti olmayan qadın) bunlar çəlişgi dən başqa bir şey olmayaraq dinin hörmətin yıpratmaq məqsədiylə yapılmışdır və dini, xorafata bulaşdırmaq istənmişdir.
-Bir ayrı hədisdə nəql olunur Peyğəmbər dünyaya gələrkən anasının sütü yoxuydu, əbutalib onu döşünün üstünə qoyur və onun döşü tanrı tərəfindən sütlənir və oda uzun müdət o sutdən irtizaq edir, və aydındırki sonralar Peyğəmbərin qızıyla əbutalbin oğlu evlənir, bucür hədislər və ya ayrı hədisdə h. Hüseyn`in anadan olanda h. Peyğəmbərin barmağından süt əmdiyi əslində fars sasanlı kültüründən qaynaqlanır və təmamən xorafata bulaşmış hədislərdir.
Əlkafı kimi kitablarda zəlzələ kimi olayları bir balığın tərpənməsinə bağlamaqları xorafatdan başqa bir şey deyil, niyə bucür xorafatlar quranda yoxdur vəli əlkafı və ya Bəharulənvar kimi kitablarda doludur, bəllidirki bucür kitablar inhirafi cərəyanlar tərəfindən yazıldığı üçündür.
Fars şiəliyi, h. Əli və imamların özləri demədiyi sözləri onlara və quran`a bağlayarlar, Məsələn h. Əli və imamlar özlərinin ğeyb elmlərinin olmadığını söylərlər, halbuki farsçıları, onların ğeyb bilgileri olduğunu savunarlar və ya onları tanrısallaşdırarlar, halbuki İmamlar heç vaqt bucür sözləri deməyiblər, bu səbəblə əslində farsçılar, h. Əli`yə və imamlara tovhin edərək onlara yalan bağlayırlar və insanları şirkə yönəldillər. Farsçıları, təqiyəni sasanlı kültüründən götürərək yalançı hədislərlə imamlara bağlayarlar vəya h. Əli nəhculbəlağə də təvəssül işini, yalnız tanrı üçün olabiləcəyini söylədiyi halda onlar, yüzlərcə tanrısallaşdırılmış imamzadalara

təvəssül edərlər və gərçəkdən amacları sasanlı dini kimi sənəviyət yaratmaqdır və bu yoldan sərvət ələ gətirmək peşində dilər.
Ayrıca farsçılar quran`ı təhrif etməklə xums məsələsini ortaya atarlar, və amacları xalqın malına sahib olmaqdı, fars dinçilərinin aldığı xums məsələsinə quranda işarə olmayaraq, heç bir imamdanda beylə bir işarət yoxdur, işarə olunmalıdır; quranda yalnız bir ayədə yəni infal surəsində ayə 41 də xums sözünə işarə olunubdur:
«وَاعْلَمُوا أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلَّهِ خُمُسَهُ وَلِلرَّسُول وَلِذِي الْقُرْبَـى..» : Bilin hər tür ğənimət ələ gətirsəniz onun beşdə biri tanrı üçün Peyğəmbərə, yoxsullara yetişir.»
Bu ayə bədr savaşında nazil olub və yalnız savaş ğənimətləri üçün geçərlidir, və h. sadıq buyurur xums yalnız ğənimətlər üçün geçərlidi (Əlistibsar- əltusi- 2/56).
-Farsçılar dolayısız olaraq imamlara tovhin etmək peşindədilər bu Məsələ özəlliklə ilk farsçı mühəddislərdə daha açıq şəkildə görünməkdədir, koleyni, əlkafi kitabında, h. Həsən`in 50 dən çox qadın aldığına işarə edir və ona mitlaq (çox arvad alıb buşayan və təlaq verən anlamında) deyir və bir rəvayətə görə, quya h. Əli bir xütbə`də deyir ey millət həsən`ə qadın verməyin və o qadın saxlayan deyil. Yenə də həman kitabda və üç səfhə öncəsi mitlaq kələməsini tanıdaraq eylə şəxsləri kötü olaraq tanıdır və lənətlənmiş sanır, bu iki söz özəlliklə kitabın bir bölümündə gətirilməsi əmdi olaraq imam həsənə tovhin anlamındadır, sonralar məclisi imam həsən haqqında onun 300 -200 qadın aldığını söylər və ayrıca dediyi şayiəni rəd etmək istəyərək imam həsni qadınlardan və özəlliklə az yaşlı qızlardan və Bakirə qızlardan, yalnız ləzzət aparmaq üçün evləndiyinə müttəhim edər. Və ayrıca yazır: imam həsən evlənən qadınlara inanılmaz mal və sərvət verirdi, vəya rical-i kəşi (s 103) kitabında imam həsəni mömünləri «pis günə qoyan» ünvaniylə tanıdır. Bu hədislərə baxdığımızda demək olar fars şiəliyi yalan hədislər və rəvayətlər qondararq və onları imaların dilinə bağlayaraq

islam dinini içdən boşaltmaq istəyirlər və dolayısız imamların heysiyətinə toxuşmağı amaclayırlar. Və bu hədislərin heç biri sənədi və mətni lahazdan düzgün hədislər sayılmır.

12-2-1-tinət

bu inanc şiələrin (mənzur yəzdgerdi şiəsinin) gizlin hədislərindəndi, onlar bunu öz ami fərdlərindəndə gizlin saxlayarlar, çünki əgər bir ami şəxs bundan ittilasi olsa, dünya ləzzətlərinə əl tapmaq üçün hər iş görər, çünki yararına olduğunu düşünür (ələnvar ul nemaniyə 1/295).

Fars şiəliyində çoxlu hədislər var bu məzmunda: əgər şiələrdən qiyamətə kimi günah iş görsələr onun günahı sünnülərə gedir və əgər sünnülər qiyamətə kimi səvab iş görsələr şiələrə yazılır.

Beylə xorafi sözə inanan bir fars şiəsi aydındırki hər nə əlindən gəlsə günah iş görməlidi çünki düşmənlərini dahada çox cəhənmin dibinə yollayır. Halbuki quran sərahətən söyləyir:

Ənam 6/ 164 :.....وَلا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى.: Heç kəs özgəsinin suçunu özünə almayacaq.

Tur 52/ 21:...كُلُّ امْرِئٍ بِمَا كَسَبَ رَهِينٌ.: hərkəs özünün gördüyü işlərdən sorumludu.

Zəlzal 99/ 7-8: فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرًّا يَرَهُ: hərkəs zərə qədər yaxcı iş görsə əvəzin görəcək və hər kəs zərə qədər pis iş görə cəzasın əlacaq.

12-2-2-siyasi otoritə və şəxsi gəlirlər

h. ömər zamanı rum impratoru, ümm kulsum üçün (h. Əlin`in qızı və h. ömərin qadını) dəyərli bir qızıl külyə (qızıl boyun asqısı) yullayır, ömər qızıl asqının durumunu bəlli etmək üçün hamını məçidə yığır, hamı qızıl boyun asqısını ümm kulsum a verilməsini işkalsız bilərək, h. ömər bir az fikirləşir və deyir əgər mənim özəl durumum və islam ordusunun cəsarətləri olmasaydı, bu armağan ümm kulsum a gəlməzdi, pəs bu asqı beytulmala yetirməlidi, bu olayı, fars şiəliyinin yanlış iddialarıyla tutuşdurun: bir nəfər yəhudi

fədək mülkünü Peyğəmbərə verir və quya o mal gərək h. Fatiməyə yetirməliydi, Məsələ buradadı əgər Peyğəmbər məkkədə otursaydı və müsəlmanlar böyük təlaş etməsəydilər aya bir yəhudi o mülkü Peyğəmbərə verərdi.

12-3-əliçilər və imamət məsələsi

imamət sözcükdə öndə olmaq və önə getmək anlamındadı və "əmmə-l qəvmə : اَمَّ القومَ " yəni qövmün öndəri oldu, və bir qövmün, düz və ya əyri yol üçün iqtida etdiyi şəxsə imam deyirlər, yenə də xəlifə və onun canişininə imam deyirlər.

Fars şiəliyi imamətı, nübüvvət qarşılığında qoymaq istəyir: əllamə məclisi, bəharulənvar(28/82)da deyir: imamət həman nübüvvət`di və imam Peyğəmbərdi, biz onların arasında fərq görmürük və yalnız xatəm ul ənbiya`nı rüayət edirik.

Əliçilər öz kültürləri əsasında, on iki imama irsi qayda iylə yox, bəlkə yetənəklilik qavramıyla, başaratları üçün və din bilgini kimi inanırlar, saxta tarix düzəltməkdən uzaq duraraq, məntiğə və ağıla dayanaraq 12inci imamı tanrının saleh bəndəsi olaraq bütün dünya tərəfindən bənimsəndiyi zaman və insanların bilgilerinin artmasıyla və məntiqli ortam yaranmasıyla, gələcəyinə inanırlar, imam zaman xalqın böyük çoğunluğunun istəyi üzərə, gələrək və düzgün hidayətiylə, xalqı zalim-lərin əlindən qurtaracaqdı (aydındı ki zalimlər azınlıqda olaraq böyük çoğunluğu təzyiq altında saxladıqları üçün imam zamanın öndərliyində xalqın tərəfindən devriləcəklər). Əliçilər bu inancı hurufi`lərdən alaraq və h. Əli`nin yol yöntəminə uyqun olaraq bənimsəmişdilər(baxın 12-1-Azərbaycan şiə`liyinin oluşumu). Əliçilər imam zamanı böyük din bilgini kimi tanıyırlar, və imam həsən əskəri`nin vəfat günündən sonrakı zamanı intizar çağı bilərlər. ein halda əliçilər hər din bilginini imam kimi tanıyırlar.

Farsçılar öz diktatorluqlarının isbatı üçün on iki imama atadan oğula geçmə olaraq baxarlar və saxta tarix düzəldərək 12inci imamı atadan oğula geçəmə yol iylə imam olmasını savunurlar.

Farsçılar ğədirxum hadisəsini saxtalaşdıraraq, h. Əlini canişin seçildiyini önə sürərlər və bu üzdən bütün səhabələri və ğədirxum da olan 120 min nəfəri və üç böyük xəlifəni, yalançı və xayın sanaraq onlara tovhin və səbb u lən edərlər, farsçılar əslində ən böyük tovhini h. Peyğəmbərə və h. Əliyə edirlər çünki onların fikrində h. Peyğəmbər seçim və şura və məşvərət yolylə yox bəlkə intisab yoliylə h. Əlini öz yerinə seçmişdi, halbuki beylə təfəkkür islam dini usullarına ziddi və şura surəsini (26/ 38 : əmrhom şura bənəhom : امرهم شوری بینهم) və seçim qaydasını heçə saymaqdı.
Gərçəkdən farsçılar nə xalqa inanırlar və nə islama tabədilər, onlar diktatorluğa dayanan əski sasanlı qaydasını yenindən canlandırmaq üçün çabalayırlar, farsçılar seçim və şura məsələsini görməzdən gələrək, h. Peyğəmbərə və h. Əlini diktatorluğa müttəhim edirlər halbuki h. Peyğəmbər, yaşayışında özünə canişin qoymaq məsələsini heç vaqt mətrəh etməmişdi və bu haqda minlərcə yaşayan insanlardan bir haldaki h. Peyğəmbərə valəh olaraq canlarını fəda edirdilər hətta bir kələmə səbt olmayıbdı və yüzlərcə il sonra farsçı sasanlı şahzadələri ğeyb əlminə malik olaraq geçmişlərdən xəbər verib və h. Peyğəmbərə və h. Əliyə bir sürü yalanlar bağlayıblar və onların nəzərində quya h. Peyğəmbər və h. Əli də, sasanlı şahları kimi diktator olaraq xalqa və onların seçim haqlarına əsla inanmırdılar, gərçəkdən farsçılar böyük yanlışlar içində çabalayırlar.
Fars şiəliyində imam təşri və yasa qoyma haqqına sahibdi, halbuki Azərbaycan şiəliyində şarə yalnız tanrıdı və Peyğəmbər tanrını hökmlərin insanlarayetirir və imamlarda lazım olduğu qədər dini insanlara açıqlamalıdılar. Yəni imam`ın görəvi şəriət qomaq yox, bəlkə islam dinini açıqlamaq, yorumlamaq və aydınlatmaqdı.
Azərbaycan şiəsi, h. Peyğəmbərdən və üç böyük xəlifə iylə birlikdə, h. Əlinin xəlifəliyə seçildiyinə və onun böyük din bilgini olaraq imam olmasına inananlara deyilir, ayrıca inanırlar h. Əli dən sonra onun oğulları din bilgini olduqları üçün quran`ı insanlar üçün

düzgün anlatmaq üçün, islam aləminin dini liderliyini öhdələrinə aldmışdılar və 12inci imam, insanları səadətə yetirmək üçün zuhur edəcəkdi.
Bu haqda neçə batılı müstəşriqlərdən (doğu bilənlərdən) qısaca cümlələr daha aydınlayıcıdı.
Öncə işarə etmişik, "dozy" deyir : iranlıların (farsların) sasanlı dönəmi qul kimi yaşadıqları üçün seçim diyə bir şey tanımırdılar və "moller" deyir : farslar şahənşahları, tanrının kölgəsi bilirdilər, və bu üzdəndə təşəyyo təfəkkürünə öz əski inanclarının rəngini verdilər(baxın: 6-3)
fəcrülislam yazır (səfhə 276-278) : təşəyyo (h. Əli üçün) iranlıların (farsların) islama girməsindən öncə başlanır, və getdikcə h. osmana intiqadlarla böyüdü, bu iş üçün h. Əli o birilərdən daha çox bəyənilirdi, çünki h. Əli iki cəhətdən uyqun görsənirdi, bir tərəfdən h. Peyğəmbərlə qohumluğu varıydı və ayrıca yetənəkliydi, ama təşəyyo, yəhud və nəsara və məcusilərin islama girməsiylə ayrı rəng tapdı və hər qrup, təşəyyo məzhəbini, öz dinlərinin qaliblərinə salmaq istəyirdilər, yəhudilər ona yəhudi rəngi verirdilər, məsihilərdə öz dinlərinin rənginə salmaq istəyirdilər, ama onun ətrafında fars ırqı daha çoxuydu və getdikcə onların kültür və əski dinlərinin rəngi, özgələrdən daha çox şiə məzhəbinə təsir etdi və sonunda tam bir fars dini rəngini aldı.
-Şeyx muhəmməd əbuzöhrə deyir: biz inanırıq şiə düşüncəsi, iran (fars) şahlıq vərasət sistimindən etgilənmişdi və onların məzhəbləriylə iç içə olmuşdu və iranlıların (yəni farsların) böyük çoğunluğu şiə olması və özəlliklə ilk şiələrin fars olduğu buna qanıtdı (tarix ul məzahib ul islamiyə 1/38).

12-3-1-müxtəlif şiə qruplarında imamət məsələsi

şiə məzhəbinə inanan qruplar, onlarca qrupa bölünürlər, onların müştərək nuqtələri h. Əli iydi. Və məmulən bəni üməyyə və muaviyə zamanı, mərkəzi iqtidarın təbizlərindən dolayı bu məzhəbə üz gətirirdilər, çünki muaviyə, h. Əli və h. həsən lə ixtilaf yaratdı və

muaviyə`nin oğluda imam hüseyn`in şəhid olmasına nədən oldu, müxtəlif şiə qrupları, bəzən xəlifəliyi və ya imaməti h. Əli`də və ya onun oğullarında tamamlanmış bilirdilər vəya h. Əli vəya imamların izini tutan möhüm din adamlarında sonlanmış sanırdılar, və umumən son imamı və ya imam naibini, məhdi olaraq ğayib sanırdılar və bəzən də mehdi`nin sonralar doğulub və zuhur edəcəyinə inanırdılar.

Bu tür qruplaşmalar nədəniylə yüzə yaxın şiə firqəsi vucuda gəldi, on birinci imam dünyadan köçənkdən sonra, onun övladı olmadığı üçün, yenədə şiələr neçə qrupa bölündülər, Bəziləri imaməti imam həsən əskəri`də qurtulmuş bildilər, bir sırası imam həsn`in qardaşı cəfər üçün imam dedilər, və Bəzilərdə imam həsən üçün saxta hədislərlə övlad düzəltdilər və onunda ğayib olduğunu söylədilər, və nəhayətən Bəzilərdə h. Peyğəmbərdən bir hədis üzərində, imamətin imam həsən əskəridə qurtulduğunu önə sürdülər və sonralar Peyğəmbər sulaləsindən biri dünyaya gəlib imam olaraq dünyaya hökümət etməsini savundular.

-Şiələr ən azından bu qollara ayrılırdılar, (şiə məzhəbinin türləri): ələvi şiəsi, əsnaəşər, zeydi, kisaniyə, muxtariyə, ismayıliyə, dəruz, nəzariyə, həşaşun, davudiyə, süleymaniyə, məstəliyə hafiziyə, qəramətə, fətiyə, səlas əşriyə, navusiyə, haşmiyə, vaqifiyə, batiniyə, mötəzilə, bəşəriyə, əskəriyə, bəyaniyə sonralar şiə çatılı olan babi, bəhayi məzhəblərdə bunlara artırıldı.

Şiə tarixində müxtəlif qruplar məmulən sonucu imamlarını mehdi və ya bu xususiyət də olduğunu savunarlar: Məsələn səbeiyə qrupu h. Əli ibn əbitalib`i mehdi bilərlər və ğeyb olduğunu söylərlər; bəyaniyə şiəsi bəyan adında bir şəxsin zuhur etməsinə inanırlar, kisaniə şiəsi (muhəmməd ibn əli ibn əbi talibi mehdi bilirlər), zeydi`lər (zeyd ibn əli ibn hüseyn), navusiyə (cəfərsadiq), ismayiliyə (ismayil ibn cəfər), fəthiə (muhəmməd ibn əbdullah ibn cəfərsadiq), əskəriə (h həsən əskəri) ni mehdi şəklində gələcəyinə

inanırlar. Vaqifiyələr və bəşəriyələr, imam musa`nı, qermətilər, imam cəfərin oğlu ismayılın oğlu muhəmmədi imam zaman bilrlər.
Şiə qrupları müxtəlif qovmlar tərəfindən bənimsənirdi və məmulən hər kəs öz gələnəklərini o məzhəbə uyqunlaşdırmağa çalışırdılar, bu qruplar umumən saxta hədislər düzəldərək və bu əsasda quran`ı təhrif edərək bu işləri yapırdılar, və bu üzdəndə çox vaxt inhirafi yollara gedirdilər və gənəllikle sünnlərə zid mövqe tuturdular, saxta hədis qoşma işində ən başda fars şiəliyi gəlirdi, farsçılar saxta hədislərlə fars şiə məzhəbini, məcusi dininə yaxınlaşdırmaq istəyirdilər, onlar sünnüləri ən böyük düşmən olaraq xalqa tanıtdırdılar.
Azərbaycan şiəliyi bu qrupların çoxunun tərsinə, quran kitabını əsl bilərək o əsasda öz məzhəblərinin ilkələrinə inanırlar, və ayrıca dörd böyük xəlifəyə sayqı göstərərək sünnülərdə islam aləminin önəmli hissəsi kimi görürlər və islamiyətin siyasi cəhətdən və seçim əsasında, h. Əli də qurtulduğunu savunurlar, və on iki imama böyük din bilginləri kimi inanırlar.

12-3-2-fars şiəliyinə mənsub özəl imamət

fars şiəliyinə mənsub özəl imamət haqqında, maidə 55inci ayə istinad edilir (إِنَّمَا وَلِيُّكُمُ اللّـهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ: sizin vəliniz, yalnız tanrı, Peyğəmbər və o mömünlərdiki namaz qılırlar və zəkat verirlər və ruku edərlər, daha aydın anlamı: sizin dostunuz, yalnız tanrı, Peyğəmbər və namaz qılan, zəkat verən və rəku`a varan o mömünlərdi).
Fars şiəliyi mühəddisləri bu haqda sözbirdilər: quya h. Əli ruku halında üzüyünü bir fəqirə verir və bu ayə nazil olur və kotob sitə`də beylə yazıbdı.
"innəma انّما" kələməsi lüğətçilərcə həsr üçündür, "vəli ولی" sözüdə imam və xəlifə anlamındadı,
1-sünnü cəmaət bu ayənin h. Əli haqqında gəlməsinə icmaları yoxdur və tərsinə bu haqda icmaları var: bu ayə h. Əli haqqında nazil olmayıb və h. Əli namazda birinə üzük verməyib və ayrıca

kotob sitə`də beylə bir rəvayət də yoxdur. 2- fars şiəliyi gətirdiyi dəlillə öz məzhəblərini batil edirlər çünki onlar imaməti yalnız h. Əli`də münhəsir edirlər və "innəma انّما" sözü imaməti başqa imamlar üçün səlb edir. 3-tanrı yalnız birini iyi iş görərsə övər, halbuki namaz üstündə sədəqə vermək iyi iş sayılmır və alimlərin çoxu beylə işi namazın batıl olmasına nədən bilirlər. 4-h. Əli`nin çoxlu kəramati və fəzilətləri vardı, və beylə bir kəramət onun haqqında (başlanqıc üç əsrdə) səbt olmayıbdı. 5-Peyğəmbər zamanı h. Əli`yə zəkat vacib deyildi, çünki o yoxsuluydu, 6- fars şiəliyi nin hədisləri həm sənd və həm mətn lahazından düzgün deyildi, özəlliklə maidə 51inci ayə buna qanıtdı, 7-"innəma vəliyukum انّما ولـيّكم " haqqında fars şiəliyinin verdiyi anlam yəni imart və əmir vermək, düz deyil və tanrının buyurduğu iylə oxumur, çünki onların verdiyi anlamla, tanrı bəndələrinə mütəvəlli olur, halbuki tanrı yaradandı və hər şeyə malikdi, 8-vəlayət (وَلايت) və velayət(ولايت) ayrı ayrı iki sözcükdülər, vəlayət, əslində ədavət`in qarşıtı dı və bu ayədə işlənərək dost anlamındadı, halbuki velayət kələməsi vəli və əmir mənasındadı və nə yazıqkı fars şiəliyi bu iki sözcük arasında fərqi tanımır və ya özünü cəhlə salaraq onu sapdırmaq istəyir.

12-3-3-fars şiəliyində h. Əli nı tanrısallaşdırırlar

Azərbaycan şiəliyi vəhy`i və tanrının höccətini, h. Piğəmərdə tamamlandığını savunarlar, ama fars şiəliyi cəli və qondarma rəvayətlərlə h. Əlini tanrısallaşdırarlar və əslində onlara tovhin edərək islam dinin içdən çürütməyi amaclayırlar. Onlar nəhayətən beylə cəllərdən amacları, vəhy məsələsini özlərinə bağlamağı amaclayırlar və özlərinə qutsal mövqeiyət düzəldərək xalqı çapmaq istəyirlər.

Bir rəvayətdə əli deyir «mən yerin tanrısyiam» (mərah ul nəvar s95, bəser üd dərəcat)

əlkafi kitabında bir bölüm «bütün yer imamlara aiddi» adındadı və rəvayətlərin birində deyir (c1, s 409) «əbi bəsir əbi əbdullah dan nəql edir: aya bilirsiniz dünya və axirət imamlar üçündü və

itsədikləri kimi orada təsərrüf edərlər və bu haqqı tanrı onlara veribdi».
Bunun qarşısında tanrı buyurur : (furqan 25/ 2 : الَّذِي لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَلَمْ يَتَّخِذْ وَلَدًا وَلَمْ يَكُن لَّهُ شَرِيكٌ فِي الْمُلْكِ وَخَلَقَ كُلَّ شَيْءٍ فَقَدَّرَهُ تَقْدِيرًا: yer və göylərin maliki tanrıdı və o özündən bir övlad seçməyibdi və hökümətdə və malikiyətdə ortağı yoxdur).
Fars şiəliyindən ayrı bir xorafati və cəli hədis : (Bulud və çəm h. Əli üçün dəyərsiz at və mərkəbdi və hər yerə istəsə sürər, h. Əli buluda minəndə, ıldırım və şimşək vurar) (əlixtisas, s199, bəhar ulənvar c27/32)
(əli iki buludu səslədi birinə özü və o birinə arxadaşları səlman və miqdad və ayrları mindi, əli göylərdə uca səslə deyirdi mən yerdə tanrının gözüyəm danışmaq üçün diliyəm, mən tarının işığıyam və heç vaxt sönmərəm; bəhar ul ənvar c27/34).
-Məclisi 36 rəvayət də deyir : imamlar tanrının gözü və əlidi. (Bəhar ul ənvar c27/191-203) və rical əlkəşi yazır «əli deyir: mən əvvəlç axır, zahir və batinəm» (rical əlkəşi s221, bəhar ul ənvar c94/180, bəsaer ud dərəcat. S 151).
-H. Əli arxadaşlarına dedi gözlərinizi bağlayın, onları bir şəhərə apardı, böyük bazarı varıydı və insanları hər biri xurma ağacı boydaydı, dedi onlar ad qovmudu və bir ıldırım vucuda gətirdi hamısı öldü, və onları zaman geçmədən evə qaytardı və yenə də h. Əli dedi mən bir göz qırpımında dünyanı gəzəbilərəm çünki tanrını 70 əzəm adı mənim yanımdadı (bəhar ul ənvar c94/39-40),
məclisi deyir h. Əli bütün ölüləri dirildəbilir (bəhar ul ənvar c41/194), h. Əli daşa bir zərbə vurdu və ondan 100 dəvə çıxdı (bəhar ul ənvar c41/198),
halbuki quranda deyir : (Ənam 6/ 59, وَعِندَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا إِلاَّ هُوَ..: ğeyb açarları tanrının əlindədi və ondan başqa heç kəs onu bilmir), (əraf 7/ 188, قُل لاَّ أَمْلِكُ لِنَفْسِي نَفْعًا وَلاَ ضَرًّا إِلاَّ مَا شَاء اللّهُ وَلَوْ كُنتُ أَعْلَمُ الْغَيْبَ لاَسْتَكْثَرْتُ مِنَ الْخَيْرِ وَمَا مَسَّنِيَ السُّوءُ إِنْ أَنَاْ إِلاَّ نَذِيرٌ وَبَشِيرٌ لِّقَوْمٍ يُؤْمِنُونَ: ey Peyğəmbər de: mən özüm üçün qazanc və ziyan dalısıca deyiləm məgər tanrının istədiyi miqdarda,

və əgər ğeyb bilseydim mütməinən böyük qazanclar əldə edərdim, və mənə şər gəlməzdi, mən uyarmaqdan və muşduluq verməkdən başqa görəvim yoxdur). (Nəml 27/ 65, قُل لَّا يَعْلَمُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ الْغَيْبَ إِلَّا اللَّهُ وَمَا يَشْعُرُونَ أَيَّانَ يُبْعَثُونَ: de heç kəs göylərdə və yerdə ğeyb bilmir, məgər tanrı), (Ənam 6/ 50, cən 72/ 26-27inci ayədədə eynən həman sözlərə təkid olunub).

1-h. Əlinin kəramatları

fars şiəliyi h. Əlinin fəzilətlərini və kəramatlarını onun möcizələri kimi söyləyərək onu tanrısallaşdırır və onu məsumluğuna və tanrı tərəfindən imam seçilməsinə dəlil kimi göstərir, halbuki h. Əli butür yaxlaşımlara hər dəfəsində müxalifət edibdi, əslində fars şiəliyi, h. Əliyə tovhin edir və amacları özlərini qutsallaşdırmaq və xalqa mütləq hakim olmaq və onların var yoxuna malik olmaqdı.

2-fars şiəliyi öndərləri, özlərini də vəhy lə bağlı olduğunu önə sürürlər.

koleyni deyir həqiqətə çatmaq üçün ilham la mümkündü və oda ürəyi qaşımaq və cızmaqla olur və bir şey və bir söz birdən birə insanin ürəyinə və qəlbinə yenir və buna ilham deyilir və imamlarda beylə idilər və bu üzdən də xəta etməzdilər (usul kafi 1/264), və deyir imamlar mələklərin sözlərin eşidərdilər ama orda olan ayrı şəxslər onu eşitməzdilər (usul kafi 1/176, məclisi 26/73). İmam lar hər zaman istəsəydilər bilələr bilərdilər, və imamlar hər zaman istəsəydilər bir şeyi bilələr tanrı onlara öyrədərdi(usul kafi 1/258) beylə liklə tanrı imamların əmrində olaraq imamların iradəsinə uyardılar.

12-3-4-cabir lovhu

bu haqda farsçı din adamlarının bir uydurma işlərinə yəni «cabir lovhu» mövzusuna baxmalıyıq: farsçı din adamı koleyni, əlkafı kitabında 12 imamı sabit etmək üçün cabir adlı birinin qvluyla bir yalançı hədis düzəldir: quya tanrı Peyğəmbərə bir lovh göndərib və onda Peyğəmbərdən sonra 12 imamın adını yazmışdı və Peyğəmbərdə onu h. Əliyə və oda sırası gəldikcə oğullarına

vermişdi, buraya qədər bir müşkül yoxdur; sonralar h. Cəfərsadiq, oğlu ismayılı özündən sonra imam təyin edir, vəli ismayıl gənc olaraq olur və sonrada daha kiçik oğlu h. musa kazim`i imam mərifi edir, bu qəziyə h. Hadı əli əl nəqi haqqındada ittifaq düşür və oda ilkcə muhəmməd oğlunu imamlıq üçün mərifi edərək muhəmməd gənckən olur və sonrakı oğlu imam həsən əskərini imam mərfi etmək məcburiyətində qalır. Bu münaqişə dolayısıyla müxtəlif şiə firqələri ortaya çıxır və imamət`in ismayılda və ya imam əskəri`də qurtulduğunu və hətta onların ğeyb olduğunu önə sürərlər, və onlara ismayiliyə və əskəriyə şiələri deyərlər.
Birinci sual : hədis`in yalan olduğuna inananlar sual ortaya qoyurlar: əgər bu lövh`ün vucudu varıydı və hər imam sonrakı imama təslim edirdi nəcür olub imam cəfər və imam Hadı bilmədən ayrı kəsləri imam mərifi edirlər? Və sonrada onları dəyişdirmək zorunda qalırlar.
İkincisi sual; əgər beylə lovh varıydı nəcür olub imam həsən əskəri`nin uşağı olmadı, aya tanrının bundan xəbəri yoxuydu?.

12-3-5-bəda teorisi

cabir lovhu mətn cəhətindən müşkülə düşdüyü üçün (cabir lovhu bölümündə birinci suala cavab vermək üçün) farsçılar məcbur olublar bir ayəni əcib halda təfsir edərək ayrı bir teori çıxardalar və oda «bəda» teorisidir, bu teoriyə görə, əgər zaman içərisində şərayit əvəz olursa tanrıda məcbur olur nəzərini dəyişdirsin və yeni bir nəzər versin və 6inci və 10uncu imam Haqqındada deyirlər quya onlar ilkcə böyük oğullarını imam təyin etmişdilər vəli şərayit əvəz oldu və onlar cavanlıqda öldülər və tanrı da məcbur oldu obiri oğullarını imam təyin etsin. Gərçəkdən farsçılar 21ıncı yüzildə eyni əski yunan əsatirləri kimi tanrını insan xususiyətləriylə və ayrıca özləri kimi adamlara bənzədirlər və fikr edirlər tanrı evrənə hakim olmayaraq və onu doğru düzgün tanımayaraq, adamlar kimi yanlış yapır və ya bir şeyi yadından çıxarır və Bəzi adamlar kimi sözünün üstündə durmayaraq onu dəyişdirir.

Fars şiəliyi bəda teorisini quran`ın bir ayəsini təhrif etməklə düzəldir (rəəd 13/ 39: يَمحـوالله مايَشاءُ و يُثبِـتُ: tanrı hər şeyi istəsə aradan aparır və ya sabit edər).
Fars şiəliyinin bəda əslinin yanlış olduğuna quran da olan çoxlu ayələr vardır (taha 20/ 5 : الـرَّحْمَنُ علـى الْعـرْشِ اسْـتَوَى: tanrı ərş üzərinə əgəmənlik qurmuşdur; «nisa 4/ 126 : وَلِلّهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَكَانَ اللّهُ بِكُلِّ شَـيْءٍ مُّحِيطًـا : göylərdə və yerdə hər şey tanrıya aiddi, tanrı hər şeyi quşatıcıdı (hər şeyə əhatəsi vardı».
Bəda haqqında ibn babuye fars şiəliyinin tərsinə deyir« mənsur ibn hazim nəql edir, əba əbdullah dan soruşdum aya olabilir bir gün bir ittifaq düşəki tanrının elmində yoxuydu, dedi yox, hərkəs beylə desə, tanrı onu zəlil və rusvay etsin, yenə də dedim hər nəmənə vardı və olacaq tanrının elmində varıydı, dedi bəli ondan öncəki, xalqı yaratsın». (Ət-tovhid s 334, usul kafi 1/481, rəqəm 9-10)

12-3-6-ğeybət teorisi

İmam zaman və ğeybət çağı
imam həsən əskəri nin oğlu sanılan mehdi 5 yaşına kimi gözlərdən ğeyb olaraq özünə naib seçərmiş beyləliklə 4 nəfər naib ard arda gəldilər və onlar xalqın malın və varını alırdılar və guya imam zamana yetiridilər bəlkə o zuhur üçün işələtsinlər, sonuncu naib səməri adındadı, o ölərkən ondan sonra kimin naib ulacağını sordular və o dedi daha naib seçmə zamanı qurtuldu və imam zaman böyük ğeybətə gedir (ğeybət-i kobra), şayəd şiə, naib məsələsindən qurtulmaq istəyirdi və məxsusən şiə böyükləri imam zamanı görmək istəyirdilər. Ama bu gərçəkləşəbilmirdi.
cabir lovhu mətn cəhətindən müşkülə düşdüyü üçün yəni ikinci sual üçün ğeybət teorisi düzəlibdi: imam əskərinin heç vaxt uşağı olmadı və bu mövzunu onun qardaşı cəfər vurqulayıbdı, imam əskəri`nin mirasi qardaşı cəfər və anası arasında bölündü (1-əlməqalat və əl ferəq s102, 2-ferəq iş-şiə s96, əlmuntəqi 31, imam zəhəbi və nobəxti) və ayrıca heç cürə tarixi sənəd onun uşağının olduğu haqda yoxdur, farsçı dinçilər, yalançı hədislərini doğrulamaq üçün, yalanı

yalan üstə danışmağa məcbur qalırlar və imam əskərinin oğlu cəfər üçün, cəfər-I kəzzab yəni yalançı cəfər ləqəbi verirlər (bu ləqəbin qarşısında 6ıncı imamada cəfər sadıq deyirlər) və onun yalan danışdığını söylərlər, və imam əskəri`nin olmadığı bir oğlunun, ğeyb olduğunu, həmişə diri olmasını və ayrıca bütün xilqətə sahib olaraq, tanrı məqamında olduğunu savunarlar.

-imam əskəri`nin sonsuz olması səbəbiylə müxtəlif şiə firqələri vucuda gəldi və bir sırası Yalvaclığın, h. Muhəmməd də qurtulduğunu dəlil gətirirərək, imamlığında imam həsndə qurtulduğunu önə sürdülər və ya bir iddəsidə onun qardaşlarını imam tanıdılar.

Ğeybət teorisi əslində yəhudiyət dən götürülmüşdü, birsıra batılı müstəşriqlər şiənin kökünü yəhudiyət bilirlər (əl-əqdiyə vəş-şəriyə, s 192), ibn səbə yəhudi olaraq h. Əli zamanı yaşayırdı o sonralar müsəlman oldu və h. Əli şəhid olduğunuda onun ğeyb olmasını önə sürdü.

Ğeybət teorisinin fars şiəliyi tərəfindən düzəlməsinin nədəni

fars şiəliyi yalnız önəmli bir illətə xatir ğeybət teorisini düzəldibdi oda ğeybət zaman dini liderlərinə naiblik məqamı qazandıraraq onları qutsal göstərmək və xalqın canına və malına hökm edəcək otoritəyə sahib olmaları üçündü.

Fars şiəliyinin böyükləri imam zamanın ğeybətinin nədəninini, onun qorxaqlığı bilirlər, və bu üzdəndə öncəki bölümlərdə dediyimiz kimi onun 180 adı vardı, və biri xaif dir və xaif yəni qorxaq, bir hədis də beylə yazılır: محمد بن يحيى عن جعفر بن محمد عن الحسن بن معاويه عن عبدالله بن حبله عن عبد الله بن بكير عن زراره قال سَمعت ابا عبد الله (عليه السلام) يقول ان للقائم (عليه السلام) غيبته قبل ان يقوم و لم قال انّه يخافُ و اَو مَأ بيدهِ الى بطْنه يعنى القتل: əba əbdullah dan soruşular imam zaman niyə ğeybət edir, buyurdular : o qurxur və əl iylə qarnına işarə edir yəni qurxur qarnını sökələr və öldürələr.

Halbuki quranda tanrı birini elçı yolladığında onu mühafizə etdiyini söylər və onu qorxmadan və açıqca sözlərini deməyə təşviq edər, ayrıca səhabələrdən nəql olunubdur guya savaş meydanında şiddət daha çox olanda onlar peyğəmbərin dalına sığınardılar. Və nəcür

qorxağın biri yardımcılarına sığınaq nuqtəsi və dayaq nuqtəsi olacaqdır?.

12-3-7-əliçilərin imam zamanı tanrının saleh bəndəsidir

mehdi məfkurəsi, dünyada olan dinlərin çoxunda vardı, və dünyanın, adil və saleh insan tərəfindən yönətilməsi arzusu, bütün insanlarda vardı. Qutsal quran`ın yorumuyla dünya salehlərə aid olacaqdı, islami məzhəblərin hamısında özəlliklə bütün şiə qollarında, mehdi təfəkkürünə inanılır və onun gəlməsiylə dünya ədalətlə dolacaq və zülümlərə son verəcəkdi,

-bizlər 12 imama inanırıq və bu bir inanc dır, və qondarma tarixi olaylara və yalançı hədislərə niyaz yoxdur, ancaq bu bizim dini inancımızdır, və 11 imama sayqı göstərərək onların düzgün və ağla uyqun olan hədislərini (cəl olunmamış hədislərini) və kitablarını öz iyiliyimiz üçün yaşayışımızda uyqulayırıq, və 12inci imamada öz isteedad və yetənəkliyilə tanrının saleh bəndəsi olduğu üçün və insanların sayqı göstərdiyi üçün ehtiram qoyuruq, və beylə inanırıq o quran ayəsi əsasında «əmrohom şura bəynəhom» gələcəkdir, və bizim vəzifəmiz ortamı onun gəlməsi üçün hazırlamaqdı, bu ortam, xalqın onun iyiliklərinə inanmasıyla, şura vasitəsiylə və tanrının köməyilə mümkündü. çünki tanrı buyurub (rəəd 13/ 11 إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنْفُسِهِمْ..: Bir qovm öz əhvalını dəyişməyincə tanrı onların əhvalını dəyişməz..).

-Məmulən hakimiyətdə olanlar və özəlliklə farsçılar bəzən, milliyətçiliyi və etniki teoriləri, əskimiş və sözdə qeyr modern teorilər kimi alqılayarlar, bu üzdən bucür teoriləri savunanları dərindən tanımaq gərəkir, əlbətdə bəzən bir sıra modern baxışlı şəxslərdə beylə sözləri ortaya atırlar vəli yenədə onların nə qədər bilgili və ya bilgisiz olmaları araşdırılmalıdır.

Yuxarı sözlərdən bir sonuc olaraq vurqulamalıyıq: vətənimiz Azərbaycan, millətimiz türk, dilimiz türkcə və dinimiz islamdır.

Azərbaycançılıq doğrultusunda Azərbaycan milli hərəkatının özəllikləri yığcam halda beylədir :

1-Azərbaycan hərəkatında müxtəlif siyasi-ideoloji axımların olması, milli olaraq, təbii və hətta lazimdir.

2-bu cərəyanlar birbirinə qarşı olmamalı, tərsinə, birbirinə sevgi iylə yanaşmalı, aralarında sıx işbirliyi yaradılmalıdır. Və ortaq nuqtələri böyütməlidirlər.

3-iqtisadi-demoqrafık açıdan, təşkilatlanmamış, ideoloji baxımdan şəkillənməmiş Azərbaycan türkünün, mağmın duruma düşməsi labuddur. Odur ki, sürətlə bilinclənmək, təşkılatlanmaq lazimdir. Bu işi sabaha saxlamaq yanlışdır.
4-Azərbaycan xalqının böyük çoğunluğu müsəlman olaraq islam dininə sayqı göstərilməlidi və onun yanında bütün dinlər, islam dinidə daxil olmaq üzərə aşırılığa üz gətirmədən özgürcə hərəkət etməlidilər.

17-3-3-Azərbaycançılıq və görəvləri

azərbaycançılığın güney və quzey Azərbaycanda üst-üstə düşən və fərqli görəvləri var.
-Quzeydə azərbaycan çılığın əsas vəzifələrini aşağıdakı kimi sıralamaq olar:
- Azərbaycan respoblikasının torpaq bütünlüyünün bərpası;
- Azərbaycan respublikası dövlətinin demokratikləşməsi;
-unitar Azərbaycan respublikasında etnik azlıqlarla uyumun təmin edilməsı.
-bütöv Azərbaycan (quzey, güney, borçalı, dərbənd) şuurunun formalaşdırılması;
-türk dünyasına inteqrasiya və sairə.
-Azərbaycan şiəliyini(əliçiliyin) yeni çağ qoşulları üzərə düzənləməsi, dini oxulların bərpası və dini xorafatdan arındırması və dini cəhətdən umumtürk dünyasıyla ortaq nuqtələrin gücləndirilməsi və onları bütöv Azərbaycan və dünya üzərində yayılması.
-Güneydə Azərbaycançılıq məfkurəsinin tələblərini aşağıdakı kimi formulə etmək olar:
-iranda türk etnik zonasının və güney Azərbaycanın sərhədlərinin bəlirlənməsi;
-iran dövləti daxilində Azərbaycan ustanlarının birləşdirilməsi;
-güney Azərbaycanın muxtariyəti, ya istiqlalı idealının gerçəkləşdirilməsi uğrunda mübarizə ;

-bütöv Azərbaycan (quzey, güney, borçalı, dərbənd) şuuruonun formalaşdırılması;
-türk dünyasına inteqrasiya və sairə.
-Azərbaycançılığın ilərləməsi üçün fars şiəliyindən qurtulma yollarını aramalıyıq və fars şiəliyinin gərçək üzünü xalqa tanıtmalıyıq, bu üzdən güney Azərbaycan türklərinin önəmli amaclarının biri quzey Azərbaycanda və Türkiyə bəktaşiləri içində düzgün və türk gələnəyinə uyqun dinimizi yaymalıdılar və oxulların bərpası üçün çalışmalıdılar.
-Bütöv Azərbaycan və bəktaşilərin ortaq tələbləri və görəvləri :
-Azərbaycan türkləri və onun yanında Türkiyə bəktaşiləri, əraq türkmənləri, borçalı və rusya Azərbaycanlıları və dünyada olan Azərbaycan opozisiyonlarının ən böyük amacı əliçilik məzhəbini canlandırmaq və əslində məzhəblərini xorafatlardan, yalançılıqlardan və düzənbazlıqlardan arındırmalıdılar.
-Bilginlərimizin bir sözü vardı : «türklər tarix yaradıblar vəli tarix yazmayıblar», bu söz geçmişdə qalaraq tarix olmalıdır, türklər və onların yanısıra, Azərbaycan türkləri, kültürlərini, ənənələrini, gələnəklərini, tarix boyu islam dini iylə bağdaşdıraraq uyqulasalarda onları yazıya geçirməyiblər və yalnız bunun üzündəndə fars şiəliyinin və islama hayqırı kötü təfəkkürlərinə yeniliblər və bəzən eylə düşünürlər öz dinlərində həman sasanlı farsçıların dinidir, özəlliklə teknolojinin ilərlədiyi geçən yüzildə geriləmə daha artıq özünü göstərdi, bizlər kültürmüz və gələnəkəlrimiz və bilim amaclı çalışmalarımızın yanında xorafatsız dinimizidə, unutmamalıyıq, və onu çağdaş bilim və fəlsəfə iylə uyqunlaşdırıb və hermenütik lə çağdaş səviyəyə gətirməliyik.

17-4-türkçülük və məzhəb

türkçülük və ya türk milliyətçiliyi bir yaşam fəlsəfəsi kimi təbliğ olunaraq çox vaxt onu məzhəbsiz bir məfkurə şəklində görənlər vardır, halbuki məzhəbsiz türkçülük ağıla sığmaz bir şeyədi,

məzhəbsiz türkçülük içi boş və zehinsəl və təsəvvüri bir şeydir və gərçək olabilməz.
Yuxarıdakı «14- türk xalqlarının istratejik yolu» bölümündə çatı teorisindən bəhs etdik, onu bir dəfədə oxumaq daha aydın olacaqdır, tikrar deyilməlidir, türkçülük məzhəbsiz olabilməz, necəki komonism, kapıtalısm, feodalism və hər diktatorluq və hər demokrasi, məzhəbsiz olabilməz, bunu özəlliklə bütün batılı kapitalistlər və rusya komonistləri və çinli komonistlər iyicə bilirdilər, və indidə bilirlər, nə yazıqkı bizlər bilmirdik, çünki geçən yüzildə bizlər böyük geriləmə dövranı geçirdik, və Şayəddə tazataza özümüzü tapırıq, məzhəb hər millətin mənəviyatının çatısını oluşdurur. Məzhəb hər ölkənin kültürünün çatısını təşkil verir, çatısız heç şey olabilməz, hər mikaniki vəsilə bir çatı üzərində oturar, hər kültür və mənəvi şey bir çatı üzərində oturar və hətta kayinat belə bir çatı üzərindədir onun adını «qara dəliklər» qoyursuz qoyun və ya adını «çəkim gücü» qoyun.
Rus komonistləri, tanrısızlığın, ateizmin ən iqtidarlı dövrələrində belə bunu bilirdilər, rus milləti, marksizm leninizmin əsas kütləsini təşkil verirdilər onların dini kristiyanlıq (məsihiyət) məzhəbləri ortodoksdu, komonismin ən iqtidarlı dönəmindədə ruslar bu məzhəbi təbliğ edirdilər və müxtəlif kələk, hilə və zorakılarla, çuvaş türklərini məsihi dininə soxurdular və ya Bəzi müsəlman tatarları zorakılıqlarla ortodoks kilisəsinə bağlayırdılar, onlar bilirdilər çuvaş türkləri və ya tatar türkləri əgər ortodoks məzhəbinə geçsələr, ya rusların içində əriyərlər və ya etkisiz və gücsüz bir topluma dönərlər, çünki rus ölkəsinin və millətinin çatısı ortodoks məzhəbi dir, əgər biri bu məzhəbə geçərsə rusların içində əriməlidir, əlbətdəki bu çatı nın üzərində balaca balaca ayrı məfkurələrədə azadlıq verilmişdir, çünki çatı sağlam olduqca, ayrı ayrı az sayılı məzhəblər vəya ateist qruplar və ya cürbəcür fəlsəfələr o çatıya zərər verəbilməzlər, bunlara tay çin də də komonism iş başında olduğu halda budaism çatı məzhəb kimi tanınır, və hər ayrı məzhəb

və inanc, bu məzhəbə geçməyə zorlanır və uymayanlarda qəddarcasına qətlam olurlar necəki uyğur türkləri böyüklü kiçikli qılıcdan geçirilir və onların varlığı belə məhv edilməyə çalışılır.
Bunlara tay batı kapitalist ölkələrdə də, yalnız çatı məzhəblərini qorumaq şərtiylə ayrı məfkurələrə və balaca balaca toplumlara yaşama imkanı tanınır, və daima gözətləyirlər bu çatı ən ufaq sədəmə görməsin, necəki Məsələn almanda azınlıq türk toplumu belə daima mərcək altında olaraq daima təzyiq altındadır. Batılı ölkələrdə katolik və protestan məzhəbləri çatı məzhəblər kimi rol oynayırlar.
Batı da və duğuda hər nə qədər yeni idealar və fəlsəfələr ortaya çıxsada örtük dən başqa bir şey deyildi,
əlbətdəki məzhəblərin də çatısı dəyişməkdədir, onlar daima yenilənir, bəzən sağlamlaşır və dahada möhkəmləşir və bəzəndə bizim durumumuz kimi xorafata və yanlışlıqlara bulaşaraq çürüyür və çöküşə doğru gedir, batıda bu dəyişimləri yeni inkişaflar kölgsəində, hermenütik iylə, yaşamsal yorumsama iylə yenilədirlər və çağdaş səviyəyə gətirirlər.
Yuxarıdakı sözlərə qanıt və dəlil olaraq batılıların yeni fəlsəfələrini və filsoflarını incələmək yetərlərdir, hegel, diltey, haydger və qadamer kimi böyük alimlərin sözləri, araşdırmaları, yol xəritələri və qılavuzları yalnız və yalnız din çatısı üzərində dir onların açıqlamalarında din eksenindən (din mehvərindən) başqa konu və mövzu görmək imkansızdır onların hamısının tələşı bu çatını nəcür sağlamlaşdırmaq haqqındadır.
Nə yazıqkı bizim bölgəmizdə, fars şiəliyinin bilginləri, koleynilər məclisilər və tusi`lər, öz çatılarını ən kötü məfkurələrə bulaşdırmışlar və zahirdə geçici ilərləmələr əldə edərək böyük batlağa sürütlənirlər, və dahada yazıq, biz Azərbaycan türkləri bu kötülüklərə uyaraq və inanaraq, bu dünyamızı və o dünyamızı məhv etməkdəyik.

Yuxarıdakı açıqlamalara dayanaraq diyəbilirik özümüzü aldatmayalım, önəmi yoxdur biri dindar olsun, komonist olsun, faşit olsun, liberal olsun, filan hizbdən olsun, və ya türkçü olsun, gərək onun çatı məzhəbi olsun, məzhəb bir millətin və bir ölkənin onurqasıdır və əgər bir ölkədə millətçilik əgəməndir, gərək hermenütik iylə və yaşamsal yorumsama iylə məzhəbi öz ölkə yararlarının üzərində oturtsun, yalnız bu haldadırkı o millət diri qalabilir.

Türkçülük məzhəbsiz olabilməz, Türkiyə türklərinin məzhəbi hənəfi məzhəbi`dir, Azərbaycan türklərinin və Azərbaycan ölkəsi əgər yaşayacaqsa çatısı əliçilik məzhəbi üzərində qurulmalıdır, bu məzhəb, islam dini və türk kültür və gələnəkəlrinin bağdaşmasıyla və tarixi gəlişim sonucu ortaya çıxıbdır nə yazıqkı Azərbaycanlılar, bu kitabda saydığımız əliçilik əsllərinə inandıqları halda, tariximiz kimi onları yazıya geçirməyiblər, və bu üzdən bəzən eylə sanılır Azərbaycan türkləri və iranın ayrı bölgələrində olan türklər, fars şiəliyinin qurduqları əsllərə inanırlar, çünki farslar bunları yazıya geçiriblər halbuki iran türklərinin məzhəbi rəsmləri və gələnəklərinin heç biri, farsçılıq məzhəbiylə heç bir ilgisi yoxdur və çox vaxtlarda qarşı qarşıya dururlar.

Bu açıqlamaları göz önünə alaraq diyəbilirik, bizim millətimizin və ölkəmiz Azərbaycanın, çatı məzhəbi əliçilik dir, bizlər yaşamaq istəyirsək bu məzhəbi canlandırmalı və yaşatmalıyıq.

Ölkə dışında Azərbaycan opozisiyonunun əsli amaclarının biri əliçilik məzhəbini yaymaqdır, bu iş böyük təlaşa niyazı vardır, bu işin odaq nuqtəsi bizim azad olmuş vətənimizin parçası yəni quzey Azərbaycan olmalıdır, bu haqda Türkiyə bəktaşilərida bizlərə arxa olaraq, Türkiyə dövlətinin ilgisini qazanabilir, çünki bu amac Türkiyə türklərinin və əslində Türkiyə dövəlitinin yararına olaraq onlar içindədə böyük birlik yaradabilir, və onları kötü məfəkürlərdən və birlikləri pozan düşüncələrdən arındırabilir. Bunların yanısıra güney Azərbaycanlıların da ən böyük görəvi, öz

məzhəblərinə arxa çıxaraq, öyrənci və öyrətmən məqamında bu yol xəritəsinə dəstək çıxmalarıdır. Bu məsaeli göz onunə alaraq bizlərin ən azindan üç dini mərkəzimiz quzey, güney Azərbaycan və anadoluda olmalıdır.

Bu düşüncəni göz önünə alaraq dindarlar və din adamlarıda heç vaxt batılı məfkurələrdən və hətta komonistlərdən və yeni fəlsəfələrdən və məfkurələrdən çəkinməməlidilər, çünki hamımız bilməliyik hər dünya görüşü o zaman uğur qazanabilir bu millətin mənəvi çatısını və əliçilik məzhəbini bənimsəyələr, və onun kölgəsində və ya üzərində yürüməyə başlayalar.

Bu haqda bir sözədə deyinməmiz önəmlidir, seyid cəfər pişəvəri, böyük solçu olduğu halda aydınca nişan verdi bu millətin içində və o dönəmin komonistlərinin içində özəl yerə sahibdir, seyid cəfər bir tərəfdən tudə hizbi tərəfindən qırağa qoyulur və onun əleyəhinə propaqanda aparılır və ruslar tərəfindəndə xoşgörüylə qarşılanmır və ayrı tərəfdəndə pəhləvi rejimi onu tapdalayır, buna fikirləşmək lazimdir əlbətdə ki aydın nədəni vardır, çünki pişəvəri bu millətin dəyərlərinə önəm verirdi onların məzhəblərini iyi tanıyırdı və ona sayqı göstərirdi, o təşxis vermişdi hər ideoloji və yeni fəlsəfə komonizm dən tutdu libəralizm və ayrıları, yalnız öz millətinin kültür və məzhəbini tanımaqla və ona ehtiram qoymaqla ilərləyəbilr və pişəvəridə düz təşxis vermişdi, və bu yoldada canını qoydu, və buradadırkı pişəvəri kimilər, hər Azərbaycan din adamının da sayqısını qazanmalıdır, bizim solçularımız gərək beylə insanlar olsunlar, nə yazıqkı bizim içimizdə ərani kimilər heç şey düşünmədilər və inandığı fəlsəfənidə tərsə düşünmüşdülər və düşünmədikləri üçün rahatcasına düşmən xidmətinə geçdilər və düşmənə qulluq etdilər, və ondanda pisi, bir sıra yeni solçular sulduz savaşında, müstəqim halda düşmən cibhəsinə geçərək məzhəbimizi və topraqlarımızı düşmənə verməyi savunurdular, mütməinən bizim məzhəbimiz və din adamlarımızda beylə xayın

insanlara qarşı olmalıdır və var güclərilə onların əleyəhinə savaşmalıdılar.
Azərbaycan şiəliyinin əsli görəvlərindən məcusi şiəsinin quran`a hayqırı sözlərini və inanclarını xalqa tanıtmaqdı, bu görəv yalnız, din adamları yetişdirməklə mümkündü, bunun üçün ən azından üç dini mərkəz quzeydə, güneydə və anadoluda qurmalıdılar və araşdırma mərkəzlərində bilgin insanlar yetişdirməlidirlər. Aydındırki bu amaca ulaşmayınca qurtuluşdan danışmaq o qədərdə düzgün görünə bilməz.

17-5-Azərbaycançılıq məfkurəsinin dini amacı əliçilik

- dünya Azərbaycanlılarının ən böyük görəvi öz gələcəklərini sağlam əsaslar üzərində qurmalarıdır, şübhəsiz hər toplumun təməllərindən biri onların inandıqları məzhəb və dindir, Şayəd deyilə indi daha bunlar köhnə sözələrdi, dinimizi yenidən tanımağımıza nə gərək var?, Və deyirlər : daha biz dindən yorulmuşuq bizə yeni məfkurələr lazimdi, və hətta Bəzi yeniçilər deyirlər: daha biz islam dinindən yorulmuşuq və bizlərə din lazim olsada, ayrı bir din lazimdir, özəlliklə farsçılardan bezənlər, islami həman fars şiəliyi sanaraq daha çox bucür söyləntilərə üz gətirirlər, mütəmenən farsçılarında əsli hədəflərindən bucür yaxlaşımların çoxalmasıdır çünki onlar rahatlıqla bu tür kəsimləri aradan qaldırabılərlər, bucür zehniyətlər muqayisədə, Azərbaycançılığı buraxıb turançılığı əsl tutanların təfəkkürünə bənzəyir.
Bunların cavabında deyilməlidirlidir: əgər diqqətlə baxılırsa dünyada indiyə kimi hələ məzhəbsiz toplum görülməyibdi, aşağıda bu haqda lazimincə açıqlama veriləcəkdir, bəzəndə bu sözlər beylə alqılanır, quya bizlər yeni din qurmaq peşindəyik, onlarda yanlış düşünürlər çünki bunada gərək yoxdur, bizə yeni din niyaz deyildi, yetərki bizlər əskidən bəri gələnəklərimiz və kültürümüz əsasında bənimsədiyimiz məzhəbimizi tanıyaq, bu bizə yetər, Şayəd geçmişdə diktatorluqlar üzündən bucür aydınlamalar rahatcasına olabilmirdi və bu yolda babəklər, nəsimilər, səttarxanlar,

xiyabanilər, siqətulislamlar, rəsulzadeler, pişəvərilər, şəriətmədarilər, elçibəylər, qurban vermişik, onlar ya dəriləri soyuldu və ya totəələrlə şikəncə oldular və öldürüldülər, ama indi ilətişim çağında çoxlu imkanlar yaranıbdı, necəki bizim atababalarımız böyük işlər görəbiliblər bizlərdə bu yollarda addım atmalıyıq və özümüzün və ovladlarımızın və torpağımızın gələcəyini qurtarmalıyıq, və bunu başarabilirik, yalnız bir yol xəritəsi lazimdi və bu haqda, yalnızca və yalnızca yolumuz, bizim millitəçilimiz və məzhəbimiz ollabilir, və əgər bu işi düzgün təməllər üzərində qurarasaq qurtulabilirik, bu təmələlri bəlirləmədən geçici hallarda qurtulsaqda yenədə yenilməyimiz və hətta məhv olmamız mümkündür, vəli sağlam təməllərlər və düzgün fəlsəfə iylə dəfələrcə yenilsəkdə yenədə dirilərik və canlanarıq.

Quzey Azərbaycanı bu haqda ən aydın misal kimi göstərmək olar, quzey müstəqil olsada hər an təhlikə altındadır və ən böyük təhlikəni iran ölkəsindən və daha doğrusu fars şiəliyindən görəbilir, bu təhlikənin qarşısında nəcür dayanabilir, buna diqqət etməliyik indilikdə iran farsçıları, uluslararası təzyiqlərə xatır böyük gücə malik deyillər, ama yarın vəraq dönərsə və onlar daha çox güclənirsə, quzey Azərbaycan dövləti hansı güclə və fəlsəfə iylə onların qarşısnda dayanabilir, halbuki buna itminanimiz vardı Məsələn ərmnıstan və ya türkmənistan və ya hətta kuveyt və ərəb əmirlikləri rahatcasına iran ölkəsinin qarşısında dayanabilirlər və hətta geçici halda işğal olsalarda uzun müddətdə özgürlükəlrinə qovuşabilərlər, Niyə? çünki onlarda dil, hoviyəyt və həm məzhəb cəhətindən aydın və bəlirli qoruyucu xətələr vardı və onların dirənişi üçün sağlam və ayirici nədənləri və səbəbləri vardı, özəlliklə din məsələsi burada daha aydın şəkildə özünü göstərir.

Ama quzey Azərbaycanda daima irandan dəstəklənən fanatık teror qrupları vardı və onlar daima iran şiəliyinin kötü və yıxıcı təfəkkürlərinin propaqanda təsiri altında olaraq, hər an patlama nuqtələri kimi olabilərlər, və ya Türkiyə şiələri böyük təhlikə

sayılmasada daima zəif nuqtə kimi iranın qarşısında varlığını qoruyur.
Beylə sorunları nəzərdə tutaraq, həmişəlik bu təhlikədən xilas olmağımız gərəkir, bu təhlikədən qurtuluşun tək və tək yolu, fars şiəliyi kötü məfkurələrindən qurtulmaqdır, və onun yolu öz məzhəbimizi düzgün şəkildə tanımaq, yaymaq və dini oxullarımızı bu sayaqda bərpa etməkdir.
Əliçilik haqda bir şübhə açıqlanmalıdı, indilikdə Azərbaycan xalqı içində müxtəlif məzhəbləri (örnək üçün əliəllahi, əhl həq, goran və..) Görmək müməkündü, onlar Azərbaycan şəhərlərinin çoxlu məhəllələrində yayqındılar və yığvalarında nəsimi, quşçu, nəbatı, füzuli, və şah ismayıldan, şeirlər oxuyarlar. Umumən nəsimi və quşçu daha çox diqqət mərkəzlərindədir, onların çoxlu adları olduqlarına baxmayaraq, Azərbaycanda gənəlliklə onlara «ahəl həq» deyilir («ahəl sünnət» sözünə bənzər).
Fars şiəliyinin təbliğatlarını nəzərdə tutarsaq, quşqusuz onların hamısını imamiyə fars şiəsi kimi tanıyacayıq, halbuki hətta bir şəhər məhəllələrində belə, müxtəlif məzhəblər vardı.
«Ahəl həq»lərin inanclarının ortaq nuqtələri h. Əliyə inanmaqdı və hamısıda ona böyük sayqı göstərərlər, və ilqinc buradadı onların hər hansısına əliçi deyilirsə insana daha artıq sayqı bəslərlər, demək olar əliçi və əliçilik kələmələri möcizəli kələmələr olaraq hamının tərəfindən bənimsənir, bu məzhəblərin fars şiəliyindən ayırıcı neçə nuqtələri vardır: Azərbaycan (əhl həq) lərinin heç biri, fars şiəliyinin əski hədis kitablarına, ən ufaq inancları yoxdur, onları şirk kitabları kimi hesablarlar və bu haqda danışmağı küfr bilərlər, əhl həq; türkcə iyrfani şeirlərə dini gələnək kimi sayqı duyarlar və onları qutsal bilərlər. Ayrıca Peyğəmbərin ovladları haqdada onların önəmli fərqləri vardı, «əhl həq» Peyğəmbər və h. Əlinin ovladlarına istisna qail olmadan bir gözlə baxarlar və hamısına sayqılı olarlar, Məsələn seyidlik konusunda bu fərqi açıq aydın görmək olar, farsçılar yalnız imam hüseynə bağlanan şəxsləri seyid bilərlər (yəzdgerde

bağlayaraq), halbuki əliçilər, h. Əlinin bütün oğullarından gələn şəxslərə seyid diyərlər.
«əhl həq»lərlə fars şiəliyi arasında digər fərq h. Əli haqqındadır, «əhl həq» din böyüklərini h. Əli də qurtulmuş bilərlər, halbuki farsçılar əsil imamları yəzdgerdlə qan bağı dolayısıyla imam hüseyn`in oğullarında bilərlər. Demək olar fars şiəliyi, yalnız imam hüseyndən sonra gələn quşağa əsil imam deyirlər, və onun nədəni saxta bir hədis üzərində imam Hüseyni yəzdgerdin qızına bağlayırlar və sasanlıların onlarla qan bağı olduğuna inanırlar, halbuki əliçilər və əhl həq, qan bağına önəm verməyərək, Peyğəmbərlə yaxın olduğu üçün və bilgin olaraq, h. Əli və oğullarına bir səviyə də sayqı göstərərlər.
«əhl həq»lərin heç biri fars şiəliyində olan imam zamana inanmazlar, halbuki farsçıların nəzərində onun anası bir haldaki axşam çağı onda gəbəlik asarı yoxuydu, gecə, gəbə olur və sübhə yaxın mehdi, anasının budundan dünyaya gəlir və 40 gündə böyüyərək müxtəlif kitabları oxuyur.
Burada bir məsələyə aydınlıq gətirmək lazimdi, məmulən Azərbaycan şiəliyiylə, əliəllahi, əhl həq, goran və.. Kimi məzhəblərin arasında önəmli fərqlər vardı, örnək üçün tənasux, ricət və Hülul məsələlərində Azərbaycan şiəliyi quran`a və ağla uyqun ilkələrə inanırlar, ama bu fərqliliklər türlü məzhəblər arasında əsla sayqısızlığa nədən olmaz və onlar birbirlərinin inanclarına küfr etməzlər və birbirlərindən çəkinməzlər və hətta mərasimlərdə iştirak edərlər, bu haqda kitabın müxtəlif bölümlərində yetərincə bilgi verilmişdi.

17-6-siyasətdə və fəlsəfədə türkçülük və dini anlayış

bu bölümdə göyalp`ın «Türkçülüyün əsasları» kitabından bir neçə mətləb qeyd olunaraq türkçülük və məzhəb haqqında açıqlamalar veririk, Yuxarıda Bəzi sözlər bu haqda olduğuna rəğmən, tikrarlamağında fayda vardır, göyalp`ın sözəlrinə əkləmələr kruşə içində verilibdi.

17-6-1-politikada türkçülük

türkçülük, politik bir partı deyildir; bilimsəl fəlsəfi, estetik (hünəri) bir məktəbdir. Başqa bir deyimlə, kültürəl bir çalışma və yeniləşmə yoludur. Bu nədənlədirki türkçülük, indiə qədər, bir partı şəklində politik mücadilə hayatına atılmadı. bundan sonra da, şübhəsiz atılmayacaqdır.

Bununla bərabər, türkçülük büsbütün politik ideallara qeydsizdə qalamaz. Çünkü, türk kültürü, başqa ideallarla bərabər, politik ideallara da sahibdir. Məsələn, türkçülük heç bir zaman klrikalizmlə, teokrasi iylə, basqı rejimi iylə bağdaşamaz. Türkçülük, modern bir axımdır və ancaq modern nitəliyi olan axımlarla və ideallərlə bağdaşabilir. İşdə bu nədənlədirki, bugün, türkçülük xalq partisinə yardımcıdır.

Gələcəkdə də, daima xalqçılıqla [bizim üçün Azərbaycançılıq deməkdir] türkçülük əl ələ verərək, ideallər dünyasına doğru bərabər yürüyəcəkdilər. Hər türkçü politika alanında xalqçı [Azərbaycançı] qalacaqdır, hər xalqçı da kültür sahasında türkçü olacaqdır.

Dinimiz və əqayidimiz (inancımız) bizlərə bunu göstərir:

məzhəbimiz matridilik (əqlə önəm verən matridi məzhəbi); və fiqə də (huquqda), məzhəbimiz hənfilik [Azərbaycanlılar və bəktaşilər üçün, fars şiəliyindən və xorafatdan arınmış əliçilik]; olduğunu öyrədir. Bizdə, buna bənzədərək, bu ilkəni ortaya atabilirız: «siyasətdə və politikada məsləkimiz xalqçılıq [Azərbaycançılıq], və kültürdə məsləkimiz türkçülükdür [milliyətçilikdir]. »

17-6-2-fəlsəfə də türkçülük

bilim, objektif və olumlu olduğu üçün, millətlərarasıdır. Bu səbəblə, bilimdə türkçülük olamaz. Fəqət fəlsəfə, bilimə dayanmış olmaqla bərabər, bilimsəl düşünüşdən başqa türlü bir düşünüş biçimidir. Fəlsəfənin objektif və olumlu sifətlərini qazanabilməsi ancaq bu sifətlərə sahib olan bilimlərə uyqun olması sayəsindədir.

Bilim qəbul etmədiyi hökümləri fəlsəfə qanıtlayamaz. Bilimin qanıtladığı gərçəkləri fəlsəfə ortadan qaldıramaz. Fəlsəfə, bilimə

qarşı bu iki qural iylə bağlı olmaqla bərabər bunların dışında tümüylə özgürdür. Fəlsəfə, bilimlə çəlişkiyə düşməmək şərtiylə ruhumuz üçün daha umudlu, daha həyəcanlı daha təslli verici, daha çox mutluluq bağışlayıcı, büsbütün yeni və orijinal varsayımlar ortaya qoyabilir. Zatən, fəlsəfənin görəvi bu kimi varsayımları və görüşləri arayıb bulmaqdır. Bir fəlsəfə nin dəyəri bir tərəfdən doğal bilimlərlə uyumlu olması dərəcəsiylə, digər yöndən ruhlara böyük umudlar, hyəcanlar təsllilər və mutluluqlar verməsiylə, ölçülür. Deməkki, fəlsəfənin bir bölümü objektif (eyni), digər bölümü subjektifdir (zehni dir). Buna görə fəlsəfə, bilim kimi, millətlərarası olmaq zorunda deyildir. Milli də olabilir. Bu səbəblədirki, hər millətin, özünə görə bir fəlsəfəsi vardır. Bu səbəblə dir ki əxlaqda, istetikdə(hünərdə), ekonomidə olduğu kimi, fəlsəfə də də türkçülük olabilir.

Fəlsəfə, maddi ihtiyacların gərəkdirmədiyi və zorlamadığı çıxarsız, kinsiz qarşılıqsız bir düşünüşdür. Bu tür düşünüşə «ispekülasion»(qurqu) adı verilir. Bir millət, savaşlardan qurtulmadıqca və ekonomik bir huzura ulaşmadıqca, içində ispekülasion yapacaq fərdlər yetişəməz. Çünkü ispekülasion yalnız düşünmək üçün düşünməkdir. Halbuki, min türlü dərdi olan bir millət; yaşamaq üçün, özünü savunmaq üçün, hətta yemək və içmək üçün düşünmək zorundadır. Düşünmək üçün düşünmək, ancaq bu həyatı düşünüş ihtyaclarından qurtulmuş olan və çalışmadan yaşayabilən insanlara nəsib olabilir. Türklər, indiyə qədər beylə bir huzur və rahata ərəmədikləri üçün, içlərində həyatını ispekülasiona adayabiləcək az adam yetişəbildi. Bunlarda, düşünüş yollarını bilmədiklərindən, ideallərini iyi yönətəmədilər. Çoğunluqla dərvişlik və qələndərlik çıxmazlarına sapdılar.

Türklər arasında indiyə qədər az filosof yetişməsi, türklərin ispekülasiona yetənəklərinin olmadığına yüklənməməlidir. Bu azlıq, türklərin hənüz bilimlərcə huzur və rahatlıq açısından ispekülasiona

uyqun bir səvəyəyə yüksəlməmələri iylə açıqlanırsa daha doğru olur.
Bununla bərabər, türklərin fəlsəfəcə geri qalmaları, yalnız yüksək fəlsəfə baxımından doğru olabilir. Xalq fəlsəfəhsi baxımından türklər, bütün millətlərdən daha yüksəkdirlər.
rostand adlı bir fransız filosofu deyir ki; «bir komutan üçün, qarşısındakı düşmən ordusunun nə qədər əskəri, nə qədər silah və cebhanəsi olduğunu bilmək çox yararlıdır. Fəqət onun üçün bunlardan daha çox yararlı bir şey vardıkı, o da, qarşısındakı düşmən ordusunun fəlsəfəsini bilməkdir.»
Gərçəkdən də, iki ordu və iki millət birbiriylə savaşırkən birisinin yenib digərinin yeniləcəyi sonucunu verən ən başlıca etkənlər iki tərfin fəlsəfələridir. Kişisəl həyatı, vətənin bağımsızlığından kişisəl çıxarı, namus və görəvlərdən daha dəyərli görən bir ordu kəsinliklə yenilir. Bunun tərsi bir fəlsəfəyə sahib olan ordu isə, kəsinliklə yenər. O halda, xalq fəlsəfəhsi baxımından yunanlılara ingilizlərmi daha yüksəkdir; yoxsa türklər mi daha ucadır? Bu sorunun cəvabını verəcək, çanaqqala savaşları iylə anadolu savaşlarıdır. Türklərin bu iki savaşdada yenməsinin (udmasının və üstün gəlməsinin) nədəni, maddı quvvətləri deyildi. Ruhlarında əgəmən olan milli fəlsəfələriydi.
Türklər, maddi silahların, mənəvi dəyərləri hökümsüz buraxdığı son yüzilə gəlincəyə qədər, asyada avrupada, afriqada bütün millətləri yenmişlər, əgəmənlikləri altına almışdılar. Deməkki türk fəlsəfəsi, bu millətlərə aid fəlsəfələrin hamısından daha yüksəkdi. Bugün də öylədir. Yalnız bu varkı, bu gün maddi mədəniyət baxımından və maddi silahlar dolayısıyla avrupalı millətlərdən geridəyiz. Mədəniyətcə onlara eşit olduğumuz gün, heç şübhəsiz dünya əgəmənliyi yenə bizə geçəcəkdir. Mondros`da əsir olduğumuz zaman, orada kamp komutanı olan bir ingiliz bu sözləri söyləmişdi; «türklər, gələcəkdə, yenə cahangir olacaqdılar. »

Görünürki, türklərdə, yüksək fəlsəfə iləri getmiş olmamaqla bərabər, xalq fəlsəfəsi olduqca yüksəkdir. İşdə fəlsəfə də türkçülük, türk xalqındakı bu milli fəlsəfəni arayıb meydana çıxarmaqdır.
ey, bugünun türk gənci! Bütün bu işlərin yapılması, Yüzillərdən bəri səni bəkləyir.

17-7-əliçilərin yaşam fəlsəfəsi

əgər bu gün Azərbaycan türk milləti yenilmişsə, onun başlıca nədəni, yaşayış fəlsəfəsinin çürümüş olmasıdır, bu fəlsəfə səfəvi dövrəsindən başlayaraq, böyük geriçilik və xorafat üzərində qurulmuş əski farsçı kültürüylə, ələlə verməsiylə başladı, bu qəhqərayi hərəkət hələdə hələdi sürməkdədir və demək olar bu yaşayış fəlsəfəsi dəyişmədikcə bu millət, yox olmağa və çürüməyə doğru getməkdədir, mütməinən bu fəlsəfənin ən önəmli qollarından milli baxış olaraq, ayrıca dil, din və kültüründə əsli nəqşi və rolu vardır, yeni nəsil 20 ildən bəri hızla bu əsaslara sahib çıxmaqdadılar.
Bunun yanında bir ayrı ünsürdə bunun mükəmməli və mütəmməmi kimi sayılır, yadımzda olsun biz səfəvilərdən öncə umum türk dünyasıyla eyni baxışda olaraq güclü addımlarla yürüyürdük, ama öz dinimizə farsçılıq və sasanlı dini əsaslarından olaraq, şirk və xorafat ünsürlərini qataraq, geriləməyə başladıq.
Bizlər ilərləmək üçün dinimizin kültürmüzün və yaşam fəlsəfəmizin içəriyini bəlirləməliyiz, burada yalnız o dinin içəriyi, bizim dünyaya, baxışımızı bəlli edir, və bizim millətin bütün kəsimlərində o cümlədən milli mübarizə aparan öncülərimizin üzərində təsir qoyur, və ein halda dini öndərlərimizdə, sərmayə sahiblərində, işçilərdə, əkinçilərdə, əsnaf və bilgin lərimizdə və oxumuş bütün insanlarımızda və bütün xalqımızda təsirli olacaqdır. Bu haqda «13-din məsələsinə umumi baxış» bölümündə yetərincə danışılmışdı, yenə də xatırlamağı yararlı gördüm.
Sonunda bir önəmli şeyədə işarə olunmalıdır, mən özümdə Bəzilərindən eşitmişəm, beylə deyirlər quya bizim dinimiz o qədər

yanlış əsllər və xorafi hədislərlə doludurkı bu din qaldıqca, bizim millət fəlakətdə yaşayacaq, bucür əfrad kəsinliklə yanlış fikirləşirlər, və xalqımızı uçurumlara sürütləmək istəyirlər, indiki iranda quşqusuz Azərbaycan türk milləti, din haqqında ən oyaq və bilgili insanlardılar, özəlliklə güneyli türk aydınları və fəalları və dahada önəmlisi quzeyli aydınlarımızda din haqqında daha düzgün düşüncələrə sahibdilər və heç vaxtda farsçı dinçilərə, din yararçılığı haqda və xalqı birbirinin canına salmaqda bu fürsəti verməzlər. Və bunu deməliyəm, quşqusuz bizim islam dinimizin və əliçi məzhəbimizin qusuru yoxdur yetərki ondan, bulaşmış xorafatları, və özəlliklə sasanlı dinindən bulaşılan yanlış məfkurələri arıdaq və xalqı öz əsli gələnək və görənəkləriylə və dinlərinin düzgün ilkə və əsaslarıyla tanışdıraq. Və dinimiz üçün, qutsal quran kitabını ölçü olaraq nəzərdə tutaq və bütün quşqulu hədisləri məzhəbimizdən çıxaraq və qalanlarınıda təzadlı anlamların olmadığı şəkildə və yalnız bütün dini və bilim adamlarımızın icmasi olduğu halda yararlanaq.

-İndi daha əskilər kimi savadsızlıq çağı deyildi və hər kəs özü və ya ən yaxın ailə və qohumları vasitəsiylə hər məsələnin düzlük və yalanlığını, din və bilim ölçüsüylə öyrənmək məcburiyətindədir. İndi çağ dəyişibdi, həman şəkildəki bir siyasi hizbin və qrupun üyələri Yuxarıda oturanlara yön verəbilirlər, dini məsaildədə bütün kütlə, din adamlarına və onların daha məntiqli və daha düzgün yorumlamalarına və davranışlarına yön verməlidilər və eleşətirilərivlə onları uyarmalıdılar.

-Yeni çağda teknolojinin və ilətişim sahəsində böyük ilərləmələr hər şeyi dəyişdirməkdədir və şəksiz şuubiyə və fars şiəliyinində əsasları, diktatorluq, yalan, iftira, töhmət və totəə üstündə oturduğu üçün, qırılmağa doğru getməkdədir, bizlər gərək bu ortamdan düzgün yararlanaq və öz müqəddəratımızın dəyişməsinin fikrində olaq və gələcəyimizi sağlam təməllər üstündə quraq, və quran`ın sözünə

sığınaq: (rəd 13/ 11: إِنَّ اللهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُوا مَا بِأَنْفُسِهِمْ..: Bir qovm öz əhvalını dəyişməyincə tanrı onların əhvalını dəyişəməz..)
Bizlər əliçilik məzhəbində olaraq, dini inhiraflardan uzaq durmalıyıq, geçmiş 4-5 yüz ildə bu inhiraflar sonucu bütün varlığımız sual altına getdi, bizlər fars şiəliyilə heç bir ilgimiz yoxdur, və biz o zaman, onlarla rahat yaşayabilirik ki, onlar yıxıcı və zid islami və zid insani işlərindən və amaclarında əl çəksinlər, aydındır bunların başında, qadın alverçiliyi, təqiyə (və ondan törənən oğruluq, teəror, totəə, adam öldürmə və yıxıcı silahlar peşində olma), xalqa və onların oyuna və səsinə inanmama məfkurəsi və özgələrinə düşmənçilik yaratmaq və onları düşmən sanmaq kimi təfəkkürlər gəlir.
Bu kitabı hazırlarkən dolayılı və dolayısız, çox insanlarla və özəlliklə türk fəallarıyla qonuşdum və təlaşım onların din haqqında nəcür düşündüklərini öyrənmək iydi, onların çoxu din haqqında dərinə getməyi düzgün bilmirdilər və Bəzilərdə suriyə, əraq, lubnan və nəhayətən iranda aşırı şiəlikdən dolayı özlərini şiə adlandırmaqdan belə qaçınırdılar və bunlara qarşı əliçi olmağı və əliçiliyi daha çox bənimsəyirdilər.
Sonunda bu sonuca varabilirik biz əliçiyik, ayrı deyişlə bizlər bəyənməsəkdə Azərbaycan şiəsiyik və geçicidə olsada bu adla tanınırıq. Bizim dinimiz və məzhəbimiz, fars şiəsiylə və sasanlı diniylə, köklü olaraq fərqlidir, bizlər buna vardıqca, daha sağlam addımlarla qurtuluş yolunda yürüyəbilirik.
[səməd bayatlı (günəş ili1392, m. 2013)]

18-qaynaqlar

a. Hisam / tatar ulusal hərəkəti, turan ruhunun adası.
Azər xəzər(köçürən), xiyabani və azadistan dövləti
Azərbaycan türkleri, bulud qaraçurlu səhənd
araz polad urg, milliyətçilik: təhəccür ya təcəddüd,
aydın balayev, muhəmmməd əmin rəsulzadə və milli özünü dərk problemi(1917)
elnür mikayilov, 21. Əsirdə «türk birliyi» projəsi,
ibn babuye qomi, Mən la yəhzər ul fəqih
əbu əbdurrəhmən muhəmmədi, təşəyyo və mötəqidat-e an
əbu muhəmməd novbəxti, mütərcim xonci, firəq-e şiə
əbu seyid ənsarı, nəfrin-e imam hüseyn
ehsan ilahi zəhir, şiə və şiəgəri firəqha və tarix-e an
əhməd irani, alə dalfek, pəjühəşi dər zəndəgi-ye əli.
Əhməd irani, əndişməndan və dinhaye duruğin
ərdəşir payəndə, nəqd borhan-haye vucud-e xoda
ishaq özgəl, quran və tarixsəlcilik, 2002
ishaq dəbiri, suallati kə baəs-e hedayt-e cəvanan şiə şod
əkrəm rəhimli,20ci əsr güney Azərbaycan azadlıq hərəkatında ş.M.Xiyabani`nin yeri və rolu
umud yaşam, xiyabani, pişeveri və şəriətmədari ayaqlanmalarına ötəri baxış
ışıq sönməz, dövlət-millət və demokərası üzərə yazılmış Bəzi görüşlərə baxış
ışıq sönməz, iran milləti kimliyi və millət dövləti kimliyi
ilbər ortaylı, iran devrimlərinin başladığı şəhir
ilk müslman–türk dövləti qaraxanlılar yox, Azərbaycan sacilər dövləti olub.
Böyük rəsuloğlu, yeşillər hərəkatında, Azərbaycan !.
Babək azəri, xoşkandən-e dəryaçə-ye urmiye, yəni şellik-e tir-e xəlas

bəxtiyar tuncay, Azərbaycançılıq məfkurəsi və Azərbaycan türk – islam ronesansı
bərqei qomi, bərrəsi elmi dər əhadis məhdi
cemal avcı, yusuf akçura
cəmil həsənli, əlimərdan bəy topçubaşı : böyük mübarizə lərdə keçən ömür
xomeyni, tuzih ul-məsail
xomeyni, kaşf ul-ğita
xonci, tarix-e şah ismayıl səfəvi
nasir ibn əbdullah ibn əl-qəfazi (doktor), usul bərrəsi və nəqd-e payə və məzhəb-e 12 imami
rəcəb dəmir, quran təfsirində tarixsəlci yöntəm, 2012.
Riza muradı qiyas əbadi, rənchaye bəşəri, 1392
zınnur aqliyullin, türk xalqlarının istratejik yolu.
Seyf əd-din altaylı, türk milləti
səid mətinpur, türk millətçiliyi: bir ittifaq arasında yol
suheyl əhmədi, təşəyyo əz peydayiş ta təkamul
şeyx cəmal əd-din əfğani: kimliyi, həyatı və idealları
şahin həsəni, elinasion, fanatizm və hərəkət-e milli-ye Azərbaycan
şahin gürsoy - ihsan çapcıoğlu, bir türk düşünüru olaraq ziya gökalp
şahin yenişəhirlioğlu,2004, qadamer`in hermenütikində biranlama modeli olaraq diyaloq.
Şuca əd-din səfa, tovzih ul-məsail
şəriətmədari, tovzih ul-məsail
şeyx əbdurrəman dəmeşqiyə, qətre-i əz dəryaye xorafat
sabah əddin çağın yusuf akçura
sədəf, kimlik kavramı, etnik kimlik, ulus-devletləşmə sürəcində meydana gələn sorunlar.
Tahir məhamı, şuubiyə bozorgtərin nehzət-e cəl tarix və duruğ sazi
tahir aydınoğlu, üzeyir bəy hacibəyli – milli mədəniyət mücahidi
tusi, Əlistibsar
tusi, `təhzib ul əhkam`

taha hamid dəlimi, əstedlalhay-e batel-e şiə əz quran və bəyan botlan-e an
taha hamid dəlimi, seyri dər cəhane təşəyyo
abid tahirli,bütün türklərin tərcumanı, ismayıl bəy qaspiralı
arif kəskin, irandakı etnik milliyətçilik,
əbdürrəhim mallazadə virangəriıhaye təşəyyo
əbdullah əl-museli, fərar əz çalə
əziz yardımlı, martin haydqer, varlıq və zaman.
Ələvi bəktaşi inancının əsasları,danimarkalı birlikləri fedrasionu, dabf
əli engın oba, türk milliyətçiliyinin doğuşu
əli hüseyn əmiri, sorxab və sefidab
əli hüseyn əmiri, holokast şii
əli dəşti, təxt pulad
əli dəşti, bst o se sal
əli kəmal, əhməd fərid, ənvər ziya karal, yusuf akçura üç tərz-i siyasət
imadəli əbdussəmi hüseyn, muhəmməd ömər ibrahimi, xiyanəthaye təşəyyo
feysəl taşıçiər, qadamer və tarix bilinci sorunu
fərzam, riçard davkinz, pəndar-e xoda
quran kərim, duzal
quran kərim, diyanət işləri başkanlığı
quran kərim, qomşei
kitabxana əqidə, alfus
kəsrəvi iki şəxsiyətli olaraq yarım milliyətçi türk və tamam ingilisçı fars, azərel
koleyni, usul kafi
kəngər körfəzinin ədına iddia artır
kazım həzarə, idrisiyan əvvəlin hökümət şii dər şumal-e afriqa
güney Azərbaycanda milli hərəkat: suallar və vəzifələr
m.R.Yengi, Azərbaycan toponim kimi !

M.R.Yengi, türkün oxunmamış bəlgələri : nüvədi-qarqadaşı kitabəsi
m.R.Yengi, əhəmənilər dövrünə aid türkcə yazı numunəsi
m.Əbduləhi, islam-e nab
məhbub əmrullahi, şah ismayılın kökəni üzərinə
məhbub əmrullahi, təşəyyo və nəqş an dər jeopolitike azərbaycan cənubi və istiqlal
muhəmməd baqir sucudi, karnamə-ye imam zəman
muhəmməd cəvad muğniyə, muhəmməd ayətullahi, əmir mömünan və Azərbaycan və dovləthaye şiə dər tarix
muhəmməd əbdurrəhman əsseyf, quran və təhrif
məmməd əmin rəsulzadə ; millətçilik- patriyotizm, ramin cabbarlı
məmməd əmin rəsulzadə; millət olmaq əzmi
murat duran, ölümünün 87 ili anısına türk milliyətçiliyinin ufuq adamı: ziya göyalp
musa musəvi, şiə və təshih
mustafa keskin, ziya gökalpın din anlayışi
milli hərəkatin demoqrafik impratividləri
n. Fəcr məğləte haye ruhaniun
nəsib nəsibli, Azərbaycanda türk varlığı: siyasi-ideoloji tərəfi
nəsib nəsibli, əhməd ağa oğlu iran ortaq
nəsib nəsibli, təbrizli əlinin harayi
nəsib nəsibli, topçuobaşının sualları
nəsib nəsibli, türkçülüyümüzlə azərbaycançılığımız
nəsib nəsibli,əlirza nabdilin yanlışları
nəsib nəsibli ; həsən bəy zərdabi: örnək şəxsiyət, örnək fikirlər
nəsib nəsibli, güney Azərbaycan 20-ci yüzilin qaranlıqlarında, qacar dövlətində türklərin və Azərbaycanın yeri
nəsib nəsibli: türk dünyası tarixində zərdabi dövrü
nəsib nəsibli, əhməd bəy ağa oğlu: nəhəng fikir və əməl adamı
nəsib nəsibli, ultan mahmud, şuubiyə və şahnamə
nəsib nəsibli, paniranizmin yaranması və türklük

nəsib nəsibli, səfəvi muəmması (güntay gəncalpın `səfəvilər` kitabı üzərinə)
nəsib nəsibli, millətləşəmə sürəcində şiəliyin yeri
nəsib nəsibli, nasir purpirarın zərbəsi
nəsib nəsibli; rəsulzadə nin çağdaş `iran türkləri`
nizami cəfərov; əli bəy hüsenzadə, yaxud millətin romantik mütəfəkəkiri
nəvar islam, Fatimə, vəfat və ya şəhadət
hakan kaygusuz, seyid cəfər pişəvəri və güney Azərbaycan milli hökümətinin quruluşu.
Hilmi ziya ülken; türkçülüyün və türk sosiyalizminin babası əli turan
yeni musavat, ortaq türk dili hansı əsasda olmalıdır?
Yaşar nuri öztürk, allah iylə aldatmaq
yalçın sarı kaya, iranda Azərbaycanlı türk milliyətçiliyin tarixi gəlişimi,
yalçın sarıkaya, iranda milliyətçilik və bölgə yə yansımaları (19)
buxari, müxtəsər səhih buxari, mütərcim : əbdülqadir türşabi.

19-sözlük

aktif: fəal və işlək, təsirli.
Analıtık: Analızhə aid, təhlili, çözümsəl.
antroposentrik: insan mərkəzci
epistemoloq:bilgi quramı, farsca mərifət şinasi.
etnoqərafi:birxalqın və ulusun mədəni və tarixi əlaqələrini incələyən bilim, budun və soy bilimi.
Özdəşləşmə: Eyniləşmə, vahid bir özəlliyə malik olma.
özgü : vijə, məxsus.
Özgün : orijinal, özünə məxsus, özünə özgü.
Öznəl: öznəyə ilişgin, sabcektiv, nəsnələrin gərçəkliyinə deyil bir fərdin əhsas və duyqularına dayanan; nəsnəl qarşıtı, zati.
Öznəlık : failiyət.
Öznə:1-fail, mobtəda, müsnədəleh «uşaq kiçikdir». 2-(fəlsəfə) bilinci və düş gücü olan, Bəzi filosoflara görə eşik dünyaya qarşıt olan birey, zat.
istetik gözəllik :bədii gözəllik.
istetik: bədiiyat, gözəl duyular bilimi, hünər.
Emosional : həyəcan verici, həyəcanla dolu.
Evrim: təkamul
Spekülasion:1-vurqunculuq, ehtikar, ilərıdə meydana gələbiləcək qimət dalqalanmasından qazanc ələ gətirmə işi; düşüntü, sapdırma və azdırma söz. 2-(fəlsəfə) qurqu «somut öyüdlərdən çox soyut spekülasionlara yetişilir».
Obəjekətif : nəsnəl, maddi varlıq, eyni.
Obəjə : eyni, xarici vucudu olan.
ürün: tovlid.
ürətim : tovlid, istehsal.
Ülkü : amac ediln şey, ideal şey,
oluşmaq : ortaya çıxmaq, varlıq qazanmaq.
olumsuz : mənfi
olumlu : müsbət

Ontoloji:varlıq bilimi.
üyə : üzü.
Əhl beyt: Yalvacdan törənən (onunla qan bağı olan) və onun yaşayışında dünyaya gələn şəxslərə deyilir, bəzən bu kələməni Yalvacla qan bağı olaraq onun ölümündən sonra dünyaya gələn şəxslərə də deyilir, bu düzgün bir yorum deyil çünki amarı həsab və mətemətik qaydalarını nəzərdə tutarsaq indilikdə milyardlar nəfər onun əhl beyti olur və anlamsız bir məna olur (Yalvac dan sonra ovladları hər 40 ildə 4 çocuq sahibi olsalar indilikdə milyardlar nəfər onunla qan bağı olacaqdır).
İdeal: məfkurə : ülkü.
ilkə : əsl, əsas.
Bölgü : bu kitabda bənd mənasında işlənibdi, bir kitab neçə fəsil və hər fəsil neçə bölüm və bölüm bir neçə bölgü dən ibarətdir.
Bağdaşmaq : uzlaşmaq, uyuşmaq.
Panteizm: tanrı və evrəni birləşdirən və özləşdirən görüş.
paradoks: tənaquz, zəddiyət, əzdad paradox
paradiqma:dizi, ard arda gələn şeylər.
teosentrik: tanrı mərkəzçi
teokrasi : yasaların allahın yer üzündə ki kölgələri sayılan xəlifələr və sultanlar tərfindən yapılması deməkdir.
Teoloji: ilahiyat
teoloq: ilahiyatçı
təqiyə : bax gizçilik.
Tutqu : arzı, həsrət, bağlılıq.
tümməl: kolli, cüzlərdən təşkil taparaq bütün olan hər şey.
Tikəl: koll dan bir cüz, cüzi, bir qism.
Çəlişki: paradoks, birbirinə mütənaqiz olan iki şey
h. : Həzrət
hatib ul-ləyl : bu söz Bəzi hədis tuplayan şəxslər haqda işlənir, sözcük anlamında «gecə odun yığana» deyilər (gecə göz görmədən dəyərli və dəyərsiz odunlar ayırd etmədən yığılır və keyfiyəti yaxcı

olmur), və toplumsal anlamda pisi və yaxcını bir yerdə toplayana deyilir və açıqcası işi və topladığı hədisləri, çox düzgün olmayan şəxsə deyilir.
Dövlət başçısı : başbaxan, nəxost vəzir
demokrasi istər devinim : demokrasi yanlısı olan hərəkət və qalxış
devinim : hərəkət, devrim. Devinimsəl : devinimlə ilgili, dinamik.
Daşqalaq : səngsar
dolayı : bu səbəblə, səbəbiylə.
Döngüsəl : dayirəvi
Dışarı : xarici.
rəvayət : hədis və rəvayət hər iki kələmədə bir anlamda işlənir və piğəməbər, səhabələri (piğəməbərin arxadaşları və dörd xəlifədə onların içində olaraq) və on imamdan söylənilən və nəql olunan sözlərə deyilir.
Subjektif : öznəl, nəsnəl qarşıtı, zehni.
Sürəkli: dəvamlı və durmadan.
Sorun : məsələ; müşkül, problem.
Şiə : (fars şiəsi) sasanlı və əski fars kültürünə dayanan bir islami məzhəbin adı.
Şiəçi : ğayi şiə yanlısı və onu aşırı halda savunan (farsca: tərəfdar efrati-yə şiə).
Şiəçilik : aşırı şiəlik, ğayi şiə məzhəbi əsasında öyrətilərin tümü, şiəçilik (farsca: şiegəri, şiigəri).
S. : Səfhə.
Aişə : bu kələmə əslində aeşə olaraq, ərəbcə «aşə və əl-eyş» sözcüklərindən törənibdi və yaşam və yaşayış anlamındadır, və eyş kələməsi quranda yaşam anlamında gəlibdi: (əlqariə 6-7) « فامّا من ثقُلت موَازينـه * فَهُوَ فـی عِيـشه رّاضـيه: tarazısı ağır gələn kimsə, iyi yaşayışı olar».
Aişə xanım adi olaraq piğəməbərin xanımının adıdır aişə 9 yaşında piğəməbərin qadını olaraq, 12 yaşında onunla evləndi və quran da onu ümm ül-mömünün (امّ المـؤمنين) ləqəbi verilibdir. Bu ad qız adı

olaraq, islam dinində müqəddəs ad olaraq, özəlliklə sünnü türklərin içində geniş halda işlənir.
Fanatizm : Bağnazlıq, aşırı bağlılıq.
qavram : məfhum, anlam
quram : teori, nəzəriyə
qurqu:qurğu: 1-düşüncə də qurulan şey. 2-bir bütünü düzəltmək üçün parçalarını birbirinə taxıb birləşdirmə işi, muntaj. 3-bir şeyi kökləmək üçün yararlanan kilid biçimində arac, alət, cəhaz, vasitə. 4-kələk, hilə, tələ, ruse 5-ədarə, sazman, örgüt.
Karizmatik: büyüləyici, etgiləyici.
Kritik: bohrani, gərgin
klrikalizm : əsasən, tanrı tərfindən qoyulduğu iləri sürülən gələnklərin dəyişməz yasalar sayılaraq allahın sözçüləri sayılan din adamları tərfindən yorumlanmasıdır.
gəlişəmə: inkişaf.
Gizçilik : (farca :təqiyə) aldataraq və yalan danışaraq onu inanc lahazından düzgün bilmək, hərcür kötü işo, conayət və düzənbazlığı görüb və onun danmasını inanc lahazından yasal hala gətirmək.
Literalist, Literatur: zahiri /nəss`çi
m. : Miladi
matridi : muhəmməd ibn muhəmməd ibn məhmud əbu mənsur əlmatridi əlsəmərqəndi əlhənəfi, türkbilgini olaraq imam hənfi`nin məzhəbini təqib edər və əqlə önəm verər və islam dininin bir etiqadi məzhəbi nin qurucusudur.
Maddəci: materyalist
munist : təkəlçi.
mistik panteizm :ağıl yoluyla yox könül yoluyla vəhdəti vucuda inanan görüş
mistisizm :tanrı və gərçəyə ağıl və araşdırma yoluyla deyil, könül yuluyla duqu və sezgi iylə varabiləcəyini qəbul edən fəlsəfə və din dokteriyəni, gizəmçilik.

Nəss : ərəbcə kələmədi, çoxluq şəkli nəsus kələməsidi, mənaca mötəbər və aydın sözə deyilir, nəss sözündən yalnız tək bir məna və anlam çıxarmaq olar və şübhəli anlamı olmaz, bu kələmə quran ayələri və sözləri üçün işlənir və nəss olan sözlər aydın olaraq onlar haqqında ikili düşünüşə və istinbata yer yoxdur.
Nəssçi: literalist, zahiri
nitələmək : bir şeyin keyfiyətin bəlirləmək (ortaya çıxarmaq).
Nitəlik : keyfiyət.
varoluş:1-yaradılış, yaşamağa girmə və var olma. 2-bir şeyin nə olduğunu nə cür olduğunu deyil var olduğu olayi və olqusunu önəmsəyən görüş; öz qarşıtı, movcudiyət.
varoluşçu: iqzistansiyalist, varoluşçuluq yanlısı.
varoluşçuluq:varavluşçunun anlayışı və düşüncəsi ,igzistansiyalizm; varoluşun öz`dən öncə gəldiyini və öz`ü sürəkli olaraq yaratdığını ileri sürən öyrəti; bax: varaoluş; bu məktəbə görə insan seçimə məhkum olaraq puçlüğün caynağında əsirdir və heçə bel bağlamışdır və o nəyəsə asılı olmadan öz gücünə özünü gəlişdirməlidir. Bu məktəb çoxraq jan pol sartr‘ın adıyla bağlıdır.
H : hicri qəməri ili
heterodoks: gənəl din və inanca müxalif olan inanc, mürtəd heterodx
yırtmac: paltov, kot, ətək, kimi giyisilərin arxasında tikilməmiş yeri,çak.